QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 238 (5958) **24 dekabr** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# Azərbaycanda bələdiyyə seçkiləri uğurla başa çatdı!

*Azərbaycan Prezidenti İlham Əliyev 6 saylı seçki məntəqəsində səs verib*



Səh 2

11

Əli Əhmədov: "Qarşıda bələdiyyələrə seçilənlərin xalqa ləyaqətlə xidmət etməsi kimi böyük məsuliyyət və vəzifə dayanır"



11

YAP: "Bələdiyyələrə növbəti azad, demokratik və şəffaf seçkilər keçirilib"



12

Müasir Azərbaycan dövləti daha da qüdrətlənir, zənginləşir, hərtərəfli inkişafa nail olur



# Azərbaycanda bələdiyyə seçkiləri uğurla başa çatdı!

*Azərbaycan Prezidenti İlham Əliyev 6 saylı seçki məntəqəsində səs verib*









***Dekabrın 23-də müasir müstəqil Azərbaycanın tarixində növbəti bələdiyyə seçkiləri günüdür. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva səs vermək üçün Bakı şəhərinin 29 saylı Səbail seçki dairəsinin 6 nömrəli orta məktəbdə yerləşən 6 saylı seçki məntəqəsinə gəldilər.***

Prezident İlham Əliyev səsvermə otağına daxil olub seçki bülletenini alaraq kabinəyə keçdi və sonra bülleteni qutuya saldı. Sonra birinci xanım Mehriban Əliyeva və Leyla Əliyeva səs verdilər.





# İlham Əliyev: “Azərbaycan 2019-cu ildə uğurla inkişaf edib”

## *Prezident İlham Əliyev yerli jurnalistlərə ilin yekunları ilə bağlı geniş müsahibə verib*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də yerli jurnalistlərə ilin yekunları ilə bağlı geniş müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.**



“Müavinətlər orta hesabla 50 faiz, yaxud da 2 dəfə, minimum əməkhaqqı 2 dəfə, minimum pensiya 70 faizdən çox artırıldı. Minimum pensiyanın alıcılıq qabiliyyətinə görə bu gün Azərbaycan MDB-də birinci yerdədir. Amma o demək deyil ki, bu, bizi qane edir, yox. Biz istəyirik daha da artsın və əminəm ki, artacaq”

***- Cənab Prezident, hər vaxtınız xeyir olsun. Fürsətdən istifadə edib mən Sizə hər birimizin adından təşəkkür edirəm ki, belə bir şərait yaratmısınız və müsahibə ilə bağlı müraciətimizə müsbət cavab vermisiniz. Əlbəttə, bu, bizim üçün imkandır və biz müxtəlif sahələrlə bağlı suallar hazırlamışıq. Amma mən istərdim ki, 2019-cu il ərzində beynəlxalq münasibətlər sistemində regional və qlobal miqyasda Azərbaycanın atdığı addımlar və əldə etdiyimiz diplomatik nəticələrlə bağlı Sizin fikirlərinizi eşidək. Ümumiyyətlə, 2019-cu il bu baxımdan bizim üçün nə ilə yadda qaldı?***

- 2019-cu il sona yaxınlaşır və əlbəttə ki, il ərzində görülmüş işlər, ölkəmizdə və regionda baş vermiş hadisələr çox ciddi təhlil tələb edir. Bir şeyi tam dəqiqliklə deyə bilərəm ki, ölkəmiz üçün bu il uğurlu olmuşdur. İlin əvvəlində qarşımıza qoyduğumuz bütün vəzifələr həyatda öz əksini tapıb. Azərbaycan 2019-cu ildə uğurla inkişaf edib. Bu inkişaf imkan verir ki, biz gələcək illərdə də öz addımlarımızı düzgün ataq və 2020-ci il də ölkəmiz üçün uğurlu olsun.

O ki qaldı, xarici siyasətlə bağlı olan məsələlərə, hesab edirəm ki, bu sahədə də böyük uğurlar əldə edilib. Bizim ənənəvi tərəfdaşlarla əlaqələrimiz daha da yüksək pilləyə qalxıbdır, qonşu ölkələrlə bir çox birgə təşəbbüslər irəli sürülüb, bir çox önəmli razılaşmalar əldə edilib. Deyə bilərəm, - mən dəfələrlə bu mövzu ilə bağlı fikirlərimi bildirmişəm,- qonşu ölkələrlə münasibətlər hesab edirəm ki, bütövlükdə hər bir ölkə üçün xüsusi məna daşıyır, o cümlədən Azərbaycan üçün. Mən çox məmnunam ki, son illər ərzində qonşu ölkələrlə bizim əlaqələrimiz inkişaf edir. Bu əlaqələr qarşılıqlı anlaşma, qarşılıqlı hörmət, qarşılıqlı maraqlar və bir-birinin işinə qarışmama prinsipləri əsasında qurulubdur. Mənim qonşu ölkələrin dövlət və hökumət başçıları ilə çoxsaylı görüşlərim olub və hər bir görüş məhsuldar olub. Ona görə hesab edirəm ki, bu istiqamətdə atılmış addımlar və tərəfdaşlarımızın addımları bu əlaqələri gücləndirib, eyni zamanda, regional əməkdaşlığa da müsbət təsir göstərib. Artıq Azərbaycanın təşəbbüsü ilə qonşu ölkələrlə bizim üçtərəfli əməkdaşlıq formatımız var. Bu format həm məna, həm də ki, əldə edilmiş nailiyyətlər baxımından çox müsbət formatdır. Eyni zamanda, bizim başqa ölkələrlə ikitərəfli əlaqələrimiz inkişaf edibdir. Deyə bilərəm ki, bu il Azərbaycana 40-dan çox dövlət və hökumət başçısı səfər edib, həm beynəlxalq tədbirlərdə iştirak etmək üçün, həm də ki, ikitərəfli formatda. Bu baxımdan bu il rekord il olmuşdur.

Bu il ölkəmizdə önəmli beynəlxalq tədbirlər keçirilib. Onların arasında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə Görüşünü qeyd etmək olar. Bildiyiniz kimi, Azərbaycan bu təşkilatda çox fəal rol oynayır və təşkilata sədrlik Azərbaycana keçibdir. Biz bu təşkilata bir il ərzində sədrlik edəcəyik. Eyni zamanda, Qoşulmama Hərəkatının Zirvə Görüşü Azərbaycanda keçirilibdir. Azərbaycan BMT-dən sonra ikinci böyük beynəlxalq təsisata 120 ölkənin yekdil qərarı ilə 3 il ərzində sədrlik edəcəkdir. Qeyd etdiyim kimi, bizim sədrliyimiz yekdil qərarla qəbul olunub. Bunun çox böyük mənası var. Çünki Qoşulmama Hərəkatında birləşən ölkələrin arasında bəzi ixtilaflar var, qarşıdurma da var, anlaşılmazlıq da var. Bəzi ölkələr bir-biri ilə, sadə dildə desək, yola getmirlər. Belə olan halda, bütün dövlətlər tərəfindən bizə göstərilən dəstək əlbəttə ki, bizim siyasətimizi əks etdirir, onu göstərir ki, Azərbaycana çox böyük hörmət və böyük rəğbət var. Biz üç il ərzində bu təsisata sədrlik edəcəyik və bu sədrlik formal xarakter daşımayacaq. Biz istəyirik ki, bu təsisatın dünyadakı rolunu artıraq. Azərbaycan sədrliyi dövründə bir neçə önəmli təşəbbüslə çıxış edəcəkdir. Bu təşəbbüslərin əsas mahiyyəti ondan ibarətdir ki, dünyada beynəlxalq əməkdaşlıq yeni pilləyə qalxsın və ölkələr arasında, o cümlədən sivilizasiyalararası məsələlər sağlam təməl üzərində öz həllini tapsın. Bizim bu sahədə çox böyük təcrübəmiz vardır.

Eyni zamanda, hesab edirəm ki, bu il Avropa İttifaqı ilə bizim əlaqələrimiz uğurla inkişaf edib. İl ərzində bir neçə önəmli tədbir keçirilib, o cümlədən Avropa İttifaqı Şurasının prezidenti cənab Tuskun iyul ayında Azərbaycana səfəri xüsusi məna daşıyır. Avropa İttifaqı ilə bizim əlaqələrimiz bu il müsbət istiqamətdə inkişaf edibdir. Onu da bildirməliyəm ki, keçən il Brüsseldə Avropa İttifaqı ilə Azərbaycan arasında tərəfdaşlıq prioritetləri adlı sənəd paraflanmışdır. Bu sənəddə ölkəmizin ərazi bütövlüyünə, suverenliyinə, sərhədlərimizin toxunulmazlığına Avropa İttifaqı tərəfindən dəstək ifadə edilmişdir. Eyni zamanda, Qoşulmama Hərəkatının Yekun Bəyannaməsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ərazi bütövlüyü prinsipləri əsasında həll olunması ilə bağlı açıq ifadələr öz əksini tapıbdır. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının da Yekun Bəyannaməsində buna oxşar bənd öz əksini tapıbdır. Beləliklə, Qoşulmama Hərəkatında birləşən 120 ölkə, Avropa İttifaqına üzv olan 28 ölkə, eyni zamanda, türkdilli ölkələr, hansılar ki, Qoşulmama Hərəkatına üzv deyil, beynəlxalq aləmin mütləq əksəriyyəti bizi dəstəkləyir, bizə inanır və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllini bizim mövqeyimizi dəstəkləyərək ərazi bütövlüyü çərçivəsində görür. Hesab edirəm ki, bu, xarici siyasət istiqamətində yaddaqalan əsas məsələlərdir. Əlbəttə ki, bizim xarici siyasətimiz çox çevikdir, çox düşünülmüşdür. Hesab edirəm ki, xarici siyasətlə bağlı bütün başqa məsələlər və nəticələr yüksək qiymətə layiqdir.

***- Cənab Prezident, Siz Avropa İttifaqı ilə əlaqələrə toxundunuz. Yeri gəlmişkən, bilmək istərdik, Avropa İttifaqı ilə yeni sazişlə əlaqədar aparılan danışıqlar hansı mərhələdədir? Ümumilikdə bu məsələ ilə bağlı Sizin fikrinizi bilmək maraqlıdır.***

- Deyə bilərəm ki, bir neçə ildir yeni saziş üzərində iş aparılır. Bizim əvvəlki saziş uzun illər bundan əvvəl imzalanmışdır və yeni sazişə əlbəttə ki, ehtiyac var. Biz hesab edirik və təklif etmişik ki, bu saziş hər iki tərəfin maraqlarını təmin etməlidir, əks halda, sazişə ehtiyac qalmayacaq. Biz, eyni zamanda, Avropa İttifaqına üzv ölkələrlə ikitərəfli formatda uğurla əməkdaşlıq aparırıq və 28 ölkədən 9-u ilə bizim strateji tərəfdaşlıq haqqında sənədlər ya imzalanıbdır, ya da qəbul edilibdir. Yəni, hesab edirəm ki, Avropa İttifaqı ilə imzalanacaq sazişin təməli bax, bu 9 sənəddə təsbit edilib.

**Ardı Səh. 4**

# İlham Əliyev: "Azərbaycan 2019-cu ildə uğurla inkişaf edib"

*Prezident İlham Əliyev yerli jurnalistlərə ilin yekunları ilə bağlı geniş müsahibə verib*

Əvvəli Səh. 3



"Əgər ictimai nəzarət olmasa, biz məlumatı haradan əldə edəcəyik? Mən, misal üçün bildirmişəm və bir daha demək istəyirəm ki, bəzi hallarda mən mətbuatdan bir çox şeyləri öyrənirəm. Çünki bəzi məsələlər mənə məruzə edilmir. Çünki sərf etmir o adamlara məruzə etmək"

Hesab edirəm ki, gələcək sazişdə həm strateji əhəmiyyət daşıyan məsələlər, həm də Azərbaycanı maraqlandıran, bizim maraqlarımıza xidmət edən məsələlər öz əksini tapmalıdır. Saziş bərabərhüquqlu tərəflər arasında imzalanmalıdır, saziş bütün bərabərhüquqlu əməkdaşlığa zidd olan məqamlardan azad olmalıdır. Bu təqdirdə, əlbəttə ki, sazişin imzalanması mümkün olacaqdır. Deyə bilərəm ki, sazişin bəndlərinin mütləq əksəriyyəti razılaşdırılıb, məsələlərin təqribən 90 faizi razılaşma əsasında öz həllini tapıb. Hesab edirəm ki, qalan məsələlər xoşniyyətli abhava çərçivəsində öz həllini tapmalıdır. Bilirsiniz, sazişlə bağlı bəzi hallarda mətbuatda həqiqətə uyğun olmayan fikirlər səsləndirilir. O cümlədən bir fikir ondan ibarətdir ki, Avropa İttifaqı bu sazişi bizimlə ona görə imzalamır ki, biz Avropa İttifaqına uyğun olan hansısa meyarlara cavab vermirik. Bu, tamamilə əsassız bir fərziyyədir, belə məsələ gündəlikdə yoxdur. Onu da açıq bildirməliyəm ki, sazişin bu günə qədər imzalanmamasının səbəbkarı da bizik. Nəyə görə? Bunu da mən izah edəcəyəm. Çünki hesab edirəm ki, cəmiyyətdə bu məsələ ilə bağlı tam dəqiq məlumat olmalıdır. Sazişin bir neçə məsələsi hələ ki, müzakirə mövzusudur. Biz təklif olunan məsələlərə öz razılığımızı verməmişik və bunun səbəbi var. Onlardan biri ticarətlə bağlıdır. Bildiyiniz kimi, Azərbaycan Dünya Ticarət Təşkilatının üzvü deyil. Baxmayaraq ki, biz bir neçə ölkə ilə müzakirələri ikitərəfli formatda artıq başa vurmuşuq, ancaq mən hesab edirəm ki, hələ vaxt gəlib çatmayıb. Bunun da səbəbi ondan ibarətdir ki, bizim ixracımızın əsas hissəsi hələ ki, neftqaz məhsullarıdır və bu məhsulları ixrac etmək üçün Dünya Ticarət Təşkilatına üzv olmaq lazım deyil. Digər tərəfdən, bizim əsas vəzifəmiz qeyri-neft sektorunun inkişafıdır, yerli istehsalın artımıdır və belə olan halda biz daxili bazarımızı da qorumalıyıq. Əgər biz indi Dünya Ticarət Təşkilatına üzv olsaq, bizim istehsalçılar, o cümlədən sənaye sektorunda, kənd təsərrüfatı sektorunda böyük problemlərlə üzləşə bilərlər. Ola bilsin ki, Azərbaycana keyfiyyətsiz və bizim bazarımızı zəbt etmək məqsədi daşıyan böyük həcmdə idxal məhsulları gələcək və beləliklə, yerli istehsala böyük ziyan vurulacaq. Onu da bildirməliyəm ki, hazırda Dünya Ticarət Təşkilatı çərçivəsində də böhran yaşanır. Bildiyiniz kimi, Amerika Birləşmiş Ştatları bu təşkilatda öz üzvlüyünə yenidən baxır. Deməli olar ki, bəzi ölkələr arasında - təşkilata üzv olan ölkələr və müttəfiq ölkələr arasında ticarət müharibələri baş alıb gedir və genişlənir. Belə olan halda, əlbəttə ki, bu məsələyə bizim ehtiyatlı yanaşmağımız çox məntiqlidir və əsaslıdır. Ona görə imzalanacaq sazişdə ticarətlə bağlı məsələlər bizi qane etmir və biz qarşı tərəfə öz fikirlərimizi bildirmişik. Ümid edirik ki, onlar buna anlayışla münasibət göstərəcəklər.

Digər vacib məsələ energetika sektoru ilə bağlıdır. Burada da baxmayaraq ki, Avropa İttifaqı ilə enerji sahəsində bizim əməkdaşlığımız uğurludur və birgə layihələr icra edilir, ancaq sazişdə təklif olunan məsələlərin biri də, - mən istəyirəm ictimaiyyət onu da bilsin, - enerji daşıyıcılarının qiymətləri ilə bağlıdır. Belə bir bənd təklif olunur ki, Azərbaycanda təbii qazın daxili qiyməti ixrac qiyməti ilə bərabərlik təşkil etsin. Reallıqda bu nə deməkdir, bunu anlamaq o qədər də çətin deyil. Hazırda Azərbaycan istehlakçılarının təxminən 85 faizi təbii qazı çox ucuz qiymətə, yəni, dövlət tərəfindən verilmiş subsidiya əsasında alır, qiymət də min kubmetr üçün 100 manatdır. İxrac qiyməti isə bundan bir neçə dəfə böyükdür. Əgər biz öz təbii qazımızı daxili qiymətlərlə satsaq, iqtisadiyyatımıza çox böyük ziyan dəyəcək. Çünki belə olan halda, ixrac qiyməti 58 dollar olmalıdır. Bu gün isə dünya bazarlarında, o cümlədən Avropa bazarlarında daxili qiymət, yəni, istehlakçıların ödədiyi qiymət təqribən 300, 400, 500 dollara bərabərdir. Bu, təqribən 1000 manata gəlib çıxacaq. Belə olan halda, biz daxili qiymətləri ən azı on dəfə qaldırmalıyıq. Belə olan halda, Azərbaycan vətəndaşları təbii qaz üçün 100 manat yox, 500 manat, ya da 700 manat ödəməli olacaqlar, bu, qətiyyən mümkün deyil. Ya da ki, biz böyük çətinliklə və böyük səylər göstərərək, böyük investisiyalar qoyaraq Cənub Qaz Dəhlizini demək olar ki, başa çatdıraraq xarici bazarlara öz qazımızı 58 dollara çatdırmalıyıq. Bu, qətiyyən qəbuledilməzdir və təəccüb edirəm ki, nə üçün bizim tərəfdaşlarımız, bu sadə məntiqlə, bu hesablamalarla razılaşa bilmirlər. Ona görə bu iki əsas məsələ razılaşdırılmamış qalır və bizim mövqeyimiz birmənalıdır. Bu saziş bizim maraqlarımıza uyğun olmalıdır. Prinsip etibarilə mən avropalı tərəfdaşlarıma sual vermişəm ki, "Siz mənə cavab verin, nə üçün biz bu sazişi imzalamalıyıq?". Biz indi bu sazişsiz də yaşayırıq, yaxşı da inkişaf edirik, heç kimdən heç nə gözləmirik, heç bir imtiyaz üçün müraciət etməmişik. Biz sazişi ona görə imzalamaq istəyirik ki, bu saziş əlaqələrimizi yeni mərhələyə çıxarsın və maraqlarımız təmin edilsin. Əks təqdirdə, əlbəttə ki, bu saziş imzalanmayacaq.

***- Cənab Prezident, mən "Şərq tərəfdaşlığı" məsələsi ilə bağlı sual vermək istərdim. Postsovet ölkələrindən bir neçəsi "Şərq tərəfdaşlığı" proqramında iştirak edir. Onlardan bəziləri Avropa İttifaqı ilə müvafiq sazişlər imzalayıblar. Bundan öncə Siz qeyd etdiniz ki, Azərbaycanla bu təşkilat arasında tərəfdaşlıq prioritetləri barəsində sənəd paraflanıb. Siz "Şərq tərəfdaşlığı" proqramı çərçivəsində əməkdaşlığın perspektivləri barədə nə deyə bilərdiniz?***

- Bilirsiniz, biz "Şərq tərəfdaşlığı" proqramına başqa ölkələrlə birlikdə qoşulduq. O vaxt bu proqramın nədən ibarət olacağı haqqında bizim təsəvvürümüz yox idi. Deyə bilərəm ki, son 10 il ərzində Avropa İttifaqı daxilində bir çox proseslər cərəyan edib. Hazırda təbii ki, Avropa İttifaqının gələcək fəaliyyəti, genişlənmə proqramı ilə bağlı fərqli fikirlər üstünlük təşkil edir. Yəni, 10 il bundan əvvəlki vəziyyət indiki vəziyyətlə ziddiyyət təşkil edir. Bu, birincisi.

İkincisi, "Şərq tərəfdaşlığı"na üzv olan ölkələri bir amil birləşdirir. O da ondan ibarətdir ki, bu ölkələr postsovet respublikalarıdır. Mən başqa birləşdirici amil görmürəm. Çünki ölkələrin həm xarici siyasəti fərqlidir, daxili vəziyyətdə böyük fərqlər var, təbii ki, iqtisadi inkişaf fərqlidir. Ona görə bu ölkələri bir proqramda birləşdirmək hesab edirəm ki, o vaxt üçün bəlkə də məqbul variant idi. Ancaq bu gün bu, belə deyil və bu ölkələrin bir neçəsi - daha doğrusu 3 ölkə Avropa İttifaqı ilə assosiasiya sazişi imzalayıb. Bir ölkə genişlənmiş əməkdaşlıq müqaviləsi bağlayıb. Azərbaycan isə assosiasiya sazişini bağlamayıb və hazırda ikitərəfli saziş üzərində iş aparılır. Mən artıq bu barədə öz fikirlərimi bildirdim. Ona görə bu proqramın gələcəyi haqqında bir şey demək çətindir. Bu proqram bizə təqdim olunanda biz bəri başdan öz fikrimizi bildirmişik ki, ikitərəfli formata üstünlük veririk. Azərbaycan Avropa İttifaqından hər hansı bir imtiyaz gözləmir və proqramda iştirak edən bəzi ölkələrdən fərqli olaraq biz özümüzü təmin edən ölkəyik, biz artıq Beynəlxalq İnkişaf Assosiasiyasının hesabatında sırf donor ölkəyə çevrilmişik. Yəni, biz artıq borc verən ölkəyik. O ki qaldı, Qərb texnologiyalarına, biz Qərb texnologiyalarını alırıq, heç kim bizə bunu müftə vermir. Ona görə proqramda bizim mövcudluğumuz qalır, ancaq, sözün düzü, biz buna o qədər də böyük əhəmiyyət vermirik. Çünki bu proqramın çox dəqiq məramı və məqsədi bizim üçün aydın deyil. Əgər bu, Avropa inteqrasiyasıdırsa, artıq hər kəsə bəllidir ki, postsovet respublikaları üçün bu məqsəd əlçatmazdır. Əgər hansısa başqa bir ölkələr arasındakı əməkdaşlıqdan söhbət gedirsə, bu ölkələrin bəziləri ilə bizim sıx əlaqələrimiz var, bəzi ölkələrlə ümumiyyətlə əlaqələrimiz çox aşağı səviyyədədir, Ermənistanla isə müharibə şəraitindəyik. Ona görə bu proqramda bu ölkələri birləşdirmək və hansısa bir istiqamətə yönləndirmək cəhdləri hesab edirəm ki, bu proqramı təsis edənlər tərəfindən icra olunmadı. Ona görə biz proqramdan çıxmırıq, ancaq proqramda da fəal iştirak etmək fikrində deyilik.

***- Cənab Prezident, istərdik bir məqama da toxunaq. Ümumiyyətlə, düşünürük ki, ilin ən yaddaqalan hadisələrindən biri Bakı Dövlət Universitetinin 100 illiyi münasibətilə keçirilən mərasimdə Sizin çıxışınız idi. Həmin çıxış ölkə ictimaiyyəti tərəfindən çox böyük rəğbətlə qarşılandı. Siz faktiki olaraq, professor, müəllim və tələbə heyəti qarşısında Azərbaycanın bugünkü uğurlarını şərtləndirən əsas amillərə, strateji vəzifələrə toxundunuz və bir fikriniz xüsusilə ictimaiyyət tərəfindən geniş müzakirə olundu. Bu, Azərbaycanın Avropaya inteqrasiyası ilə bağlı məsələ idi. Siz birmənalı şəkildə bildirdiniz ki, Azərbaycan heç yerə inteqrasiya etmək fikrində deyil, bizim öz milli-mənəvi dəyərlərimiz, milli prinsiplərimiz var. Ümumiyyətlə, Azərbaycanın Avropaya inteqrasiyası ilə bağlı ortaya qoyduğunuz bu konkret mövqeni şərtləndirən əsas səbəblər, əsas qaynaqlar nədən ibarətdir?***

Ardı Səh. 5

# İlham Əliyev: "Azərbaycan 2019-cu ildə uğurla inkişaf edib"

## *Prezident İlham Əliyev yerli jurnalistlərə ilin yekunları ilə bağlı geniş müsahibə verib*

Əvvəli Səh. 4

-Bilirsiniz, Avrointeqrasiya haqqında artıq bəzi dairələrdə çox danışılır. Ancaq əsas məsələ ondadır ki, Avrointeqrasiya deyəndə nəyi nəzərdə tuturlar. Mən hesab edirəm ki, biz artıq Avrointeqrasiya istiqamətində öz addımlarımızı atmışıq və gələcək addımlara həm ehtiyac yoxdur, həm də o addımlar nəticəsiz olacaq. Misal üçün biz ATƏT-in üzvüyük. ATƏT Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatıdır. Biz 2001-ci ildən Avropa Şurasına üzv olmuşuq və artıq 20 ilə yaxındır ki, bu təşkilatda fəaliyyət göstəririk. Bu, Avrointeqrasiyanın bir növüdür. Eyni zamanda, Azərbaycan Avronest Parlament Assambleyasında da təmsil olunur. Belə olan halda, hesab edirəm ki, bu istiqamətdə mümkün olan addımlar atılıbdır və həm gələcək addımların atılmasına ehtiyac yoxdur, həm də bunun nəticəsi olmayacaq. Çünki əgər biz Avrointeqrasiya deyəndə Avropa İttifaqına üzvlük haqqında danışırıqsa, bu, tamamilə qeyri-mümkündür. Bunu həm tarix göstərir, həm Avropa məkanında gedən proseslər göstərir, həm də onu Brexit göstərir. İndi əksinə, necə deyərlər, Avropada mərkəzdənqaçma tendensiyaları göz önündədir. Eyni zamanda, Avropa İttifaqının genişləndirilməsi ilə bağlı Avropanın aparıcı ölkələrinin rəhbərlərinin çıxışlarına fikir verməkkifayətdir görək ki, artıq genişlənmə ilə bağlı heç bir perspektiv yoxdur. Hətta namizəd olan ölkələr - Balkan ölkələri, hesab edirəm ki, onlar da indi bir qədər çətin vəziyyətdədir. Çünki vaxtilə onlara vəd verilmişdi ki, siz bu məsələləri həll etməklə Avropa İttifaqına üzv ola bilərsiniz və onlar da bu addımları atıblar. Bəziləri çox ağrılı addımlar atmalı oldular. Mən indi o ölkələrin adlarını çəkmək istəmirəm, amma biz hamımız bilirik söhbət nədən gedir. Bəziləri üçün bu addımlar çox baha başa gəldi, bu, ölkələrdə daxili qarşıdurmaya, böyük etirazlara gətirib çıxardı. O ölkələrin cəmiyyətləri parçalandı. Nəyə görə onlar bu addımı atdılar? Onlara söz verildi ki, sizin gələcəyiniz var, siz bunu, bunu, bunu etsəniz biz sizi qəbul edəcəyik. Amma indi Avropanın aparıcı ölkələrinin liderləri deyirlər ki, artıq heç kimi qəbul etməyəcəyik. Hesab edirəm ki, hətta uzunmüddətli perspektivdə Avropa ölkələri üçün belə imkan yoxdur.

Digər misal bizim qardaş Türkiyə ilə bağlıdır. Görün nə vaxtdan Türkiyə Avropa İttifaqı ilə assosiasiya sazişi imzalayıb? Bəlkə də onilliklər bundan əvvəl. Amma ondan sonrakı addımlar nəticə veribmi? Əlbəttə ki, yox və bu da böyük ədalətsizlikdir. 2000-ci ildən başlayaraq Avropa İttifaqına keçmiş sosialist bloka aid bir çox ölkələr daxil oldu. İndi onlar Türkiyədən dahamı inkişaf etmiş ölkələrdir? Yox. Dahamı Avropa İttifaqına üzv olmaq üçün hazırlıqlıdırlar? Yox. Nə üçün onları qəbul ediblər, Türkiyəni qəbul etməyiblər? Sual aydındır, ritorikdir. Bir amilə görə, o da ondan ibarətdir ki, Türkiyə müsəlman ölkəsidir. Artıq bunu açıq deyirlər. Əvvəllər bu əsas tezisi pərdələmək üçün bəzi başqa fikirlər, müxtəlif bəhanələr gətirilirdi ki, bu ölkə hazır deyil və yaxud da hansısa proseslər baş verib. Ancaq indi bunu gizlətmirlər və müsəlman ölkəsi olduğu üçün Türkiyəni Avropa İttifaqına qəbul etmirlər. Belə olan halda, Azərbaycanı qəbul edəcəklərmi? Əlbəttə ki, yox. Əgər belədirsə, onda biz öz işimizi bəri başdan elə tutmalıyıq ki, reallaşdırıla bilməyən vədləri verməyək və lazım olmayan addımları da atmayaq. Bu, birincisi.

İkincisi, lap tutaq ki, sabah bizə dedilər, bax, Azərbaycan belə ölkədir ki, biz Azərbaycanı filan tarixdə qəbul edəcəyik. Bu, bizə lazımdırmı? Avropada gedən proseslərə hər bir vətəndaş nəzər yetirəndə görür ki, hansı hadisələr baş verir, o cümlədən dini zəmində, milli-mənəvi dəyərlər zəminində. Bu proseslər bizə uyğundurmu? Əlbəttə ki, yox və bunu açıq deməliyik. Ona görə bəzi hallarda Avropa İttifaqının bayraqları ilə küçələrə çıxmaq istəyən dırnaqarası müxalifət nümayəndələri bilməlidirlər ki, onlar nə istəyirlər? İstəyirlər ki, Azərbaycanın taleyi Brüsseldəmi həll olunsun? İstəyirlər ki, bizim əsrlərboyu qoruduğumuz dəyərlər məhv olsun? Biz bu dəyərləri əsrlərboyu qorumuşuq, hətta müstəqil olmayan dövrdə. Başqa ölkələrin, imperiyaların tərkib hissəsi olan dövrdə dilimizi də, dinimizi də, dəyərlərimizi də, ənənələrimizi də, həyat tərzimizi də qorumuşuq. İndi belə olan halda müstəqillik dövründə biz özümüz öz taleyimizi kiməsə əmanət edə bilərik? Qətiyyən yox və qətiyyən biz buna gedə bilmərik. Bizim öz tariximiz, öz mədəniyyətimiz, öz dəyərlərimiz var. Ona görə onlar bizə təklif versə belə, buna qətiyyən getmək olmaz.

İndi Avropada miqrantlarla bağlı vəziyyət göz önündədir. Bunu bəziləri demək istəmir, amma mən hesab edirəm ki, biz deməliyik. Niyə biz bu həqiqəti deməliyik, niyə bunun üstündən keçməliyik? "Stop İslam", "İslam miqrantlara yox" şüarları ilə artıq siyasi qüvvələr hakimiyyətə gəlir. Populist vədlər indi islamofob prinsiplər əsasında qurulur. Ona görə daha çox səs toplamaq istəyən siyasi qüvvə mütləq bu mövzunu istismar edir. Belə olan halda, müsəlman ölkəsi Azərbaycan hansı formada orada təmsil oluna bilər? İkinci dərəcəli ölkə kimi? Yaxud da ki, hansısa bir imtiyaz diləyən ölkə kimi? Qətiyyən yox! Biz qürurlu ölkəyik, biz öz yolumuzla gedirik, heç kimə də bizim ehtiyacımız yoxdur, heç kimdən də asılı deyilik!

Ona görə Bakı Dövlət Universitetində Avropa inteqrasiyası ilə bağlı dediyim fikirləri bu gün mən daha geniş formada ictimaiyyətə çatdırıram, hesab edirəm ki, yeganə düzgün yoldur. Biz indi Avropa qurumlarının bəzilərinin üzvüyük, mən bunu qeyd etdim. Avropa İttifaqı ilə əməkdaşlıq zəminində əlaqələr qururuq və gələcəkdə də həm ikitərəfli formatda, həm Avropa İttifaqı ilə bu əsaslar üzərində öz işimizi qurmalıyıq.

***-Cənab Prezident, mənim növbəti sualım xalqımızın ən ağrılı problemi olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı olacaq. Münaqişənin həlli ilə bağlı danışıqlar prosesi nə yerdədir?***

-Bilirsiniz, deyə bilərəm ki, 2019-cu il danışıqlar prosesi üçün itirilmiş il olubdur. Bunun da yeganə səbəbi odur ki, Ermənistan rəhbərliyi bu danışıqlarda qeyri-konstruktiv mövqe sərgiləyir və beynəlxalq vasitəçilər işğalçı ölkəyə lazımi təsir və təzyiq göstərmirlər. Məhz buna görə 2019-cu ildə, deyə bilərəm ki, danışıqlar trekində hər hansı bir ciddi irəliləyiş əldə olunmayıb.

Eyni zamanda, Ermənistan rəhbərliyinin ziddiyyətli və bir-birini təkzib edən bəyanatları da əlbəttə ki, həm təəccüb, həm də təəssüf doğurur. Biz hamımız yaxşı xatırlayırıq ki, Ermənistanın yeni rəhbərliyi ilkin mərhələdə ortalığa belə bir məsələ atmışdı ki, Azərbaycan Dağlıq Qarabağla danışıqlar aparmalıdır, Dağlıq Qarabağ "müstəqil dövlətdir" və Ermənistan bu dırnaqarası müstəqil dövlətin işlərinə qarışa bilmir. Bunların hamısı cəfəng fikirlərdir. Çünki bu gün Dağlıq Qarabağda yerləşən hərbi birləşmənin 90 faizi Ermənistan vətəndaşlarından təşkil edilir. Hər il Ermənistan büdcəsindən Dağlıq Qarabağ büdcəsinə böyük vəsait transfert edilir. Ona görə buna müstəqil dövlət demək tam yalandır. Sadəcə olaraq, danışıqları uzatmaq, yaxud da ki, öz məsuliyyətini boynundan atmaq üçün belə ifadələr işlədilir.

Biz qətiyyən bu ifadələrlə razı ola bilmərik. Öz fikirlərimizi bildirmişik və eyni zamanda, Minsk qrupunun həmsədr ölkələrinin səfirləri də oxşar bəyanatlar verməklər. Danışıqlar Ermənistan və Azərbaycan arasında aparılır. Bu il önəmli hadisələrdən biri də odur ki, danışıqlar formatı dəyişməz olaraq qaldı. Hesab edirəm ki, bu, bizim diplomatik nailiyyətimizdir. Yəni, Ermənistan rəhbərliyinin cəhdləri və təklifləri qəbul edilmədi. Bunu təsdiqləyən həm də o amildir ki, mənim Ermənistanın baş naziri ilə görüşlərim olubdur. Ermənistan və Azərbaycan Xarici İşlər nazirləri görüşürlər, danışıqlar aparırlar. Sonuncu görüş bu ayın əvvəlində olmuşdur.

Digər tərəfdən, Azərbaycan dırnaqarası Dağlıq Qarabağ respublikası ilə danışıqlar aparmalıdır fikri baş tutmayandan sonra növbəti bir cəfəng tezis ortalığa atıldı, bunu indi hər kəs eşidib, - Ermənistanın baş naziri dedi ki, Qarabağ Ermənistandır və nöqtə. Yəni, bu, əvvəlki tezisi tam təkzib edir və bu, növbəti yalandır. Çünki Qarabağ nə müstəqil ölkədir, - bunu heç kim tanımır, heç bir ölkə tanımır, - və bayaq qeyd etdiyim məsələlər - böyük beynəlxalq təşkilatların qəbul etdiyi qərarlar və yekun bəyannamələr onu göstərir ki, dünya ictimaiyyəti Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır və Qarabağ Ermənistan deyil və bunu sübut etmək üçün heç səy göstərmək də lazım deyil.

Ona görə birinci dəfə də, ikinci dəfə də yalan söylənildi. Amma həqiqət ondan ibarətdir ki, - mən bunu canlı efirdə demişəm, - Qarabağ Azərbaycandır və nida işarəsi. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır və bizim danışıqlar prosesində mövqeyimizdə heç bir dəyişiklik yoxdur, ola da bilməz. Tarixi həqiqət bizim tərəfimizdədir. Biz bunu dünyaya sübut edə bilmişik ki, Dağlıq Qarabağ əzəli tarixi Azərbaycan torpağıdır. Azərbaycan xalqı əsrlərboyu bu torpaqlarda yaşayıb, yaradıb. Biz hamımız yaxşı bilirik və bu gün dünya ictimaiyyəti də bizim apardığımız siyasət nəticəsində bilir ki, ermənilər Cənubi Qafqazda gəlmə millətdir, onlar çar Rusiyası tərəfindən XIX əsrdə Rusiya-İran müharibəsindən sonra bizim bölgəmizə köçürülüblər. Qafqaz Rusiya imperiyasının tərkib hissəsi olandan sonra bizim bölgədə xristian əhalinin sayını çoxaltmaq üçün Şərqi Anadoludan və İrandan kütləvi surətdə ermənilər Dağlıq Qarabağa köçürülmüşlər. Bunu təsdiqləyən çoxsaylı tarixi sənədlər, faktlar var. Bu, o qədər də uzaq tarix deyil. Yəni, ermənilər bizim tarixi torpaqlarımıza köçürülmüşlər, ona görə ki, burada xristian əhali çoxalmalı idi. Ona görə bu, bizim tarixi torpağımızdır və bunu indi bütün dünya bilir. Bu, birincisi.

İkincisi, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir və biz müstəqil ölkə kimi BMT-yə daxil olanda artıq Azərbaycanın ərazi bütövlüyü qəbul edilib, dəstəklənib və təsdiq edilib. Ona görə həm tarixi ədalət və həm də beynəlxalq hüquq baxımından Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir və münaqişənin həlli məhz bu prinsiplər əsasında ola bilər. Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir.

O ki qaldı, xalqların öz müqəddəratını təyinetmə prinsipinə, - Ermənistan həmişə buna istinad edir, - bu prinsip artıq bu münaqişə ilə bağlı işləmir. Çünki erməni xalqı öz müqəddəratını artıq müəyyən edib. Onların müstəqil Ermənistan dövləti var, hansı ki, qədim Azərbaycan torpaqlarında yerləşir və biz Azərbaycan torpağında ikinci erməni dövlətinin yaradılmasına heç vaxt imkan verməyəcəyik.

Ona görə bizim prinsipial mövqeyimiz bundan ibarətdir ki, ərazi bütövlüyü prinsipi üstünlük təşkil etməlidir, bizim ərazimiz bərpa edilməlidir və münaqişə yalnız bu prinsiplər əsasında öz həllini tapmalıdır.

"Mənim kameralar qarşısında yeni təyin edilmiş icra başçılarına dediyim sözlər onlara verilən ən ciddi tapşırıqdır və onlar bu tapşırığı yerinə yetirməlidirlər. O cümlədən vətəndaşlara münasibətdə yekəxanalığa yer olmamalıdır, özlərini təkəbbürlü aparmamalıdırlar, vətəndaşlara yuxarıdan aşağıya baxmamalıdırlar, vətəndaşlara xidmət etməlidirlər, vətəndaşları incitməməlidirlər, hansısa abadlıq işlərinə sahibkarlardan qanunsuz pul tələb etməməlidirlər"

Ardı Səh. 6

# İlham Əliyev: "Azərbaycan 2019-cu ildə uğurla inkişaf edib"

*Prezident İlham Əliyev yerli jurnalistlərə ilin yekunları ilə bağlı geniş müsahibə verib*

**Əvvəli Səh. 5**

Bundan əlavə, beynəlxalq təşkilatların qərar və qətnamələri, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, Qoşulmama Hərəkatının, İslam Əməkdaşlıq Təşkilatının, ATƏT-in, Avropa Parlamentinin, Avropa Şurasının oxşar qərar və qətnamələri var. Qeyd etdiyim kimi, keçən il Avropa İttifaqı bizimlə Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini və sərhədlərinin toxunulmazlığını dəstəkləyən sənəd imzalayıbdır.

***-Cənab Prezident, elə mövzunun davamı olaraq bir mühüm məqama da toxunmaq istərdik. Siz müxtəlif beynəlxalq tribunalardan, önəmli tədbirlərdən Ermənistanın işğalçılıq mahiyyətini, terrorçu dövlət olduğunu və eləcə də terrorçu Njdenin əsl simasını konkret faktlarla, özü də əcnəbi mənbələrdən gətirdiyiniz sitatlarla ifşa etdiniz. Belə halı biz, eyni zamanda, bu il MDB Dövlət Başçılarının Aşqabadda keçirilən Zirvə Görüşündə izlədik. Siz bu faktları həmin tədbirdə iştirak edən liderlərin və dünya ictimaiyyətinin diqqətinə bir daha çatdırdınız. Paşinyan o faktların qarşısında nə dərəcədə məzlum və aciz göründü, biz bunun şahidi olduq. Ona görə biz Sizə minnətdarıq. Amma əfsuslar olsun ki, bu gün də Ermənistanın işğalçılıq siyasətini və terrorçu mahiyyətini dəstəkləyən Paşinyan kimi bəzi adamlar var. Sizcə nəyə görə?***

- Bilirsiniz, bu məsələ ilə bağlı Azərbaycan ictimaiyyəti məsələni bir müddət öncə qaldırmışdı və Azərbaycanın ictimaiyyəti, o cümlədən veteranlar MDB dövlət başçılarının ünvanına Ermənistanda faşist Njdeyə abidənin ucaldılması ilə bağlı məktublar göndərmişdilər. Eyni zamanda, MDB ölkələrinin parlamentlərinə də oxşar məktublar getmişdi ki, bu gün MDB məkanında İkinci Dünya müharibəsi ilə bağlı prinsip etibarilə yekdil fikir var. Rəsmi bəyanatlarda müharibənin tarixi nəticələri və Sovet İttifaqının Qələbənin əldə edilməsində əsas rolu haqqında fikir ayrılığı yoxdur. Eyni zamanda, faşistlərin qəhrəmanlaşdırılması ilə bağlı fikirlər də üst-üstə düşür. Belə olan halda, necə ola bilər ki, İrəvanda, şəhərin mərkəzində faşist cəlladı Njdeyə altı metrlik abidə ucaldılır və bu abidənin açılışında Ermənistanın prezidenti və bütün rəhbərlik iştirak edir. Bu, nə deməkdir?!

Ona görə bu məsələ bizim gündəliyimizdə yeni deyil. Sadəcə olaraq, MDB Zirvə Görüşünün gündəliyindəki məsələlərdən biri də Qələbənin 75 illiyinə hazırlıq idi. Mən bu məsələni açıq və arqumentlərlə dilə gətirdim, tarixi sənədlərə istinad etməklə Njdenin faşist və cəllad sifətini ifşa etdim. Njdenin cinayətləri təkcə İkinci Dünya müharibəsi illərində törətdiyi cinayətlərlə məhdudlaşmır. O, dinc Azərbaycan əhalisinə qarşı qəddarlıq, soyqırımı törətmişdir, minlərlə günahsız azərbaycanlını qətlə yetirmişdir. Bütün bunlar tarixi faktlardır.

Əgər yadınızdadırsa, mən o çıxışda bildirdim ki, bunu Ermənistanın əvvəlki rəhbərliyi edib. Yəni, mən baş nazir Paşinyana bir növ imkan verdim ki, o, bu çirkin əməli öz boynuna almasın. Çünki onun bu abidənin ucaldılmasında iştirakı olmayıb. Ancaq əfsuslar olsun ki, düzgün yanaşma göstərməkdənsə, o, çox qeyri-adekvat bəyanatlarla Njdeyə bəraət qazandırmağa çalışdı. Arqumentlərin biri də o olmuşdur ki, - çünki mən dedim ki, o, "SMERŞ" tərəfindən həbs olundu, "SMERŞ" də abreviaturadır, "Smertğ Şpionam" - "Casuslara ölüm", - və 25 il müddətə məhkum edildi, öz həyatını Vladimir həbsxanasında bitirdi. Onun da arqumenti o oldu ki, Soljenitsın da sovet rejimi tərəfindən həbs olunmuşdur. Mən ondan sonra bir daha söz alıb dedim ki, cəlladı, faşisti Soljenitsın ilə eyniləşdirmək olmaz. Bu, qətiyyən qəbuledilməzdir.

Mən gözləyirdim ki, bundan sonra artıq sakit bir şəraitdə öz müşavirlərinin köməyi ilə Ermənistan bir çıxış yolu axtaracaq, hər hansı bir məqbul formada bunu təkzib edəcək. Amma biz bunun tam əksini gördük. Rusiyadan gəlmiş jurnalistlərlə görüşdə o, daha da uzağa getdi və dedi ki, nə olsun ki, Njde Hitlerlə görüşüb. Molotov da Hitlerlə görüşüb. Bilirsiniz, bunu şərh etmək üçün söz tapmıram. Çünki bu, o dərəcədə aşağı səviyyəli fərziyyədir ki, bunu şərh etmək mümkün deyil. Molotov Sovet İttifaqının Xarici İşlər naziri idi. Molotov-Ribbentrop paktı 1939-cu ildə bağlanmışdı, ona görə ki, Sovet İttifaqı müharibəyə hazır deyildi və müharibənin mümkünlüyünü ertələmək üçün imzalanmışdır. Molotov Njde kimi Hitlerə qulluq etmirdi. Molotov Njde kimi faşist şüarları səsləndirmirdi. Njdenin məşhur şüarı o idi ki, "Almaniya uğrunda ölən Ermənistan uğrunda ölür". Yəni, o, faşistdir və bunu İkinci Dünya müharibəsi zamanı demişdir. Ona görə əlbəttə ki, Ermənistan rəhbərliyinin belə cəfəng sözləri ciddi qəbul oluna bilməz.

Ancaq buna baxmayaraq, hesab edirəm ki, mənim Aşqabaddakı çıxışım burada həlledici rol oynamışdır, - bu cəllada Rusiyanın Armavir şəhərində qoyulmuş lövhə dağıdıldı, söküldü və məhv edildi. Bunu ermənilər özləri etdilər. Onları Armavir şəhər hakimiyyəti məcbur etdi. Əminəm ki, gün gələcək və ermənilər özləri İrəvanda bu faşistə ucaldılmış bu eybəcər abidəni özləri sökəcəklər.

***-Cənab Prezident, istərdim ki, ölkədə iqtisadi sahədə görülən işlərlə bağlı da fikirlərinizi öyrənək. 2019-cu ildə Azərbaycanda iqtisadiyyatın daha da inkişaf etdirilməsi istiqamətində çox mühüm, ciddi addımlar atıldı. İlin iqtisadi yekunları barədə nə deyə bilərsiniz?***

-Bəli, bu il iqtisadi sahədə nəticələr yaxşıdır. Bilirsiniz ki, neftin qiymətinin kəskin şəkildə düşməsindən sonra bizim milli valyutamız da devalvasiyaya uğramışdır və iqtisadi fəallıq aşağı düşmüşdü. Əlbəttə, bu, bizim üçün gözlənilməz idi. Təsəvvür edin, əgər sizin əsas gəlir mənbəyinizin dəyəri dörd dəfə ucuzlaşırsa, əlbəttə ki, bunun iqtisadiyyata çox mənfi təsiri ola bilər. Ancaq buna baxmayaraq, biz heç bir sosial layihəni ixtisar etmədik. Bütün sosial öhdəlikləri yerinə yetirdik. İqtisadi sahədə əlbəttə ki, biz çox ciddi addımlar atmağa məcbur olduq. Ancaq hesab edirəm ki, sabitləşmədən sonra ilkin inkişaf təzahürləri özünü keçən il büruzə verdi. Bu il isə artıq inkişaf daha genişmiqyaslıdır və bütün iqtisadi parametrlər bunu göstərir. Ümumi iqtisadi artım 2 faizdən çoxdur və bəlkə də bu, o qədər də böyük rəqəm deyil. Amma bunun da səbəbi ondadır ki, neftin hasilatı bir qədər aşağı düşüb. Bizim ümumi daxili məhsulumuzda neftin həcmi önəmli rol oynayır. Ancaq qeyri-neft iqtisadiyyatımız təqribən 3,5 faiz artıb. Hesab edirəm ki, bu, pis nəticə deyil, daha da artıq olmalıdır və olacaqdır.

Sevindirici hal odur ki, qeyri-neft sənaye sahəsində artım təxminən 14 faizdir. Bu, onu göstərir ki, qeyri-neft sənayesinin inkişafı ilə bağlı bizim planlarımız artıq real rəqəmlərlə ölçülür. Bildiyiniz kimi, son illərdə kənd təsərrüfatına böyük investisiyalar qoyuldu, böyük islahatlar paketi icra edilir və burada da 7 faizdən çox artım vardır.

Digər iqtisadi göstəricilər də müsbətdir. İnflyasiya 11 ayda təqribən 2,6 faiz olub. Xarici ticarət dövriyyəsi artdı. Qeyri-neft ixracımız təqribən 14-15 faiz artıbdır, baxmayaraq ki, daxili istehlak da artır. Bizim qeyri-neft ixracımızın daha böyük rəqəmlərlə artmamasının səbəbi odur ki, əhali artır, daxili istehlak artır və beləliklə, ixrac üçün təklif olunan malların həcmi o qədər də artmır. Amma buna baxmayaraq, qeyri-neft ixracı 14 faiz artıbdır.

Xarici borcumuz aşağı düşüb, ümumi daxili məhsulun 17 faizini təşkil edir və bu, dünyada 9-cu göstəricidir. Gələn ilin büdcəsi artıq təsdiq edilib və burada da xarici borca xidmət edən vəsait nəzərdə tutulub. Beləliklə, ən azı gələn ilin sonunda xarici dövlət borcu 16 faiz olacaqdır. Mən hökumət qarşısında vəzifə qoydum ki, biz qısa müddət ərzində xarici borcu təqribən daxili məhsulun 10-12 faizinə endirək və bu, tamamilə mümkündür. Bir amili də bildirməliyəm, bizim valyuta ehtiyatlarımız xarici dövlət borcumuzdan 5 dəfə artıqdır. Bu, deyə bilərəm ki, dünya təcrübəsində nadir nəticədir. Adambaşına düşən valyuta ehtiyatlarımızın həcminə görə biz MDB-də birinci yerdəyik. Bu il valyuta ehtiyatlarımız 4,5 milyard dollar artdı. Bu, onu göstərir ki, biz gəlirləri çox böyük qənaətlə xərcləyirik - ancaq sosial layihələrə və strateji əhəmiyyət daşıyan layihələrə.

Bütövlükdə isə ilin sonuna qədər Azərbaycanın valyuta ehtiyatları 50 milyard dollara çatıbdır. Bu da rekord göstəricidir. Bu, əlbəttə ki, həm iqtisadi sahədə çox böyük nailiyyətdir, eyni zamanda, bu, bizim iqtisadi müstəqilliyimizi tam təmin edir. İqtisadi müstəqillik siyasi müstəqilliyin əsas şərtidir. Biz indi kreditlərdən asılı deyilik. Düzdür, bizə kredit vermək istəyənlərin sayı artır. Aparıcı beynəlxalq maliyyə qurumları bizə bir çox təkliflər təqdim edirlər. Ancaq mənim fikrim ondan ibarətdir ki, biz ancaq texnoloji tərəfdən önəmli layihələrə kredit götürə bilərik. Hansısa yolun çəkilişinə, yaxud da ki, hansısa inşaat işinə biz nə üçün xaricdən kredit alaq. Bizim öz vəsaitimiz var. Ancaq texnologiya ixracı ilə bağlı olan kreditlər bizim üçün maraq doğura bilər.

Ona görə bütövlükdə iqtisadi sahədə 2019-cu il uğurlu olubdur və onu da bildirməliyəm ki, aparılan islahatlar, o cümlədən şəffaflıq sahəsində aparılan islahatlar bizə əlavə gəlir gətirdi. Beləliklə, vergi və gömrük orqanları bu il plandan əlavə xəzinəyə 1 milyard manat vəsait köçürdülər. Yəni, sırf şəffaflıq, dürüstlük, düzgün hesabatın aparılması və bu sahədə, inzibatçılıq sahəsində aparılan islahatlar sayəsində biz bir milyard əlavə vəsait əldə etdik. Bu vəsaiti biz əlbəttə ki, sosial layihələrə yönəltdik.

***- Cənab Prezident, Siz iqtisadi göstəricilərdən danışdınız. İstərdik ki, bir qədər də sosial sahəyə toxunaq. 2019-cu ildə sosial sahədə çox ciddi addımlar atıldı və əhalinin sosial müdafiəsi ilə bağlı ardıcıl tədbirlər həyata keçirildi. Bəs bu istiqamətdə 2019-cu ili necə qiymətləndirirsiniz?***

- Mən bunu da yüksək qiymətləndirirəm. Mən qeyd etdim, hətta böhranlı illərdə biz sosial sahəyə nəzərdə tutulan vəsaiti azaltmamışıq. Çünki mən həmişə demişəm ki, iqtisadi islahatlar sosial müdafiə ilə bərabər aparılmalıdır. Bu, siyasətimizin əsas qollarıdır. Çünki bir çox hallarda, - biz bunu tarixdən də bilirik, bəzi ölkələrin təcrübəsindən də, - çox ciddi iqtisadi islahatlar sosial problemlər yaradır və biz buna qətiyyən yol verə bilmərik. Çünki bizim bütün işimizin məqsədində Azərbaycan vətəndaşının maraqları dayanır və ildən-ilə Azərbaycan vətəndaşı daha yaxşı yaşamalıdır. Bunun üçün həm sosial infrastrukturla bağlı olan layihələr icra edilməlidir, eyni zamanda, vətəndaşların sosial təminatı yaxşılaşdırılmalıdır. Ona görə hesab edirəm ki, bu il biz bu sahədə çox ciddi addımlar atdıq. Birinci növbədə, problemli kreditlər məsələsi öz həllini tapdı. Bu məsələ daim diqqət mərkəzində idi və biz yaxşı anlayırdıq ki, devalvasiyaya görə çətin vəziyyətə düşən vətəndaşlara kömək etməliyik. Ancaq məsələ onda idi ki, nə vaxt. Mən hesab edirdim ki, o vaxt ki, bizim buna imkanımız çatsın və bu imkan təmin olunduqca biz bunu etdik. Onu da bilirsiniz ki, devalvasiyaya uğrayan təkcə Azərbaycan olmayıb. Bir neçə postsovet ölkəsində oxşar hallar baş verib, o cümlədən ixracı daha çox enerji resursları olan ölkələrdə. Ancaq problemli kreditlərin həll edilməsi bizdəki kimi heç yerdə olmayıbdır. Biz vətəndaşlar üçün ən məqbul variantı seçdik və bunu həll etdik.

Ondan sonra maaşların artırılması, pensiyaların, sosial müavinətlərin, tələbələrin təqaüdlərinin, yəni, bütün sosial sahədə olan məsələlər kompleks şəkildə öz həllini tapdı. Müavinətlər orta hesabla 50 faiz, yaxud da 2 dəfə, minimum əməkhaqqı 2 dəfə, minimum pensiya 70 faizdən çox artırıldı. Minimum pensiyanın alıcılıq qabiliyyətinə görə bu gün Azərbaycan MDB-də birinci yerdədir. Amma o demək deyil ki, bu, bizi qane edir, yox. Biz istəyirik daha da artsın və əminəm ki, artacaq. Sadəcə olaraq, buna nail olmaq üçün gərək iqtisadi sahədə daha da böyük artım olsun. Çünki biz ayağımızı yorğanımıza görə uzadırıq. Biz heç yerdən dəstək almırıq, buna ehtiyac da görmürük. Ona görə öz büdcəmizi elə planlaşdırmalıyıq ki, ölkə qarşısında duran vəzifələr icra edilsin, qeyri-neft iqtisadiyyatının inkişafını şərtləndirən layihələr icra edilsin və əldə edilmiş gəlirlər hesabına biz sosial layihələri həll edək. Ona görə ildən-ilə bizim valyuta ehtiyatlarımız artır. Hətta ən böhranlı 2015-ci, 2016-cı illərdə bizim gəlirlərimiz kəskin aşağı düşmüşdü, biz yenə də böyük qənaət paketi təqdim etdik və imkan vermədik ki, valyuta ehtiyatlarımız azalsın. Çünki bu, həm manatın məzənnəsinə müsbət təsir göstərir, eyni zamanda, bizim əsas ehtiyatımızdır.

**Ardı Səh. 7**

# İlham Əliyev: "Azərbaycan 2019-cu ildə uğurla inkişaf edib"

*Prezident İlham Əliyev yerli jurnalistlərə ilin yekunları ilə bağlı geniş müsahibə verib*

Əvvəli Səh. 6

Ona görə gələcək sosial layihələrin həyata keçirilməsi sırf iqtisadi inkişafla bağlıdır və iqtisadi inkişafın, əlavə gəlirlərin böyük əksəriyyəti sosial layihələrə istiqamətləndiriləcək. Əminəm ki, gələn il bu istiqamətdə də önəmli il olacaq. Onu da bildirməliyəm ki, biz məcburi köçkünlər üçün, şəhid ailələri, müharibə veteranları, əlillər üçün böyük sosial evlər paketi təqdim etmişik. Təkcə məcburi köçkünlər üçün bu il 5 mindən çox ev və mənzil inşa edildi. Təsəvvür edin, orta hesabla indi ailədə 4-5 nəfər olur, yəni, biz bir şəhər boyda layihə icra etdik. Təqribən 25-30 min nəfər bundan bəhrələnir, 800-ə yaxın şəhid ailəsi, müharibə əlili evlərlə təmin edilir. Heç bir ölkədə bu, yoxdur. İndi müharibədən çıxmış bir çox ölkələr var. Hansı ölkədə müharibədə həlak olmuş şəhidlərin ailələrinə dövlət tərəfindən evlər verilir, mənzillər verilir? Özü də bir yox, iki yox, artıq 7 mindən çox şəhid ailəsinə dövlət tərəfindən mənzillər verildi. Minlərlə, təqribən 6 mindən çox müharibə əlilinə maşınlar verildi. Yəni, bu, bizim siyasətimizdir, biz heç kimdən bunu götürüb tətbiq etmirik. Biz bu təşəbbüsləri özümüz göstəririk. Çünki mən hesab edirəm ki, bu, ədalətlidir və ədalət hər yerdə olmalıdır, o cümlədən sosial ədalət. Ona görə hesab edirəm ki, sosial sahədə bu il yaddaqalan olub və gələn il imkan daxilində bu müsbət meyillər davam etdiriləcəkdir.

***- Cənab Prezident, enerji sahəsində bu il çox mühüm və əlamətdar hadisələrlə zəngin olub. Strateji TANAP layihəsinin reallaşmasını, başa çatmasını, Cənub Qaz Dəhlizinin reallaşmasının əhəmiyyətini Siz necə səciyyələndirərdiniz?***

-TANAP layihəsinin istismara verilməsi, əlbəttə ki, böyük hadisədir, tarixi hadisədir. Demək olar ki, Cənub Qaz Dəhlizinin əsas hissəsini təşkil edən bu layihə uğurla başa çatdırıldı və əvvəlcədən nəzərdə tutulmuş daha aşağı qiymətlə. Yəni, bu layihəyə bəri başdan daha böyük vəsait nəzərdə tutulurdu. Ancaq inşaat zamanı böyük qənaətlə bu layihə icra edildi və artıq Azərbaycan qazı Avropa İttifaqının sərhədinə gətirilib çıxarıldı. Ona görə Türkiyə-Yunanıstan sərhədində bu ilin noyabrında keçirilmiş mərasim xüsusi əhəmiyyət daşıyırdı.

TANAP layihəsi bizim strateji aktivimizdir. Bu layihənin icra edilməsi üçün biz böyük səylər göstərmişik. Çünki biz hamımız yaxşı xatırlayırıq ki, Azərbaycan qazını daha böyük həcmdə Avropa qitəsinə nəql etmək üçün bir neçə layihə irəli sürülmüşdü. Onlardan biri "Nabukko" idi, başqa layihələr də var idi. Bu layihələr ətrafında çoxsaylı müzakirələr aparılırdı, konfranslar təşkil edilirdi. Faktiki olaraq, biz bir neçə il vaxt itirdik. Çünki bu layihənin əsas amili yox idi: bunun pulunu kim verəcək? Ölkələr arasındakı koordinasiyanı kim aparacaq? İlkin mərhələdə Avropa İttifaqı bu missiyanı öz üzərinə götürmüşdü və ölkələr arasında koordinasiyanı aparmağa çalışırdı. Dediyim bu simpoziumlar, konfranslar, təqdimatlar bu məqsədi daşıyırdı. Ancaq biz də iştirak edirdik və şəxsən mən dəfələrlə iştirak etmişəm. Hər dəfə görürdüm ki, burada konkret məsələlərdən söhbət getmir. Yaxşı şüarlar səsləndirilir, yaxşı təqdimatlar edilir. Ancaq bunu necə edək, kim edəcək, kim öz üzərinə götürəcək, bu məsələ açıq olaraq qalırdı. Biz bu məsələyə toxunanda bizə çox mücərrəd cavablar verilirdi, başa düşə bilmirdik ki, bu, nə məsələdir. Ona görə, biz görəndə ki, bu məsələ artıq öz həllini tapmır, "Şahdəniz-2" layihəsinə sanksiya vermək üçün isə mütləq bu məsələ öz həllini tapmalı idi. Çünki əks-təqdirdə kim bu qədər vəsaiti qazma işlərinə istiqamətləndirəcək ki, əgər bunun bazarı yoxdur. Qaz bazarında sən əvvəlcədən gərək kontrakt bağlayasan, ondan sonra qazma işləri aparasan. Bu, neft deyil ki, istənilən yerə satmaq olar. Bu, bazara bağlı olan məhsuldur. Ona görə biz görəndə ki, bu məsələ yerində sayır, o vaxt təşəbbüs irəli sürdük və Türkiyə tərəfinə bunu təqdim etdik. Təklif etdik ki, bu layihənin adı TANAP olsun - Trans-Anadolu kəməri. Türkiyə tərəfindən müsbət reaksiya verildi. Beləliklə, 2012-ci ildə mən və hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan İstanbulda bu tarixi anlaşmanı imzaladıq. Ondan təqribən bir il sonra "Şahdəniz" konsorsiumu "Şahdəniz-2" layihəsinin işlənilməsinə sanksiya verdi. Yəni, bu, bir-biri ilə sıx bağlı olan məsələlər idi. Əgər TANAP imzalanmasaydı, "Şahdəniz-2" də havada qalacaqdı və bu gün biz bu layihəni icra edə bilməzdik. Məhz buna görə TANAP-ın çox böyük əhəmiyyəti var. Çünki bu, imkan verdi ki, "Şahdəniz" qaz-kondensat yatağı tammiqyaslı işlənilsin və beləliklə, orada bir trilyon kubmetrdən çox olan təbii qaz hasil edilsin, nəql edilsin. İkinci məsələ, bu, nə üçün bizə lazımdır? Əgər TANAP imzalanmasaydı, bu gün artıq hasilata hazırlaşan "Abşeron" yatağı da qalacaqdı. Heç kim oraya vəsait qoymayacaqdı. "Abşeron" yatağından da biz ən azı 300 milyard kubmetr qaz hasilatı gözləyirik. Xarici investor da oraya əsas vəsaiti qoyur. Əgər qaz kəməri olmasaydı, kim buna vəsait qoyardı? Bizim digər yataqlardan təbii qaz çıxır, o cümlədən səmt qazı. İndi səmt qazını da biz qəbul edirik. Eyni zamanda, "Azəri-Çıraq-Günəşli" yatağında "dərin qaz" adlandırılan böyük qaz ehtiyatı var. Biz onun da istismarına yaxınlaşırıq. Ona görə TANAP burada xüsusi rol oynayıb. Bu, sadəcə olaraq, bir kəmər deyil ki, Türkiyə ərazisindən keçir. Bu, həm Türkiyəni təmin edəcək və artıq edir, Gürcüstanı, Avropanı da. Eyni zamanda, imkan verəcək ki, biz bütün qaz ehtiyatlarımızı işə salaq, xarici investorları cəlb edək, yenə də milyardlarla dollar vəsait qoyulacaq. Beləliklə, Azərbaycan gələcəkdə qazın ixracından vəsait qazanacaq. Çünki bizim neft yataqlarımız artıq bəllidir. Düzdür, indi xarici şirkətlərlə yeni layihələr işlənilir. Əminəm ki, onlar da imzalanacaq. Artıq imzalanmış layihələrdən də yaxşı nəticələr gözləyirik. Ancaq uzunmüddətli perspektivdə bizim əsas gəlir mənbəyimiz təbii qaz olacaqdır. Ona görə TANAP-ın çox böyük əhəmiyyəti var.

Eyni zamanda, TANAP Avropa qaz kəmərinin - "Trans-Adriatik", yəni, TAP adlandırılan kəmərin inşasına da imkan yaratdı. Bu layihənin icra səviyyəsi artıq 90 faizi ötübdür.

Onu da bildirməliyəm ki, bütün bu layihələrin təşəbbüskarı Azərbaycan olubdur. Cənub Qaz Dəhlizinin təşəbbüskarı və əsas təşkilatçısı Azərbaycan olubdur. Cənub Qaz Dəhlizi dörd layihədən ibarətdir: "Şahdəniz-2", Cənubi Qafqaz Kəməri, TANAP və TAP. Onların hər birində Azərbaycan iştirak edir. TANAP-da 58 faiz payla biz layihənin əsas səhmdarıyıq. TAP-da bizim 20 faiz payımız var və digər layihələrdə də. Ona görə bunun çox böyük tarixi əhəmiyyəti vardır. Əminəm ki, Cənub Qaz Dəhlizi, hansı ki, biz keçən il rəsmi açılışını etdik, gələn il tam işə düşəcək.

***- Cənab Prezident, enerji layihələri ilə bağlı fikirlərinizi eşitdik. Mənim növbəti sualım isə nəqliyyat sektoru ilə bağlı olacaq. Məlum məsələdir ki, Azərbaycan bu sahədə də çox böyük nailiyyətlər, uğurlar əldə edib. 2019-cu ildə bu istiqamətdə regional əməkdaşlıqla bağlı görülən işləri necə qiymətləndirirsiniz?***

- Mən müsbət qiymətləndirirəm. Hesab edirəm ki, 2019-cu ildə biz artıq mövcud olan nəqliyyat infrastrukturundan çox səmərəli şəkildə istifadə etdik. Əvvəlki dövrlərdə yaradılmış nəqliyyat infrastrukturu imkan verdi ki, biz əməkdaşlığın miqyasını genişləndirək.

Nəqliyyat məsələlərinə gəldikdə, mən həmişə bu məsələləri iki yerə bölürdüm. Birinci, daxili nəqliyyat layihələri, ikinci isə beynəlxalq əməkdaşlıq tələb edən layihələr. Düzdür, bu layihələr bir-biri ilə sıx bağlıdır. Ancaq biz bütün addımlarımızı planlı şəkildə atmalı idik. Belə olan halda uğur da qazanılacaqdı, belə də oldu. Ona görə daxili nəqliyyat layihələrinin icrası bizə imkan verdi ki, biz ölkə daxilində çox müasir nəqliyyat infrastrukturu yaradaq və buna nail olduq. Misal üçün, baxmayaraq ki, ölkə ərazisi o qədər də böyük deyil, bizim yeddi beynəlxalq hava limanımız var və bunların hər biri işlək vəziyyətdədir. Onlardan altısı beynəlxalq uçuşlar da təşkil edir. Digər tərəfdən, bizim dəniz nəqliyyatımız sürətlə inkişaf etdi. Biz Xəzərdə ən böyük donanmaya malikik. Biz hazırda 2003-cü ildə istifadəyə verilmiş gəmiqayırma zavodunda bütün növ gəmiləri istehsal edə bilirik. Bu yaxınlarda tarixdə ilk dəfə olaraq Azərbaycanda bərə gəmisi istifadəyə verildi. Onun adı "Azərbaycan"dır. "Laçın" adlı neft tankerinin də inşası tamamlandı və istifadəyə verildi. Növbəti illərdə Bakının gəmiqayırma zavodunda başqa gəmilər də inşa ediləcəkdir.

Hava nəqliyyatına gəldikdə, Davos Ümumdünya İqtisadi Forumunun son hesabatında göstərilir ki, hava nəqliyyatının səmərəliliyinə görə, Azərbaycan dünyada 12-ci yerdədir. Yük daşımaq üçün imkanlar var. Azərbaycan indi tranzit hab kimi öz hava məkanından istifadə edir.

Eyni zamanda, ölkə daxilində dəmir yolu infrastrukturu yenilənib. Əlbəttə ki, Bakı-Tbilisi-Qars dəmir yolunun iki il əvvəl istismara verilməsi böyük dəyişikliklərə gətirib çıxardı. Dəmir yollarının səmərəliliyinə görə, - yenə də Davos Forumuna qayıdıram, - Azərbaycan 11-ci yerdədir. Yəni, bu, çox yüksək göstəricidir. Eyni zamanda, son 16 ildə 16 min kilometr avtomobil yolu inşa edilib - həm magistral, həm şəhərlərarası, kənd yolları. Bu göstəriciyə görə, yolların keyfiyyətinə görə, biz dünyada 27-ci yerdəyik. Bütövlükdə, nəqliyyat infrastrukturunun səviyyəsinə görə, Azərbaycan dünyada 34-cü yerdədir və bu, çox yüksək göstəricidir. Ona görə, nəqliyyatın bütün seqmentləri Azərbaycanda tam müasir standartlara cavab verir. Eyni zamanda, keçən il istifadəyə verilmiş Ələt Dəniz Ticarət Limanı da çox böyük infrastruktur obyektidir. Bu limanın yükaşırma qabiliyyəti hazırda 15 milyon tondur və bunun həcmi 25 milyon tona qədər rahatlıqla artırıla bilər. Beləliklə, bu strateji infrastruktur layihəsi bizə imkan verir ki, Azərbaycan üzərindən yük daşımalarının həcmi artsın.

Bütün bu layihələrin arasında Bakı-Tbilisi-Qars dəmir yolunu mən xüsusilə vurğulamaq istəyirəm. Çünki bu, bir neçə səbəbə görə doğrudan da strateji obyektdir, strateji infrastrukturdur. Birincisi, bizim Türkiyə ilə dəmir yolu bağlantımız olmayıb. Beləliklə, bizim ixracımız, yaxud da ki, Azərbaycan üzərindən təşkil edilən ixracın son nöqtəsi Qara dəniz limanları idi. Orada da gərək yüklər yenə də aşırılardı, daşınardı - yenə də vaxt itkisi, yenə də vəsait itkisi. Limanların da imkanları məhduddur və bir çox hallarda hava şəraitindən asılıdır. İlk növbədə, Novorossiysk limanı. Orada bəlkə də il ərzində günlərin təqribən 20 faizində hava şəraiti imkan vermir ki, yüklər daşınsın. Ona görə bu, birinci məsələ idi. İkinci məsələ ondan ibarət idi ki, biz çox yaxşı başa düşürdük, əgər Bakı-Tbilisi-Qars dəmir yolu tikilərsə, onda biz nəinki Şərq istiqamətindən, hətta Cənub və Şimal istiqamətindən də bu yola yükləri cəlb edə bilərik və buna nail olduq. Ona görə bu, strateji obyekt idi bizim üçün. Mən Prezident kimi fəaliyyətimə başlayanda dərhal bu məsələ ilə məşğul olmağa başladım və araşdırma apardım ki, biz bunu necə icra edək. O vaxt bizim pulumuz yox idi. Beynəlxalq maliyyə qurumları bu layihəyə maraq göstərmirdilər. Biz bəzi ölkələrə müraciət etmişdik. O müraciətə də cavab verilmədi. Ona görə biz gördük ki, bunu özümüz etməliyik və əlbəttə, qonşu ölkələrlə birlikdə. İlk növbədə, Türkiyə tərəfi ilə danışıqlar apardıq və razılığa gəldik. Ondan sonra Gürcüstanla danışıqlar başlanıldı. Bunun böyük hissəsi Gürcüstan üzərindən keçən dəmir yoludur. Gürcüstanın da imkanı yox idi. Ona görə biz bu məsələni öz üzərimizə götürdük və Gürcüstanla kredit anlaşması imzalandı. Bu kredit anlaşmasına görə, təqribən 800 milyon dollara yaxın vəsait nəzərdə tutulurdu, o şərtlə ki, inşaatı Azərbaycan şirkətləri aparsınlar. Yəni, bu vəsaitdən biz özümüz istifadə edəcəyik, eyni zamanda, kredit də ondan sonra qaytarılacaqdır.

Bütün bu məsələləri təşkil edəndən sonra gördük ki, biz indi bəzi beynəlxalq təzyiqlə üzləşirik. Bu, bir qədər gözlənilməz idi. Çünki biz yaxşı bilirdik və xəritəyə baxanda hər kəs görür ki, bu yol çox lazımdır. Ancaq bəzi Qərb ölkələri buna etiraz etdilər. Baxmayaraq ki, biz indi onlardan kredit də almaq fikrində deyildik. Ancaq Gürcüstana təzyiqlər başlanıldı ki, Gürcüstan razılıq verməsin bu layihəyə. Çünki bu layihə həyata keçirilərsə, Ermənistan nəqliyyat dalanında qalacaqdır. Dünyadakı ermənipərəst qüvvələr, erməni lobbisi, diaspor və ermənipərəst siyasətçilər bu layihənin əleyhinə açıq şəkildə çıxdılar. Əgər Gürcüstan buna razılıq verməsəydi, əlbəttə ki, bu layihə həyata keçirilə bilməzdi. Biz Gürcüstan rəhbərliyini inandıra bildik ki, bu layihə onlar üçün də xeyirlidir.

Ardı Səh. 8

# İlham Əliyev: "Azərbaycan 2019-cu ildə uğurla inkişaf edib"

*Prezident İlham Əliyev yerli jurnalistlərə ilin yekunları ilə bağlı geniş müsahibə verib*

Əvvəli Səh. 7

Həm minlərlə iş yerləri yaradılacaq, Gürcüstana yaxşı şərtlərlə təqribən 800 milyon dollar dəyərində kredit veriləcək və Gürcüstan üzərindən yükdaşımalarının həcmi kəskin artacaq. Razılığa gələndən sonra, eyni zamanda, mən bəzi Qərb ölkələrinin rəhbərləri ilə açıq söhbət etdim və dedim ki, siz bizə mane olmayın. Kömək etmirsiniz, etməyin. Ancaq siz bizə mane olmayın. Çünki biz də bəzi məsələlərdə sizə mane ola bilərik. Hesab edirəm, bu sözlərdən sonra artıq orada da yəqin edildi ki, daha yaxşı olar ki, bu işə müdaxilə etməsinlər. Beləliklə, Tbilisidə Bakı-Tbilisi-Qars layihəsinin sənədləri imzalanmışdır. İnşaat 2 il bundan əvvəl başa çatdı və bu gün biz nəinki gözlədiyimiz yerlərdən, hətta yeni ünvanlardan da bu yol üzərində yükləri qəbul edirik və ötürürük.

Bu, əlbəttə ki, Çin-Qazaxıstan-Xəzər-Azərbaycan-Gürcüstan-Türkiyə yoludur və eyni zamanda, artıq Türkmənistandan da yüklər gəlir. Türkmənistana mənim səfərim zamanı ancaq nəqliyyat sektoruna aid səkkiz sənəd imzalanmışdır. Artıq Əfqanıstan-Türkmənistan-Azərbaycan-Avropa dəmir yolu xətləri birləşib. Əfqanıstanda Lapis-Lazuli layihəsi ilə biz Bakı-Tbilisi-Qarsı birləşdirə bildik. Beləliklə, yeni yüklər əldə edildi. Artıq Rusiyadan da Azərbaycan üzərindən Türkiyəyə yüklərin daşınması başlamışdır. Əminəm ki, bu yolla yüklərin həcmi daha da artacaq. Eyni zamanda, biz İrandan da Avropa istiqamətinə Azərbaycan üzərindən yükləri gözləyirik. Bildiyiniz kimi, Şimal-Cənub nəqliyyat dəhlizində də Azərbaycan çox fəal iştirak edir. Biz öz ərazimizdə bu dəhlizlə bağlı bütün işləri başa vurmuşuq. Ona görə bütün bu addımların nəticəsində Azərbaycan - açıq dənizlərə çıxışı olmayan bir ölkə beynəlxalq, yəni Avrasiya nəqliyyat mərkəzlərinin birinə çevrilibdir. Əminəm ki, növbəti illərdə artıq icra edilmiş layihələrin və yeni layihələrin icrası nəticəsində Azərbaycan üzərindən yükdaşımalarının həcmi artacaq.

Bir məsələni də vurğulamaq istəyirəm. Əlbəttə ki, bu, bizə uzunmüddətli gəlirlər gətirəcək, özü də böyük həcmdə. Ancaq, eyni zamanda, bu, beynəlxalq əməkdaşlığı da möhkəmləndirir, ölkələr birbiri ilə daha sıx bağlanır, qarşılıqlı asılılıq yaranır. Tranzit ölkə olmaq üçün sən mütləq qonşularla yaxşı münasibətlər qurmalısan. Çünki sən qonşularsız tranzit ölkəyə çevrilə bilməzsən. Bizim xarici siyasətlə bağlı dediyim sözlər bunu bir daha təsdiqləyir. Əgər qonşu ölkələrlə səmərəli qarşılıqlı faydalı münasibətlər qurulmasaydı, bu gün nə enerji, nə nəqliyyat layihələri icra edə bilməzdi.

***- Cənab Prezident, icazənizlə bir qədər də dini-mənəvi dəyərlərin təbliği istiqamətində Azərbaycanın atdığı addımlara toxunaq. Çünki ölkəmiz siyasi, iqtisadi, hətta hərbi olmaqla yanaşı, eyni zamanda, dinlərarası dialoqun təşviqi baxımından çox mühüm platforma yaradıb. Elə bu il qeyd etdiyiniz kimi, Bakıda Dünya Dini Liderlərinin Zirvə toplantısı keçirildi və Siz həmin toplantıda çıxış etdiniz, mühüm məqamlara toxundunuz. Ümumiyyətlə, Azərbaycandan, konkret Bakıdan ünvanlanan həmin çağırışlar region və dünya ölkələri üçün nə verir? Bunun ən mühüm faydası nədir? İstərdik bu barədə Sizin fikirlərinizi eşidək.***

- Tamamilə haqlısınız, Azərbaycan bu istiqamətdə ardıcıl siyasət aparır və bu siyasətin çox sadə səbəbləri vardır. İlk növbədə, bu siyasət və bu sahədə aparılan işlər, apardığımız siyasət daxili vəziyyətin sabitləşməsinə, sabit saxlanmasına xidmət göstərir. Azərbaycan çoxmillətli, çoxkonfessiyalı bir ölkədir. Azərbaycanda bütün xalqların, dinlərin nümayəndələri bir ailə kimi yaşayır. Bu unikal təcrübə artıq bir çox ölkələr tərəfindən öyrənilir. Bu, həqiqətən belədir. Bu, həm dövlət siyasətidir, həm də cəmiyyətdən gələn sifarişdir. Biz əsrlərboyu bu ab-havada yaşamışıq və Azərbaycanda yaşayan bütün dinlərin nümayəndələri heç vaxt heç bir ayrı-seçkilik hiss etməmişlər, heç vaxt tarixdə dini-milli zəmində Azərbaycanda qarşıdurma, yaxud da hansısa bir anlaşılmazlıq olmamışdır. Ona görə biz bu siyasəti apararkən hesab etdik ki, əgər geniş beynəlxalq əməkdaşlıq bu istiqamətdə qurularsa, bu, həm bizim üçün daha yaxşı olacaq, həm də biz regionda mövcud olan vəziyyətə də müsbət təsir göstərəcəyik. Çünki biz adada yaşamırıq və bizim təhlükəsizliyimiz, sabitliyimiz əlbəttə ki, daxili amillərə söykənir. Ancaq hüdudlarımızdan kənarda yerləşən ölkələrdəki vəziyyət də bizim üçün çox əhəmiyyətlidir. Bu bir.

İkincisi biz hesab etdik ki, Azərbaycan bu missiyanı öz üzərinə götürə bilər - təkcə tarixi keçmişinə görə yox, eyni zamanda, bugünkü siyasətinə görə. Çünki bizim siyasətimiz əməkdaşlığa hesablanıbdır. Mən tam əminəm ki, yalnız əməkdaşlıq hesabına biz xarici məqsədlərə nail ola bilərik. Bəzi ölkələr var, görəndə ki, qonşunun vəziyyəti ağırdır, onu daha da ağırlaşdırmaq istəyir, nəsə qoparmaq istəyir. Bu, çox yanlış siyasətdir. Bəlkə də qısamüddətli xeyir gətirə bilər, ancaq o ölkələrin vətəndaşlarının yaddaşında bu, həmişə qalacaqdır ki, fürsət düşdü, məndən bu şeyi aldı, halbuki, almamalı idi. Bizim siyasətimiz ondan ibarətdir ki, əgər qonşu ölkə, yaxud da hansısa başqa ölkə dar gündədirsə və sənin kömək etmək imkanın varsa, sən kömək etməlisən. Bu, gələcəkdə sənə qayıdacaq, daha böyük dividendlər əldə edəcəksən. Ona görə bu amili nəzərə alaraq, biz bu təşəbbüslə çıxış etdik. Eyni zamanda, gördük ki, - bunu artıq 10 il bundan əvvəl görmüşük, - artıq dünyada tendensiyalar mənfi istiqamətə gedir. Hazırda bunu görməyən yoxdur. Hər kəs görür ki, dünyada, o cümlədən Avropada ayrım-seçkilik meyilləri güclənir. Ancaq biz bunun təzahürlərini təxminən 10 il bundan əvvəl görməyə başladıq və "Bakı Prosesi" adlandırılan layihəni, siyasi təşəbbüsü irəli sürdük. Bu haqda kifayət qədər danışılıb. Çox da geniş şərhə ehtiyac yoxdur. "Bakı Prosesi" bu gün BMT tərəfindən çox önəmli, bəlkə də ən vacib platforma kimi tanınır. Bu proses çərçivəsində əməkdaşlıq daha yeni pilləyə qalxdı. Deyə bilmərəm ki, bu proses bu sahədə hansısa bir dönüş yaratdı. Ancaq, eyni zamanda, bax, Bakıda keçirilmiş Dünya Dini Liderlərinin İkinci Zirvə Görüşü bir daha göstərdi ki, bunun böyük faydası var. Eyni zamanda, Bakıda ənənəvi olaraq Mədəniyyətlərarası Dialoq Forumu, Bakı Humanitar Forumu, BMT-nin Sivilizasiyalar Alyansı Qlobal Forumu və "Bakı Prosesi" çərçivəsində aparılan işlər dini və milli zəmində olan ixtilafların azaldılmasına xidmət göstərir. Bu gün Azərbaycanın rolu artıq birmənalı şəkildə tanınır və təqdir edilir.

Deyə bilərəm ki, dünya miqyasında Azərbaycan qədər bu məsələyə diqqət yetirən və nəticə əldə edən ikinci ölkə tapmaq çətindir. Bunu təkcə mən demirəm, bunu Azərbaycanda milli-mənəvi dəyərlər, dinlərarası dialoq sahələrində əldə edilmiş uğurları tanınmış və aparıcı siyasi və dini liderlər qeyd edir. Misal üçün, İslam Əməkdaşlıq Təşkilatının rəhbərliyi dəfələrlə Azərbaycanda müsəlman dininə olan hörmətə və müsəlman dininin dünyada sülh, mərhəmət dini kimi təqdim edilməsində gördüyümüz işlərə çox böyük qiymət vermişdir. Aparıcı müsəlman ölkələrinin rəhbərləri bunu açıq şəkildə ifadə etmişlər. Biz birinci ölkə və yeganə müsəlman ölkəsi olmuşuq ki, müsəlman tarixinə, mədəniyyətinə aid sərgini Vatikanda keçirdik. Biz müsəlman dəyərlərinin Avropada təbliğ edilməsində çox böyük rol oynayırıq. Təsadüfi deyil ki, müsəlman ölkələrinin rəhbərləri bu sahədəki fəaliyyətimizə yüksək qiymət verirlər.

Eyni zamanda, bu Zirvə Görüşündə iştirak etmiş Moskva və bütün Rusiyanın patriarxı Kirill öz çıxışında və rəsmi bəyanatlarda Azərbaycanda bu sahədə görülən işlərə yüksək qiymət vermişdir. Bakıda bir neçə il bundan əvvəl rəsmi səfərdə olmuş Roma Papası Fransisk də bu sahədə Azərbaycanda görülən işlərə yüksək qiymət vermişdir. Bunu deyən dini liderlərdir. Bunu deyən adamların arxasında milyardlarla insan var. Bütün bu liderlər bizim bu sahədəki fəaliyyətimizi qiymətləndirirlər. İkinci belə bir ölkə tapmaq mümkün deyil ki, bütün bu ənənəvi dinlərin rəhbərləri Azərbaycanda görülən işlərə eyni fikirlə yüksək qiymət versinlər. Əlbəttə ki, böyük nailiyyətimizdir.

Hesab edirəm ki, bizim yaratdığımız platforma bu gün yüksək səviyyədə qiymətləndirilir və buna ehtiyac var. Bütün bu forumlardan sonra mənim ikitərəfli görüşlər əsnasında yəqin etdiyim odur ki, bütün iştirakçılar çox böyük minnətdarlıqla bizə müraciət edərək deyirlər ki, nə yaxşı ki, siz bu işi öz üzərinizə götürmüsünüz. Ona görə, yenə də deyirəm, bu, ilk növbədə, bizim özümüzə lazımdır, regionumuza lazımdır, dünyaya lazımdır.

***- Cənab Prezident, islahatlar məsələsinə toxunmaq istərdim. Azərbaycanda bütün sahələri əhatə edən islahatlar arasında kadr və struktur islahatları xüsusi mühüm bir yer tutur. Son zamanlar bu sahə Sizin diqqət mərkəzinizdə olan əsas məsələlərdən biridir. Ölkəmizin ümumi inkişafında kadr və struktur islahatlarının rolu barədə Siz nə düşünürsünüz?***

- Əlbəttə, bu il bu sahədə görülmüş işlərlə yaddaqalan olub. Kadr və struktur islahatları, əslində, bir-birini tamamlayan islahatlardır. Bu, ümumi islahatlar siyasətinin təzahürüdür. İslahatlar müxtəlif dövrlərdə, müxtəlif templə və səmərə ilə həyata keçirilib. Keçənilki prezident seçkilərindən sonra mənim andiçmə mərasimimdəki çıxışımda islahatların yeni mərhələsi elan edildi və biz bu islahatları ardıcıl şəkildə reallaşdırmağa başladıq, o cümlədən kadr islahatları ilə bağlı olan məsələlər öz həllini tapdı. Yeni hökumətdə müasir dünyagörüşünə malik olan gənc, eyni zamanda, təcrübəli kadrlar təmsil olundular və biz onların rəhbərlik etdikləri sahələrdə islahatların artıq yaxşı nəticələrini görməyə başladıq. Builki sosial-iqtisadi göstəricilərin artımı onu göstərir ki, Prezident tərəfindən verilən tapşırıqlar yerinə yetirilir.

Ona görə bu il də bu islahatlar davam etdirildi. Struktur islahatlarına gəldikdə, əlbəttə ki, Prezident Administrasiyasında çox ciddi struktur və kadr islahatları aparıldı, Nazirlər Kabineti yenidən formalaşdı. Həm vəzifələrə yeni simalar gətirildi, eyni zamanda, struktur dəyişikliyi edildi. Yerli icra orqanlarında kadr dəyişikliyi aparılır və aparılacaq. Bu proses davam etdiriləcək. Bu, labüddür, çünki dayanıqlı inkişafı təmin etmək üçün həm struktur çevik olmalıdır və ağır olmamalıdır, eyni zamanda, kadrlar müasir çağırışlara cavab verməlidirlər. XXI əsrdə köhnə baqajla nailiyyət əldə etmək mümkün deyil. İslahatların əsas məqsədi ondan ibarətdir ki, ölkəmizdə mövcud olan ab-hava daha da sağlamlaşdırılsın, xoşagəlməz hallara yol verilməsin. Yeni kadrlar yeni yanaşma gətirirlər, yeni düşüncə tərzi gətirirlər və mən onların fəaliyyətini yüksək qiymətləndirirəm. Eyni zamanda, təqaüdə çıxmış, amma vaxtilə xidməti olmuş kadrları da biz böyük hörmətlə təqaüdə göndəririk. Bu da həm bizim milli ənənələrimizə uyğundur, eyni zamanda, mən hesab edirəm ki, hər bir insana onun gördüyü işlərə görə də qiymət verilməlidir, o cümlədən rəhbərlik tərəfindən. Ona görə hesab edirəm ki, ölkəmizdə bu proses çox hamar gedir.

Bütövlükdə deyə bilərəm ki, bizim siyasətimiz konseptual xarakter daşıyır və ardıcıllıqla icra edilir. Əgər son 16 ilin tarixinə geniş nəzər salsanız, görərsiniz ki, heç bir addım təsadüfi olmayıb. Hər bir addımın arxasında çox böyük təhlil və böyük məqsədlər dayanır. Beləliklə, kadr islahatları zamanında aparılır. Bəlkə beş il bundan əvvəl bu cür kadr islahatları aparmaq düzgün olmazdı, amma iki il bundan sonra da artıq gec olardı. Ona görə hesab edirəm ki, kadr islahatları, struktur islahatları zamanında aparılır. Ümumiyyətlə, işə yanaşma tərzi dəyişir. Azərbaycan yeniləşir, Azərbaycanın yeni siması ortalığa çıxır, iqtidarın yeni siması ortalığa çıxır - müasir dövrə uyğun, cəmiyyətimizin gözləntilərinə uyğun və bizim inkişaf strategiyamıza uyğun. Hər şey buna bağlıdır. İlk növbədə, bizim milli maraqlarımız, dövlətçiliyimiz, vətəndaşların rahat yaşaması, sosial rifah və kadrlar bu məqsədlərə qulluq etməlidirlər. O kadrlar ki, bu məsuliyyəti dərk etmir, onlar əlbəttə, ən yaxşı halda vəzifədən uzaqlaşdırılır. Yaxud da, onlara qarşı daha ciddi tədbirlər görülür və görüləcək.

***- Cənab Prezident, islahatlar məsələsinin davamı olaraq son günlərin ən çox müzakirə olunan məsələsi ilə bağlı sual ünvanlamaq istəyirəm Sizə? Bir neçə gün əvvəl bir sıra yüksək vəzifəli məmur həbs edildi. Siz öz çıxışlarınızda daim məmurların təmiz, vicdanlı işləməsinin vacibliyini bildirirsiniz. Məmurlar tərəfindən törədilən hər hansı qanun pozuntularına qarşı ciddi mübarizə aparılacağını qeyd edirsiniz. Sizin bu istiqamətdə atdığınız qətiyyətli addımlar əhali tərəfindən böyük rəğbətlə qarşılanır. Bu addımları ölkədə aparılan genişmiqyaslı islahatların tərkib hissəsi hesab etmək olarmı?***

Ardı Səh. 9

# İlham Əliyev: “Azərbaycan 2019-cu ildə uğurla inkişaf edib”

*Prezident İlham Əliyev yerli jurnalistlərə ilin yekunları ilə bağlı geniş müsahibə verib*

**Əvvəli Səh. 8**

-Təbiidir ki, bu, genişmiqyaslı islahatların tərkib hissəsidir. Son müddət ərzində mənim bəzi daxili görüşlərim ictimailəşdirildi və hesab edirəm ki, buna ehtiyac var. Onu da bildirməliyəm ki, mənim iş qrafikim çox gərgindir. Demək olar ki, iş qrafikimdə fasilə yoxdur. Hətta bazar günündə ki, mən işə çıxmıram, yenə də mən daim əlaqədəyəm. Bəlkə də Azərbaycanda yeganə adamam ki, mənim istirahət günlərim yoxdur. Çünki hər gün mənim üçün iş günüdür. Çünki hər gün məsələləri həll etmək lazımdır. Bir çox məsələlər çıxır ki, onlar operativlik tələb edir. Ona görə ictimaiyyətə təqdim olunan bəzi daxili görüşlər mənim iş qrafikimdə bəlkə də 5-10 faiz təşkil edir. Ancaq buna ehtiyac var. Həm də bu, ictimaiyyətə verilən bir növ hesabatdır, siyasətimizin əsas istiqamətlərinin dəqiqləşdirilməsidir. Eyni zamanda, kadrlar qarşısında qoyulan vəzifələrdir ki, ictimaiyyət də bunu bilsin. Misal üçün hansısa rayona icra başçısı təyin olunanda ona dediyim sözlər, verdiyim tövsiyələr təbii ki, rayon ictimaiyyəti tərəfindən də qəbul edilir. Onlar artıq o adamdan bu meyarlara uyğun olmasını tələb edirlər və tələb etməlidirlər. Mən dəfələrlə demişəm ki, ictimai nəzarət daha güclü olmalıdır. Bunu, sadəcə, söz naminə demirəm. Bəlkə də bir çox hallarda bunu təkrarlayıram. Nəyə görə? Çünki bu yoxdur bizdə. Bilirsiniz, ya yoxdur, ya da ki, ibtidai vəziyyətdədir. Belə olmaz, ictimai nəzarət olmalıdır. Əgər ictimai nəzarət olmasa, biz məlumatı haradan əldə edəcəyik? Mən, misal üçün bildirmişəm və bir daha demək istəyirəm ki, bəzi hallarda mən mətbuatdan bir çox şeyləri öyrənirəm. Çünki bəzi məsələlər mənə məruzə edilmir. Çünki sərf etmir o adamlara məruzə etmək. Ona görə ya mən bölgələrə gedəndə çalışıram vətəndaşlardan vəziyyətlə bağlı öyrənim, onları narahat edən problemlər haqqında eşidim. Ya özüm gedirəm təftiş edirəm orada işləri, ya da ki, ictimaiyyətdən verilməlidir bu məlumat. Dövlət məmurları hər bir ölkədə ancaq yaxşı raport verməyi öyrəşiblər. Onlardan soruşsan deyərlər ki, hər şey əladır, hər şey mükəmməldir, heç bir problem yoxdur. Mən bir çox rayonlara gedəndə icra başçısı ilə söhbət edəndə deyirəm hansı problem var - hər şey əla. Axı belə ola bilməz. Ya özü bilmir, ya da ki, bunları ört-basdır etmək istəyir, ya da bilmirəm hansı məqsədi güdür. Ona görə mənim kameralar qarşısında yeni təyin edilmiş icra başçılarına dediyim sözlər onlara verilən ən ciddi tapşırıqdır və onlar bu tapşırığı yerinə yetirməlidirlər. O cümlədən vətəndaşlara münasibətdə yekəxanalığa yer olmamalıdır, özlərini təkəbbürlü aparmamalıdırlar, vətəndaşlara yuxarıdan aşağıya baxmamalıdırlar, vətəndaşlara xidmət etməlidirlər, vətəndaşları incitməməlidirlər, hansısa abadlıq işlərinə sahibkarlardan qanunsuz pul tələb etməməlidirlər. İndi abadlıq adı ilə bilirəm ki, sahibkarlardan vəsait yığırlar. Bu, qətiyyən qəbuledilməzdir. Belə abadlıq bizə lazım deyil. Rüşvət almamalıdırlar, əksinə, çalışmalıdırlar ki, investorları cəlb etsinlər. Yoxsa bəzi hallarda kimsə gəlib nəsə iş görmək istəyir, ona şərait yaratmaq əvəzinə, ondan pul tələb edirlər. İndi son vaxtların tədbirləri bunu göstərdi. Mən xəbərdarlıq etmişdim. Bəzilərinə dedim ki, hər kəs eşitsin, əyri yolla getsəniz inzibati cəza ən yüngül cəza olacaq. İnzibati cəza ilə iş məhdudlaşmayacaq. Amma bəziləri bəlkə hesab edirdilər ki, onlara aid deyil. Ona görə belə yolverilməz addımlar atdılar. Bu, əslində, dövlətə, dövlət siyasətinə edilən xəyanətdir. Eyni zamanda, belə dəhşətli faktlar aşkarlanır ki, adam vallah heç bilmir nə fikirləşsin. İndi mənim təşəbbüsümlə xüsusilə manatın məzənnəsi aşağı düşəndən sonra bizdə işsizlik meyilləri artdı. Bunu mən hiss edirdim, görürdüm. Bəzi adamlar işsiz qaldılar. Nə üçün? Çünki vaxtilə dövlət xətti ilə icra edilən layihələrə onlar cəlb olunurdu. İnvestisiyalar kəskin aşağı düşdü. Biz investisiyaları ixtisar etdik. O layihələr də artıq icra edilmədi, insanlar qaldı küçələrdə. Biz nə etdik? Düzdür, bu, bazar iqtisadiyyatına uyğun deyil. Ancaq bu, düzgün addım idi. Mənim təşəbbüsümlə biz hər rayonda ictimai ödənişli iş yerləri yaratdıq, vətəndaşlara, heç olmasa, minimum əməkhaqqı səviyyəsində məvacib verilsin deyə. Beləliklə, ölkə ərazisində 40 minə yaxın belə ictimai iş yeri var. O mənada ictimai ki, ictimai işlərlə məşğul olur, haradasa təmizlik işləri, bərpa işlərilə. Bəziləri bağban kimi işləyir. Ödənişli, çünki buna görə maaş alır. Bax, bu maaşı da onlar qıymadılar o kasıb adamlara. O kartları götürüb oradan pul çəkib öz ciblərini doldurdular. Buna nə ad vermək olar? Bu, vicdansızlıqdır. İndi yaxşı, xalqdan qorxmursansa, Allahdan qorx. Belə şey etmək olarmı? Ona görə, bax, bu, onu göstərir ki, bu, məmurun mənəvi deqradasiyasıdır, bu, insanın mənəvi deqradasiyasıdır. Belə məmurlar bizə ləkədir, ölkəmizə ləkədir, iqtidara ləkədir. Hamı bilsin, eşitsin ki, belə hallara qarşı mübarizə daha ciddi aparılacaq. Hamı ibrət götürsün, dərs götürsün, hər kəs üçün dərs olsun. Dövlət məmuru olmaq istəyirsənsə, vicdanla xidmət et dövlətə. Yox sən dövlət vəzifəsinə gəlir mənbəyi kimi baxırsansa, heç getmə o vəzifəyə. Çünki bədbəxt olarsan. Bunu anlamayanlar, hesab edirəm, anlamalıdırlar ki, yeni dövrdə, yeni çağırışlar qarşısında olan ölkədə başqa cür ola da bilməz. Biz ölkəmizdəki vəziyyəti daha da sağlamlaşdırmalıyıq və xoşagəlməz hallara qarşı mübarizə bundan sonra da aparılacaq. Eyni zamanda, həm mətbuatdan, həm ictimaiyyətdən mən həm dəstək görürəm, həm də ki, onlar mənə bu işdə kömək edirlər.

***- Cənab Prezident, mənim sualım müxalifətlə bağlıdır. Hazırda Azərbaycanda müxalifət çox dərin böhran içindədir. Demək olar ki, onların cəmiyyətdə heç bir dayağı yoxdur. Bütün bunların səbəblərini Siz necə səciyyələndirərdiniz?***

- Bilirsiniz, bunun bir neçə səbəbi var. Hesab edirəm, birinci səbəb odur ki, bu gün müxalifətçiliyi inhisara götürmüş adamlar vaxtilə hakimiyyətdə olublar. Onların bəd əməlləri xalqımızın yaddaşından silinməyib. Biz hamımız AXC-Müsavat cütlüyünün hakimiyyətini yaxşı xatırlayırıq, o, bizim üçün bir biabırçılıq dövrü idi. Hesab edirəm ki, milli rəzalət dövrü idi. Çünki hakimiyyətə gəlmiş savadsız, səriştəsiz adamlar öz məsuliyyətini dərk etmədilər. Onlar, dediyim kimi, deqradasiyaya uğramış məmurlar kimi hakimiyyəti ancaq gəlir mənbəyi olaraq görürdülər. Onların əsas məqsədi varlanmaq, talamaq, oğurlamaq, satmaq idi, bir-biri ilə elə bil ki, yarışa girmişdilər - kim daha çox oğurlayacaq, kim daha çox ziyan vuracaq ölkəyə. Ölkə problemləri qaldı kənarda, Qarabağ problemi qaldı kənarda, sosial problemlər, hansı ki, Azərbaycan vətəndaşları böyük sosial problemlərlə üzləşmişdilər. İnflyasiya 1000 faizdən çox idi. Onların heç vecinə də deyildi. Onların işi ancaq dövlət əmlakını mənimsəmək idi, mən bunu dəfələrlə demişəm, bunun sübutları da var. Ləl-Cavahirat Fondunu elə taladılar ki, orada bir dənə də qiymətli əşya qalmadı. Vətəndaşlar axırıncı zinət əşyalarını gətirib verirdilər ki, bu, ümumi işimizə sərf olunsun, onu da taladılar. Ona görə xalqın yaddaşında bu qalıb. Eyni zamanda, vətəndaş müharibəsi - bu, ən ağır müharibədir, çünki qardaş qanı tökülür. Orada ermənilər torpağımızı işğal edirdilər, bunlar isə Gəncəni bombalayırdılar, öz xalqına qarşı cinayətlər törədirdilər, sonra da fərari kimi qaçıb gizləndilər. Həmin bu adamlardır ki, bu gün müxalifətçiliyi də inhisara götürüblər. Əslində, bunların nə mənəvi haqqı çatır, nə təcrübəsi, nə biliyi. Sadəcə olaraq, onların bu inhisarı saxlamaq üçün bir amili var, o da xarici dəstək. Çünki bunlar xaricdən idarə olunur. Bu, hesab edirəm ki, ikinci səbəbdir - nə üçün bunların cəmiyyətdə heç bir hörməti yoxdur?

Heç kəs üçün sirr deyil ki, bunlar xaricdən maliyyələşir. İyirmi il ərzində heç bir yerdə işləməyənin haradandır bu qədər varidatı, haradandır bu qədər imkanları ki, yaxın qohumları getsinlər ən inkişaf etmiş ölkələrdə çox gözəl həyat sürsünlər? Ona bir hesabat verirlər, yoxsa yox? Əlbəttə ki, yox. Amma biz bilirik, biz çox şeyi bilirik. Bəlkə də hamısını hələ ki, deməyə ehtiyac yoxdur. Ona görə bir tərəfdən onların törətdikləri cinayətlər və ölkəmizin demək olar ki, uçurum kənarına gətirilməsi, ondan sonra da qorxaqcasına, fərari kimi qaçıb gizlənməsi, ikinci tərəfdən, “beşinci kolon” kimi burada ölkəmizin maraqlarına qarşı onların fəaliyyəti. Bu iki amil hesab edirəm ki, onları bütün daxili dayaqlardan məhrum edib. Bir də ki, onların həm siyasi, həm həyatdakı davranışını, yəni, o biabırçı kadrları Azərbaycan tamaşaçıları görübdür. İsterikaya, panikaya qapılmış adam necə özünü lider hesab edə bilər? Yaşlı qadının qolundan yapışan, qorxusundan, məni bağışlayın, gizlənmək üçün deşik axtaran adam necə liderlik funksiyasını öz üzərinə götürə bilər? Sonra da gəlsin bütün ictimaiyyət qarşısında desin ki, vanna otağında mənə qarşı zor tətbiq etdilər. Birincisi, bu, yalandır. İkincisi, hansı özünə hörmət edən adam belə bir ifadə işlədər, bütün xalq qarşısında? Ona görə bunların qətiyyən mənəvi haqqı yoxdur ki, hansısa irad irəli sürsün. Yeganə dayaqları xarici dairələrdir. O dairələr ki, onlar da istəyirlər öz əlaltılarını hakimiyyətə gətirsinlər. Necə ki, vaxtilə 1992-ci ildə prezidentin kabinetinin qapısını bəzi səfirlər ayaqla açırdılar, o dövrü yenə də yaşamaq istəyirlər, ancaq alınmayacaq. Çünki heç vaxt Azərbaycan xalqı və Azərbaycan dövləti imkan verməyəcək ki, satqın, xain ünsürlər yenə də baş qaldırsın, yenə də hansısa mövqe əldə etsinlər. Azərbaycan xalqı buna imkan verməyəcək. Ona görə bunların dırnaqarası aksiyalarına heç kim gəlmir, heç kim qoşulmur. Bunların dırnaqarası siyasi mübarizəsi virtual həyatdadır. Orada da artıq bütün dayaqlarını itiriblər. Bir-birinə saxta layk atmaqla bunlar hakimiyyətə gəlmək istəyirlər və onların biabırçı hərəkətləri, antimilli, xəyanətkar addımları cəmiyyətdə ikrah hissi doğurur. Əgər müxalifət nəyisə əldə etmək istəyirsə, ilk növbədə, o partiyalar naftalin qoxusu gələn ünsürlərdən təmizlənməlidir, sağlam, müasir müxalifət formalaşmalıdır. O müxalifət ki, bizi tənqid edəcək, amma əsaslı tənqid edəcək. O müxalifət ki, ümumxalq məsələləri hər şeydən üstün tutur. Mən ümid edirəm ki, nə vaxtsa, biz bunu görəcəyik.

***- Cənab Prezident, məlumdur ki, ölkəmiz növbədənkənar parlament seçkilərinə hazırlaşır. Bilmək istərdik ki, bu mühüm ictimai-siyasi tədbirin həyata keçirilməsi qərarı nə ilə bağlıdır və gözləntilər nədən ibarətdir?***

- Bilirsiniz, parlament seçkiləri çox önəmli hadisədir və önəmli prosesdir. Mən artıq qeyd etdiyim kimi, ölkəmiz yeni islahatlar dövrünə qədəm qoydu, Prezident Administrasiyası, Nazirlər Kabineti, bəzi mərkəzi icra orqanları, yerli icra orqanları artıq struktur islahatlarını başa çatdırıblar, yaxud da ki, bu islahatlar davam etdirilir. Belə olan halda, parlament də kənarda qala bilməz və növbədənkənar parlament seçkilərinin əsas məqsədi ondadır ki, vaxt itirmədən yeni çağırışlara uyğun qanunvericilik bazası formalaşsın və qanunvericilik sahəsində atılan addımlar ümumi islahatlar kursunu dəstəkləsin. Digər tərəfdən, onu da bildirməliyəm ki, bizdə parlament dörd ay tətildə olur, iyun, iyul, avqust, sentyabr aylarında işləmir. Belə olan halda biz, sadəcə olaraq, seçkiləri 4-5 ay qabağa çəkdik. Bunun da məqsədi odur ki, vaxt itirmək lazım deyil. Hesab edirəm ki, növbədənkənar parlament seçkiləri cəmiyyət tərəfindən, o cümlədən siyasi partiyalar tərəfindən müsbət qiymətləndirilir. Hazırda bütün şərait yaradılıb. Əminəm ki, Azərbaycanda parlament seçkiləri şəffaf keçiriləcək. Azərbaycan xalqı öz iradəsini göstərəcək və nəticələr Azərbaycan xalqının iradəsini əks etdirəcək. Azərbaycan xalqı layiqli nümayəndələri seçəcək. O nümayəndələr ki, öz qanunvericilik fəaliyyətlərində ümumi işimizə töhfə verəcək. O nümayəndələr ki, onlar öz dairələrində fəal iş aparsınlar.

Mən parlament üzvlərinin fəaliyyətinə qiymət vermək istəmirəm, çünki bu, hakimiyyətin başqa qoludur. Ancaq yeni seçiləcək deputatlara tövsiyəm odur ki, onlar öz dairələrində daha fəal olsunlar ki, vətəndaşlar onları tanısınlar, onlara müraciət etsinlər. Onlar yerli və mərkəzi orqanlar qarşısında məsələ qaldırsınlar. Əgər belə olarsa, bax, dediyim o ictimai nəzarətin bir forması da bu olacaq. Çünki bəzi hallarda, mən bilirəm, deputat seçilir, ondan sonra öz dairəsinə heç baş çəkmir, heç maraqlanmır. Sonra da növbəti seçkilər yaxınlaşanda başlayır ki, mənə dəstək verin. Yəni, ona xalq dəstək verməlidir. Əlbəttə, Yeni Azərbaycan Partiyası aparıcı siyasi qüvvə kimi öz namizədlərini müdafiə edəcək. Bu da təbiidir. Bizdə sistem majoritar sistemdir, hesab edirəm ki, çox ədalətli sistemdir. Bu sistem seçilmiş millət vəkilini öz dairəsinə bağlayır. Mən bunu öz təcrübəmdən deyirəm. Çünki mən birinci dəfə 1995-ci ildə majoritar sistem əsasında parlamentin üzvü seçilmişdim. O vaxt mənim dairəm var idi və dairədə çox fəal idim. 2000-ci ildə isə mən artıq Yeni Azərbaycan Partiyasının bir nömrəli namizədi kimi qeydə alındım və seçiləndən sonra elə bil ki, mənim dairəm yox idi və bu, imkan vermirdi ki, mən hansısa bir dairəyə xüsusi diqqət göstərim. Ona görə öz təcrübəmdən deyirəm ki, majoritar sistem seçicilər üçün ən uyğun sistemdir. O halda ki, seçilən deputat fəal olsun və vətəndaşlarla sıx təmasda olsun. Azərbaycan xalqı hər şeyi yaxşı bilir, atalar sözüdür, xalqın gözü tərəzidir. Azərbaycan xalqı layiqli nümayəndələri seçərək, eyni zamanda, təmin edəcək ki, bu nümayəndələr onların problemlərini dilə gətirəcəklər, təklif verəcəklər. Belə olan halda əlbəttə ki, məsələlər və problemlər daha məqbul formada öz həllini tapa bilər.

***- Cənab Prezident, müsahibəyə görə minnətdaram. Bugünkü müsahibə və Sizinlə görüş bizim həyatımızda ən önəmli hadisələrdən birinə çevrildi. Buna görə bir daha Sizə təşəkkür edirik. İcazə versəydiniz, hər birimizin adından Sizi qarşıdan gələn doğum gününüz münasibətilə təbrik edək. Sizə müstəqil Azərbaycanımızın inkişafı yolunda atdığınız hər bir addımda yeni-yeni uğurlar və cansağlığı arzulayırıq.***

- Çox sağ olun. Mən də sizə öz səmimi sözlərimi demək istəyirəm. Sizə uğurlar arzulayıram. Mən sizin fəaliyyətinizi izləyirəm, televiziyalarda görürəm. Siz ümumi işimizə çox böyük töhfə verirsiniz. Müasir, gənc insanlar kimi, hesab edirəm ki, bugünkü Azərbaycan mediasını təcəssüm etdirirsiniz və təcəssüm etdirməlisiniz. Fürsətdən istifadə edərək sizə və bütün Azərbaycan xalqına yeni uğurlar arzulayıram. Qarşıdan Dünya Azərbaycanlılarının Həmrəylik Günü gəlir. Bu münasibətlə və Yeni il münasibətilə bütün Azərbaycan xalqını təbrik edirəm. Əminəm ki, ölkəmiz bundan sonra da müstəqillik və inkişaf yolu ilə gedəcək və bizi bu yoldan heç bir qüvvə döndərə bilməz. Sağ olun.

Jurnalistlər: Təşəkkür edirik.

# Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və ƏSA Teatrının yeni birgə layihəsi - “And” tamaşasının premyerası olub

***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin dəstəyi ilə və ƏSA Teatrı tərəfindən J.B.Molyerin “Xəsis” əsərinin motivləri əsasında hazırlanmış “And” tamaşasının premyerası olub. Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında təqdim edilən tamaşanın premyerasında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib.***



Premyeradan əvvəl Leyla Əliyeva teatrın foyesində təqdim olunan yeni kitabla - Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və “Regional Hüquqi və İqtisadi Maarifləndirmə” İctimai Birliyinin əməkdaşlığı çərçivəsində hazırlanmış və görmə imkanları məhdud şəxslərin şeirlərindən ibarət “Zülməti dələn işıq” kitabı ilə tanış olub. O, kitabda şeirləri dərc olunan görmə imkanları məhdud şəxslərlə görüşüb. Leyla Əliyevaya görmə imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyasına dəstək məqsədi daşıyan “Danışan kitab” və “Danışan rəng” layihələri nümayiş olunub, ona görmə imkanları məhdud şəxslərin ifasında mahnılardan ibarət disk təqdim edilib. Eyni zamanda, Leyla Əliyevanın görmə imkanları məhdud insanlara həsr etdiyi şeir əsasında və nazirliyin dəstəyi ilə bəstəkar Nuranə Cabbarlının bəstələdiyi “Qəlbimin gözü ilə” mahnısı görmə imkanları məhdud istedadlı xanəndə Nərmin Əliyevanın ifasında təqdim olunub. Leyla Əliyeva görmə imkanları məhdud şəxslərə yeni yaradıcılıq uğurları arzulayıb, onlarla xatirə şəkli çəkdirib.









Kitabın təqdimatı tədbirində Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev əlilliyi olan şəxslərin reabilitasiya və cəmiyyətə inteqrasiya imkanlarının artırılmasının Prezident İlham Əliyevin uğurlu sosial siyasətinin mühüm tərkib hissəsi olduğunu vurğulayıb. O bildirib ki, bu sahədə həyata keçirilən siyasətin icrasında, əlilliyi olan şəxslərin, sağlamlıq imkanları məhdud gənclərin və uşaqların qayğı ilə əhatə olunmasında, onların reabilitasiya imkanlarının genişləndirilməsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın nəcib layihə və təşəbbüsləri mühüm rola malikdir. Əlilliyi olan şəxslərin bacarıqlarının cəmiyyətə tanıdılmasına dəyərli töhfələr verən Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva bu kateqoriyadan olan insanlara, onların sosial reabilitasiyasına və cəmiyyətə inteqrasiyasına daim xüsusi qayğı ilə yanaşır. Leyla Əliyeva tez-tez sosial müəssisələrdə olur, bu müəssisələrin sakinləri, əlilliyi olan insanlarla görüşür və həmin insanlara diqqət və qayğının artırılması, eləcə də onların yaradıcılıq potensiallarının ictimaiyyətə tanıdılması işlərinə daim dəstək göstərir.

Nazir diqqətə çatdırıb ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Azərbaycanda ilk inklüziv teatr olan ƏSA Teatrı ilə əməkdaşlığı çərçivəsində hələ ötən ilin dekabrında “Göy quş” tamaşasının, “Nəsimi ili”nə bir töhfə olaraq bu ilin oktyabr ayında isə “Nəsimi” antreprizasının uğurlu təqdimatları olub. Eyni zamanda, nazirliyin layihəsi kimi, ötən ilin dekabrında sosial müəssisələrin istedadlı sakinləri, onların yaradıcılıq nümunələri barədə məlumatları əhatə edən ilk nəşr kimi Azərbaycan və ingilis dillərində 278 səhifəlik “Əlillik qüsur deyil” kitab-albomu təqdim edilib. Görmə imkanları məhdud şəxslərin şeirlərindən ibarət “Zülməti dələn işıq” kitabının nəşri də bu istiqamətdə növbəti layihədir. “Zülməti dələn işıq” kitabında görmə imkanları məhdud 18 şairin 100-ə yaxın şeiri dərc olunub. Kitabın hazırlanması və nəşri görmə imkanları məhdud insanların yaradıcılığının dəstəklənməsi və cəmiyyətə tanıdılması, onların gələcək uğurlara stimullaşdırılması məqsədi daşıyır. Nazirlik növbəti layihə kimi görmə imkanları məhdud şəxslərin hekayələrindən ibarət kitabın da nəşrinə dəstək verəcək.

Milli Məclisin deputatı Qənirə Paşayeva görmə imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyasına, gələcək uğurlarına töhfə vermək, yaradıcı potensiallarını dəstəkləmək və cəmiyyətə təqdim etmək məqsədi daşıyan layihələrin əhəmiyyətini qeyd edib.

“And” tamaşası iştirakçılar tərəfindən maraqla qarşılanıb. Quruluşçu rejissoru Nihad Qulamzadə, musiqi tərtibatçısı Nicat Qulam, səhnə və geyim tərtibatçısı Viktoriya Lerman olan “And” tamaşasında iştirak edən 14 aktyordan 9 nəfəri əlilliyi olan şəxslərdir. Tamaşada “Xəsis” əsərinə tamamilə yeni rakursdan baxılır. “Xəsis” komediyasındakı baş qəhrəman - Qarpaqonun ikrah hissi yaradan şəxsi keyfiyyətləri və xəsisliyi deyil, daha çox insanların bir-biri ilə olan münasibətlərində bir çox hallarda öz mənfəətini, şəxsi ambisiyalarını üstün tutması halları ön plana çəkilir və tənqid olunur. Modern əsaslarla quruluşu verilən, bir saat davam edən “And” dramatik komediya əvvəldən axıra qədər tamaşaçını intizarda saxlayır, onu düşünməyə vadar edir.

# YAP: "Bələdiyyələrə növbəti azad, demokratik və şəffaf seçkilər keçirilib"



**Azərbaycan Respublikasında 23 dekabr 2019-cu ildə yerli və xarici müşahidəçilərin iştirakı və seçicilərin fəallığı şəraitində yerli özünüidarəetmə orqanlarına - bələdiyyələrə növbəti azad, demokratik və şəffaf seçkilər keçirilmişdir.**

Yeni Azərbaycan Partiyası Bələdiyyə seçkilərinə "Xalq üçün" şüarı ilə qatılaraq seçki kampaniyasının bütün mərhələlərində uğurla iştirak etmişdir. Hər bir rayon və şəhər təşkilatının nəzdində seçki qərargahları yaradılmış, seçki qanunvericiliyinin tələblərinə uyğun olaraq, Mərkəzi Seçki Komissiyasında qeydə alınmış Yeni Azərbaycan Partiyasının bu qurumda və hər bir seçki dairəsində səlahiyyətli nümayəndəsi, habelə respublika üzrə Mərkəzi Seçki Komissiyası, seçki dairələri və seçki məntəqələri üzrə beş mindən yuxarı müşahidəçiləri təyin edilmişdir.

Yeni Azərbaycan Partiyası tərəfindən qəbul edilmiş qərara əsasən Azərbaycanda mövcud 1606 bələdiyyənin hər birini əhatə etməklə, ümumilikdə 14 min nəfərdən yuxarı bələdiyyə üzvlüyünə namizəd irəli sürülmüşdür. Yeni Azərbaycan Partiyasının müəyyən etdiyi namizədlər arasında gənclər və qadınlar əhəmiyyətli yer tutur.

Yeni Azərbaycan Partiyası bələdiyyə seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində "Xalq üçün" şüarı ilə ölkənin bütün regionlarında, hər bir bələdiyyə ərazisində seçicilərlə çoxsaylı görüşlər keçirmişdir. Bu görüşlər bir daha təsdiq etmişdir ki, Azərbaycan vətəndaşları Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülən namizədləri dəstəkləyir.

Bələdiyyə seçkilərindən əvvəl və onun gedişində radikal müxalifət öz ənənəsinə sadiq qalaraq bu seçkiləri gözdən salmaq, yerli idarəetmənin strukturundakı rolunu şübhə altına almaq istiqamətində uğursuz təbliğat aparmağa cəhdlər göstərdi. Lakin əhalinin seçkilərə göstərdiyi maraq və böyük ictimai fəallıq onların bir daha cəmiyyətlə ayaqlaşa bilmədiklərini və xalqın arasında nüfuzunu tam olaraq itirdiyini bir daha sübut etdi.

Bu gün keçirilən səsvermə nəticəsində bələdiyyələrin yeni tərkibi formalaşacaq, minlərlə vətəndaş ölkənin yerli özünüidarəetmə orqanlarında təmsil olunaraq, regionların idarə olunmasında, sosial və iqtisadi problemlərin həllində, bütövlükdə dayanıqlı inkişafın təmin edilməsi prosesində yaxından iştirak etmək imkanları qazanacaq.

Partiyamızın çoxsaylı müşahidəçilərinin verdikləri ilkin məlumatlara əsasən YAP-ın bu seçkilərdə də seçicilərin tam dəstəyini əldə etdiyini ifadə edə bilərik. Bu inam Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu islahatlardan, ardıcıl həyata keçirilən mütərəqqi sosial layihələrdən, ölkəmizin regionda və dünyada artan nüfuzundan irəli gəlir. Hesab edirik ki, dekabr ayının 23-də baş tutmuş növbəti bələdiyyə seçkiləri ölkəmizdə seçki demokratiyasının daha da inkişafına öz töhfəsini verəcəkdir.

# Mərakeşin internet mediasında ümummilli lider Heydər Əliyevə həsr olunan məqalə dərc edilib



Mərakeş internet mediasında "Ərəb Məğribinin Sədaları" internet jurnalının baş redaktoru Rəşid Moulidin müəllifliyi ilə ümummilli lider Heydər Əliyevə həsr olunmuş məqalələr dərc olunub. Eyni zamanda, "Ərəb Məğribi Sədaları" internet jurnalında səfir Oktay Qurbanovun ümummilli lider Heydər Əliyev və Azərbaycan-Mərakeş münasibətləri haqqında müsahibəsi dərc edilib. AZƏRTAC xəbər verir ki, yazıda müəllif ümummilli lider Heydər Əliyevin vəfatının 16-cı ildönümü ilə bağlı dekabrın 12-də Azərbaycanın Mərakeşdəki səfirliyində yerli ictimai, elm və mədəniyyət xadimlərinin, jurnalistlərin, Mərakeş-Azərbaycan Dostluq Cəmiyyətinin üzvlərinin iştirakı ilə keçirilmiş anım mərasimindən bəhs edib.

Yazıda qeyd olunur ki, səfir Oktay Qurbanov öz çıxışında müasir Azərbaycanın qurucusu Heydər Əliyevin xalqımız qarşısındakı əvəzsiz xidmətlərindən bəhs edib, Ulu Öndərin müstəqilliyimizin qorunub saxlanılmasında, ölkənin gələcək iqtisadi inkişaf strategiyasının müəyyən edilməsində, Azərbaycanın İslam aləmi ilə münasibətlərinin qurulmasında tarixi rolundan danışıb.

Məqalədə 1994-cü ilin dekabrında Mərakeşin Kasablanka şəhərində keçirilən VII İslam Zirvə Toplantısı zamanı Ümummilli lider Heydər Əliyev və Kral II Həsən ilə keçirilmiş tarixi görüşü zamanı Azərbaycan-Mərakeş dostluq münasibətlərinin təməlinin qoyulduğu vurğulanır. Müəllif Rəşid Moulid, həmçinin yazıda Ulu Öndərin keçdiyi zəngin həyat yolu və çoxşaxəli fəaliyyəti barədə oxuculara məlumat verib.

# Türkiyə XİN rəhbəri: Türkiyə, Azərbaycan və Gürcüstan regionda sabitliyə mühüm töhfə verib



Türkiyə, Azərbaycan və Gürcüstan regionda sabitliyə mühüm töhfə verib. Bunu Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu deyib. /Trend/ O bildirib ki, bu ölkələr Bakı-Tbilisi-Qars dəmir yolu sayəsində Pekinlə Londonu birləşdirib: "Gələcəkdə biz bu cür vacib layihələrin icrasını davam etdirəcəyik. Bakı-Tbilisi-Qars dəmir yolu vasitəsilə biz həm ticarət, həm də nəqliyyat sahəsinə töhfə veririk". Qeyd edək ki, Tbilisidə Azərbaycan, Türkiyə və Gürcüstan XİN rəhbərlərinin səkkizinci üçtərəfli görüşü keçirilir.

# Əli Əhmədov: "Qarşıda bələdiyyələrə seçilənlərin xalqa ləyaqətlə xidmət etməsi kimi böyük məsuliyyət və vəzifə dayanır"




"Bələdiyyə seçkiləri başa çatdı. İnanıram ki, Yeni Azərbaycan Partiyasının namizədləri seçicilərin səslərinin çoxunu qazanaraq yenə də seçkilərin qalibi ola biləcək. Bu inam hər şeydən əvvəl ölkədə uğurla həyata keçirilən Prezident İlham Əliyevin siyasətinə və onun hamı tərəfindən yüksək qiymətləndirilən nəticələrinə əsaslanır. Azərbaycanın böyüyən iqtisadiyyatı, insanların artan rifahı, şəhərlərin və kəndlərin dəyişən və müasirləşən siması, insanlara rahatlıq gətirən infrastruktur layihələri, ordumuzun güclənməsi və sair möhtəşəm nailiyyətlərimiz seçkilərdə qələbəmizin obyektiv əsaslarıdır". Bu fikirləri Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov özünün "Facebook" səhifəsində paylaşıb.

Əli Əhmədov bildirib ki, Yeni Azərbaycan Partiyasının çoxminli fəallarının, xüsusilə də gənc könüllülərin seçki təşviqatında fəal iştirakını, qələbəmiz naminə göstərdikləri fədakarlığı ayrıca qeyd etmək istəyirəm.

"Qarşıda isə bələdiyyələrə seçilənlərin xalqa ləyaqətlə xidmət etməsi kimi böyük məsuliyyət və vəzifə dayanır. Şübhə etmirəm ki, Yeni Azərbaycan Partiyasını bələdiyyələrdə təmsil edən üzvləri öz məsuliyyətini lazımınca dərk edəcək, insanlara layiqincə xidmət göstərəcək, xalqın onlara göstərdiyi etimada layiq olmağa çalışacaqlar. Bələdiyyələrə üzv seçilənləri təbrik edir, seçki kampaniyasında yaxından iştirak edən və əsl fədakarlıq göstərən partiya təmsilçilərinə təşəkkürümü bildirirəm"-deyə, YAP Sədrinin müavini vurğulayıb.

# Bolqarıstanlı müşahidəçi: Seçkilərin səviyyəsi məni tamamilə qane etdi



Bolqarıstan Seçki Komissiyasının üzvü kimi Azərbaycanda keçirilən bələdiyyə seçkilərini müşahidə etdim. Buraya gəlməkdə məqsədimiz seçkilərin gedişi ilə yaxından tanış olmaq və bu prosesi izləməkdir. Gün ərzində 4 seçki məntəqəsində olmuşuq. İnsanlar öz namizədlərini seçmək üçün məntəqələrə gəlib, öz səslərini verirdilər. Müşahidəçi qismində iştirak etdiyim məntəqələrdə hər şey öz qaydasında idi və seçkilərin səviyyəsi məni tamamilə qane etdi.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Bolqarıstandan olan müşahidəçi Nikolay Nikolov deyib. "Seçkilər çox sakit və sərbəst şəkildə keçdi və heç bir xüsusi hal qeydə alınmadı. Azərbaycan xalqına, dövlətinə fevral ayında keçiriləcək parlament seçkilərində də uğurlar arzulayırıq", - deyə Nikolay Nikolov bildirib.

# İlk dəfə səs verən şəkili gənc: "Xoşbəxtəm ki, ad günüm belə əlamətdar günə təsadüf edir"



Həyatında ilk dəfə seçkilərdə iştirak edən Şəki rayonunun Birinci Biləcik kənd sakini Qumru Əhmədova bələdiyyə seçkiləri günündə ikiqat sevinc hissi yaşayıb. AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, dekabrın 23-də 18 yaşı tamam olan Qumru Əhmədova səs vermək üçün 114 saylı Şəki kənd birinci seçki dairəsinin Birinci Biləcik kəndində yerləşən 14 saylı seçki məntəqəsinə gələrkən xoş sürprizlə qarşılaşıb. Məntəqə seçki komissiyasının sədri Çeşminaz Mustafayeva gənc seçicini doğum günü münasibətilə təbrik edərək, ona gül dəstəsi təqdim edib.

Doğum gününün bələdiyyə seçkiləri gününə təsadüf etməsindən qürur hissi keçirdiyini bildirən Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialının birinci kurs tələbəsi Qumru Əhmədova sevinc hissini AZƏRTAC-ın bölgə müxbiri ilə bölüşüb: "Xoşbəxtəm ki, ad günüm belə əlamətdar günə təsadüf edir. İlk dəfədir səs verirəm və bununla fəxr edirəm. Bu tarixi gün yaddaşımda xoş bir xatirə kimi əbədi qalacaq". Qumrunun səs verdiyi məntəqədə daha 9 gənc ilk dəfə səsvermədə iştirak edir. Ümumiyyətlə, 114 saylı Şəki kənd birinci seçki dairəsi üzrə ilk dəfə səs verən gənclərin sayı 769 nəfərdir.

# Səfir: "Misir Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir"



Misir Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. Misir və Azərbaycan arasındakı münasibətlər çox yaxşı səviyyədədir. Bu sözləri AZƏRTAC-a müsahibəsində Misirin Azərbaycandakı səfiri Adel İbrahim Ahmed İbrahim bildirib.

Səfir müsahibədə xarici mətbuatda qondarma Dağlıq-Qarabağ "rəsmisi"nin Şarm-Əl-Şeyxin qubernatoru ilə görüşməsi məsələsinə toxunub. Bu görüşün rəsmi görüş kimi qəbul olunmadığını bildirən səfir qeyd edib ki, qarşı tərəf özünü Dağlıq Qarabağın deyil, Ermənistanın nümayəndəsi kimi təqdim edib. Səfər turistik xarakter daşıyıb, heç bir rəsmi səfərdən söhbət getmir. Səfir vurğulayıb ki, Misir dövləti üçün Dağlıq Qarabağ işğal edilmiş bir ərazidir. "Biz bu münaqişənin sülh yolu ilə həllini dəstəkləyirik", - deyə o əlavə edib.

# Müasir Azərbaycan dövləti daha da qüdrətlənir, zənginləşir, hərtərəfli inkişafa nail olur

## Son 16 il Azərbaycan tarixinə möhtəşəm uğurlar yazıb

*"Mən məsuliyyətə də, çətinliklərə də hazıram"*

2003-cü ildə xalqın 76,84 faiz səsini qazanaraq Prezident seçilən cənab İlham Əliyevin andiçmə mərasimində səsləndirdiyi "Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm", həmçinin Prezident kimi jurnalistlərə ilk müsahibəsində "Sizcə, Sizi asan işlər gözləyir, yoxsa çətin" sualına cavabında "Həm asan, həm də çətin. Asan o mənada ki, artıq Azərbaycanda ölkəmizi hərtərəfli inkişaf etdirmək üçün gözəl zəmin yaranıbdır. On il ərzində Heydər Əliyevin siyasəti Azərbaycanda çox güclü bir təməl qoyubdur. Bu təməlin üzərində gözəl binanın inşa edilməsi asan görünə bilər. Amma eyni zamanda, həyat yerində durmur. Yeni tələblər çıxır, qarşımıza yeni vəzifələr çıxır. Əlbəttə, yeqin çətinliklər də olacaqdır. Amma mən bu çətinliklərə hazıram. Əgər mən özümdə belə bir hazırlıq görməsəydim, heç vaxt bu yola getməzdim. Mən məsuliyyətə də, çətinliklərə də hazıram. Əminəm ki, Azərbaycan xalqının dəstəyi ilə qarşıda duran bütün vəzifələri ləyaqətlə yetirəcəyəm. Demişəm, Azərbaycan xalqı görəcək ki, mən Azərbaycan üçün, xalqımız üçün yaxşı Prezident olacağam" fikirləri öncədən qarşıdakı illərin prioritetlərinin, əldə olunacaq uğurların aydın mənzərəsini yaratmışdır. Məqsəd, uğurlu başlanğıc gələcəyə inamın formalaşmasında əsas amillərdəndir. Dahi şəxsiyyət Heydər Əliyevin düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində möhkəm təmələ malik olan Azərbaycan son 16 ildə dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə daha möhtəşəm uğurlara imza atdı, islahatların dövrün və zamanın tələblərinə uyğunlaşdırılması əsasında ölkə Prezidentinin də qeyd etdiyi kimi, hər sahədə böyük inkişaf üçün meydan yarandı.

## Hər şey iqtisadiyyat üzərində qurulub

Dövlətimizin başçısı İlham Əliyev qeyd etdiyimiz müsahibəsində "Hesab etmək olarmı ki, iqtisadiyyatın inkişafı üçün yeni mərhələ başlayır" sualını cavablandırarkən qeyd etmişdir ki, hər şey iqtisadiyyat üzərində qurulur. Azərbaycanın iqtisadiyyatı möhkəm olarsa, bütün məsələləri həll etmək imkanımız olacaq. Hesab edirəm ki, iqtisadiyyatımızın növbəti mərhələsi məhz özəl sektorun daha fəal iştirakından asılı olmalıdır və bu istiqamətdə bizim üzərimizə düşən vəzifələri yerinə yetirməyə hazırıq. Bazar iqtisadiyyatı davam etdiriləcəkdir. Sahibkarlar sinfi yaranacaq və beləliklə, özəl sektorun fəaliyyəti nəticəsində Azərbaycanın büdcəsi də artacaq, iş yerləri də açılacaq.

Cənab İlham Əliyev iqtisadi artımın qeyri-neft sektorunun hesabına olmasını qarşıya mühüm vəzifə kimi qoyaraq bölgələrin potensial imkanlarından səmərəli istifadənin gərəkliyini bildirdi. Son 16 ildə regionların sosial-iqtisadi inkişafına dair dörd Dövlət Proqramının uğurlu icrası iqtisadiyyatın şaxələndirilməsinə öz töhfəsini verir. Cari ilin yanvarında dördüncü Dövlət proqramı təsdiqlənmişdir. Üç Dövlət Proqramının icra olunduğu 2004-2018-ci illərdə ümumi daxili məhsul 3,3 dəfə, o cümlədən qeyri-neft sektoru üzrə 2,8 dəfə, sənaye üzrə 2,6 dəfə, kənd təsərrüfatı üzrə 1,7 dəfə artıb. Bu müddətdə həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində ölkədə 1,5 milyonu daimi olmaqla 2 milyondan çox yeni iş yeri, 100 mindən çox müəssisə yaradılıb, işsizlik 5, yoxsulluq səviyyəsi isə 5,1 faizə enib. Dördüncü Dövlət Proqramının icra olunduğu ötən dövrdə isə 92 mindən artıq yeni iş yeri yaradılıb. Son 16 ildə ölkə iqtisadiyyatına 270 milyard dollar investisiya yatırılıb. Valyuta ehtiyatları 50 milyard dollara yüksəlib. Bu rəqəmlər onu göstərir ki, Azərbaycanın bu gününə və gələcəyinə inam daha da artır.



**Siyavuş Novruzov, YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlarla iş komitəsinin sədri**

Cənab İlham Əliyevin Prezident kimi fəaliyyətə başladığı ilk gündən həyata keçirdiyi siyasət, təkmil islahatlar 10-30 il sonrakı Azərbaycanın soisal-iqtisadi, ictimai-siyasi mənzərəsini formalaşdırır. Onun gələcəyə hesablanmış inkişaf strategiyası çoxşaxəli olduğu qədər də konkret və məqsədyönlüdür.

Dövlətimizin başçısı İlham Əliyev iqtisadi artımın enerji sektorundan asılılığının azaldılmasını bir tələb kimi qarşıya qoymaqla yanaşı, eyni zamanda, iqtisadiyyatın inkişafında neft-qaz amilinin rolunu önə çəkir. Məhz bu yanaşmanın nəticəsidir ki, 2017-ci ildə "Yeni əsrin müqaviləsi" imzalandı. Enerji müqaviləsinin 2050-ci ilədək uzadılması əsasında Azərbaycandan keçən qlobal tranzit marşrutlarını bir neçə onillik sonrakı geoiqtisadi və geosiyasi reallıqlara uyğunlaşdırmaqla növbəti layihələrin gündəmə gətirilməsini, ən əsası onların icrası üçün zəruri olan kadr hazırlığının həyata keçirilməsini şərtləndirdi. Bu kimi addımlar belə bir ümumiləşdirməni aparmağa əsas verir ki, dövlətimizin başçısı İlham Əliyevin bu gün qəbul etdiyi qərarlar daha çox sabahımız üçündür. Cənab İlham Əliyev 2014-cü ildə Cənub Qaz Dəhlizinin təməlinin qoyulması mərasimində bildirmişdir ki, bu hadisə bu günə qədər görülən işlərin zirvəsidir.

2018-ci ildə Cənub Qaz Dəhlizinin rəsmi açılışı oldu, həmçinin onun əsas tərkib hissələrindən biri olan TANAP istifadəyə verildi. Layihənin digər seqmenti olan TAP-la bağlı işlərin artıq 90 faizdən çoxu görülüb. Onun da yaxın vaxtlarda istifadəyə veriləcəyi gözlənilir. Bütün bunlar Azərbaycanın beynəlxalq aləmdə mövqeyinin möhkəmlənməsində, ən əsası çoxtərəfli əməkdaşlığa töhfələrinin miqyasının genişlənməsində əhəmiyyətli rol oynayır.

Neft gəlirlərindən səmərəli istifadənin nəticəsi olaraq qeyri-neft sektorunun inkişafı istiqamətində mühüm addımlar atıldı. Dövlətimizin başçısı İlham Əliyevin 2003-cü ildə səsləndirdiyi "neft kapitalını insan kapitalına çevirək" tezisi bu gün artıq reallıqdır. Dünya təcrübəsinə istinad edən ölkə Prezidenti İlham Əliyev bildirir ki, inkişaf etmiş ölkələrə diqqət yetirsək görərik ki, inkişafın əsası bilikdir, savaddır, yeni texnologiyalardır. Ulu öndər Heydər Əliyevin 1999-cu ildə böyük uzaqgörənliklə yaratdığı Dövlət Neft Fondunun vəsaitlərinin yönəldildiyi sahələrdən biri məhz gənclərin xarici ölkələrdə təhsilidir. Gənclər həm o ölkələrdə təhsilin, elmin dərinliklərinə yiyələnir, həm də Azərbaycanın təbliğatçısı qismində çıxış edirlər. Cənab İlham Əliyevin 15 sentyabr 2017-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı, bu sənədə əsasən Azərbaycanın gənc alimlərinin birinci qurultayının təşkili, Elmin İnkişaf Fondunun fəaliyyəti gələcəyimiz olan gənclərin hərtərəfli inkişafına böyük dəstəkdir.

Azərbaycan ötən bu illərdə kosmik klubun üzvünə çevrilib. Bu, təbii ki, ölkəmizdə İKT-nin inkişafına diqqətin bariz nümunəsidir. Son beş ildə orbitə 3 peyk - "Azərspace 1" telekommunikasiya, "Azərsky" müşahidə və "Azərspace 2" peykləri çıxarılıb. Bu mühüm hadisələr dövlətimizin gücünü, həyata keçirilən siyasətin uğurlu gələcəyə hesablandığını təsdiqləyir. Cənab İlham Əliyevin 16 noyabr 2018-ci il tarixli "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın, həmçinin 23 noyabr 2018-ci il tarixli "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya"nın təsdiqlənməsi haqqında sərəncamları, həmçinin "Ali təhsil müəssisələrində təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə, "Doktorantura, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında" sərəncamları, "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" Fərmanı və sair kimi biri-birindən əhəmiyyətli sənədlər uğurlu iqtisadi tərəqqinin kadr hazırlığının beynəlxalq standartlar səviyyəsinə uyğunlaşdırılmasından asılı olduğunu bir daha təsdiqləyir.

## İslahatlar: yenilik, yeni yanaşma, mövcud problemlərin həlli

Azərbaycanın yeni iqtisadi və sosial çağırışların müzakirəsi üçün ideal məkan kimi qəbul olunması təbii ki, təkmil sosial-iqtisadi islahatların nəticəsidir. Son 16 ildə ölkəmizdə yoxsulluq səviyyəsinin 49 faizdən 5 faizə enməsi bunun bariz nümunəsidir. Ölkəmizin ev sahibliyi etdiyi beynəlxalq əhəmiyyətli tədbirlərdə də yoxsulluqla mübarizə sahəsində qazandığı təcrübə xüsusilə təqdir olunur. Bildirilir ki, yoxsul yox, yaxşı idarə olunmayan ölkələr var. Azərbaycanda idarəçilik sistemində zəngin təcrübə, yenilik, təkmilləşmə dünyanın əsas çağırışlarından olan yoxsulluqla mübarizədə yüksək nəticə əldə etməsini şərtləndirib. Cənab İlham Əliyev çıxışlarında bu mühüm məqamı da qeyd edir ki, hər şeyi Azərbaycan vətəndaşı üçün edirik: "Biz xalq üçün çalışırıq, qururuq, yaradırıq, ölkəmizi gücləndiririk. Biz istəyirik ki, Azərbaycan qüdrətli dövlətə çevrilsin. Hamımız istəyirik, hər bir normal vətənpərvər adam bunu istəyir ki, mövqeyimiz daha da möhkəm olsun, gücümüz də artsın. Nəyə görə?! Ona görə ki, insanlar daha da yaxşı yaşasınlar. Budur, əsas məqsəd. Bizim dövlətimiz nə qədər güclü olsa, insanlar da özlərini o qədər rahat hiss edəcəklər, təhlükəsizlik şəraitində yaşayacaqlar."

Təkcə Azərbaycan dövlətinin 2019-cu ildə sosial siyasət sahəsində uğurlarına diqqət yetirsək, insan amilinə nə qədər böyük dəyər verildiyini aydın görərik. Prezident İlham Əliyev əhalinin rifahının yüksəldilməsi məqsədilə iki sosial paketi təsdiq etdi. Minimum əməkhaqqının məbləği 40 faizə yaxın artırılaraq 250 manata, minimum pensiyanın məbləği isə 200 manata çatdırıldı. Cari il iyunun 18-də imzalanan 17 Sərəncam ölkədə sosial rifahın yüksəldilməsinin dövlətimizin başçısı İlham Əliyevin uğurlu sosial-iqtisadi siyasətinin prioritet istiqaməti olduğunu bir daha təsdiq etdi. İki sosial paket ümumilikdə 4 milyondan artıq insanı əhatə edərək onlara sevinc yaşatdı.

Dövlətimizin başçısı İlham Əliyevin problemli kreditlərin həlli, hündürmərtəbəli binalardakı mənzillərin sənədləşdirilməsi ilə bağlı atdığı addımlar da ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılandı. Cənab İlham Əliyev atdığı addımları ilə daim ölkə vətəndaşının yanında olduğunu, onların qayğılarının daim diqqətdə saxlanıldığını təsdiqləyir. Bunu bütün dövlət məmurlarından da tələb edir.

Uğurlarımız Azərbaycanın dünyanın 20 islahatçı ölkəsi arasında yer tutmasını şərtləndirib. Azərbaycanı ən islahatçı ölkə kimi tanıyan Dünya Bankının hesabatlarında Azərbaycanın yoxsullluqla mübarizə, əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində atdığı addımlar yüksək qiymətləndirilərək, əldə olunan uğurlar əsaslı şəkildə qeyd edilir. Sosial mənzillərin inşası, özünüməşğulluğun və şəffaflığın təminatına yönələn "ASAN xidmət", ABAD və DOST mərkəzlərinin yaradılması da insan amilinə dəyərdən irəli gələn addımlardır. Ölkə Prezidentinin də daim bildirdiyi kimi, bu uğurlar son deyil. Gələcəyə böyük nikbinliklə baxmaq lazımdır.

## "Bu, elə bir zirvədir ki, əlbəttə, mən bu zirvədə duraraq, təkcə özümü deyil, bütün Azərbaycan xalqını beynəlxalq aləmdə təmsil edəcəyəm"

Yenə də möhtərəm Prezidentimiz İlham Əliyevin mətbuata ilk müsahibəsində "Cənab Prezident, artıq Siz and içdiniz, indi ölkənin birinci şəxsisiniz və hansı hissləri keçirirsiniz" sualına cavabını xatırlayaq: "Gərək mən ümidləri doğruldam... Qarşımda çoxlu vəzifələr var, çoxlu işlər görmək əzmindəyəm. Bütün bunlar haqqında düşünürdüm... Bu da təbii idi ki, keçmişdə gördüyüm işlər haqqında düşünürdüm. Həyatımın artıq növbəti və elə bil ki, sonuncu mərhələsi başlanır. Çünki bundan yuxarı vəzifə yoxdur. Bu, elə bir zirvədir ki, əlbəttə, mən bu zirvədə duraraq, təkcə özümü deyil, bütün Azərbaycan xalqını beynəlxalq aləmdə təmsil edəcəyəm. Əlbəttə, bu, mənim çiyinlərimə əlavə məsuliyyət yükü qoyur."

Cənab İlham Əliyev bu məsuliyyəti uğurlu addımları ilə gerçəkləşdirdi, Azərbaycana biri-birindən əhəmiyyətli uğurlar qazandırdı. Son 16 ildə Prezident İlham Əliyevin düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində Azərbaycan dünyadakı nüfuzunu daha da artırdı, regionun siyasi, iqtisadi və mədəni mərkəzinə çevrildi, beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsi üçün ideal məkan seçildi.

Bu günlərdə ABŞ-da nəşr olunan "U. S. News & World Report" jurnalının 2019-cu ildə dünyanın ən güclü ölkələri üçün açıqladığı reytinq cədvəlində Azərbaycan 45-ci yerdə qərarlaşıb. Pensilvaniya Universitetinin "BAV Group i Wharton School" Qrupunun analitikləri tərəfindən tərtib edilən reytinq siyahısında ölkələrin iqtisadi vəziyyəti, hərbi gücü, siyasi təsir dairəsi, dünyada liderliyi, habelə beynəlxalq təşkilatlara üzvlük və iştirakı daxil olmaqla bir sıra amillər nəzərə alınıb.

Azərbaycanın son 16 ildə xarici siyasət sahəsində qazandığı uğurları bir yazıda əhatə etmək qeyri-mümkündür. 2011-ci ildə ölkəmizin 155 dövlətin dəstəyini qazanaraq BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi Azərbaycanın beynəlxalq nüfuzunun təqdimatı oldu. Yenə də 2019-cu ilin diplomatik uğurlarına diqqət yetirək. Cari ilin martında dünyanın 55 ölkəsindən 550 nümayəndə Azərbaycanın ev sahibliyi etdiyi VII Qlobal Bakı Forumunda bir araya gələrək "Dünyanın yeni xarici siyasəti" mövzusunu müzakirə etməklə bir daha beynəlxalq aləmdə hansı mövqeyə malik olmağımıza işıq saldı. Dünyanın yeni xarici siyasətinin ölkəmizdə müzakirə olunması beynəlxalq aləmdə möhkəmlənən mövqeyinin təqdimatı oldu. Azərbaycan yerləşdiyi coğrafi məkana görə daim ölkələr, xalqlar arasında körpü rolunu oynayıb. 2016-cı ilin ölkəmizdə "Multikulturalizm İli", 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan edilməsi, 2015-ci ildə ilk Avropa Oyunlarına, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunları-

# Müasir Azərbaycan dövləti daha da qüdrətlənir, zənginləşir, hərtərəfli inkişafa nail olur

lərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşünə ev sahibliyi türk dünyasının mərkəzinə çevrildiyini açıqladı. Cənab İlham Əliyevin Rusiyanın Soçi şəhərində "Valday" Beynəlxalq Diskussiya XVI illik iclasında, MDB Dövlət Başçıları Şurasının Aşqabad sammitində iştirakı, ən yüksək tribunalardan "Qarabağ Azərbaycandır və nida işarəsi" bəyanatı Azərbaycanın müstəqil siyasət yürütdüyünü, dövlət maraqlarının hər şeydən üstün olduğunu bir daha təsdiqlədi.

## Xalqın dövlətimizin başçısı İlham Əliyevə və Onun Sədri olduğu Yeni Azərbaycan Partiyasına inamı sonsuzdur

İqtisadi və siyasi islahatların vəhdətliyi Azərbaycanın hərtərəfli inkişafı üçün əsasdır. İstər insan hüquq və azadlıqlarının qorunması və yeni müdafiə mexanizmlərinin müəyyənləşdirilməsi, istər azad mətbuatın inkişafı, istər seçkilərdə vətəndaşlara sərbəst seçim hüququnun verilməsi, istər çoxpartiyalı sistemin yaradılması, istərsə də seçkilərin beynəlxalq standartlara uyğun keçirilməsi istiqamətində atılan addımlara diqqət yetirsək bir məqsəd, amal özünü təsdiqləyir ki, atılan bu addımlar ölkə Prezidenti İlham Əliyevin vurğuladığı kimi, hansısa dövlətə, təşkilata xoş gəlmək deyil, Azərbaycanın uğurlu gələcəyi üçündür.

Ölkənin ictimai-siyasi həyatında aparıcı rol oynayan, 750 minə yaxın üzvü sıralarında birləşdirən Yeni Azərbaycan Partiyasının qəbul etdiyi qərarlar, irəli sürdüyü təşəbbüslər daim ölkəmizin davamlı inkişafına, əhalinin yüksək rifahının təmin edilməsinə yönəldilib. Partiyanın ölkədə həyata keçirilən islahatların parlamentdə əksini tapması məqsədilə parlamentin buraxılması və növbədənkənar parlament seçkilərinin keçirilməsi təşəbbüsünün xalq tərəfindən böyük rəğbətlə qarşılanması, dəstəklənməsi bir daha həyata keçirilən siyasətə, Yeni Azərbaycan Partiyasına milyonların sevgisinə inamı ortaya qoydu. Bu təşəbbüs əsasında Milli Məclisin qəbul etdiyi qərar, dövlətimizin başçısı İlham Əliyevə müraciətin ünvanlanması, ölkə Prezidenti tərəfindən Konstitusiya Məhkəməsinə sorğu göndərilməsi və müsbət qərarın qəbulu sonda cənab İlham Əliyevin 5 dekabr 2019-cu il tarixli "Beşinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin buraxılması və Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında" Sərəncamının imzalanması ilə nəticələndi. Bu mühüm addım davamlı inkişafa, təkmilləşməyə xidmət etməklə yanaşı, eyni zamanda, demokratik dəyərlərə sadiqliyin sözdə deyil, əməldə təsdiqinin növbəti təzahürüdür. Yeni Azərbaycan Partiyasının parlament seçkilərində qazanacağı növbəti uğurunu şərtləndirən əsas amil təbii ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən mükəmməl siyasi kursun uğurları, ölkəmizin bütün sahələrdə inkişaf dövrünü yaşaması, yüksəlişidir.

## İdarəetmə sistemində yeniliklər davamlı inkişafın təminatıdır

Dövlətimizin başçısı İlham Əliyevin qarşıdan gələn ilin əvvəlki illərdən daha möhtəşəm uğurlarla yadda qalacağı ilə bağlı daim səsləndirdiyi nikbin fikirlərə əsas verən amillərdən biri də idarəetmə sisteminin zamanın və dövrün tələbinə uyğun olaraq təkmilləşməsidir. Məlum olduğu kimi, 2016-cı ilin sentyabrında ümumxalq səsvermesinə çıxarılan Konstitusiyaya əlavə və dəyişikliklərin bir qismi insan hüquq və azadlıqlarının qorunmasına xidmət edirdisə, digər qismi idarəetmə sistemində təkmilləşməyə yönəlmişdir. Vitse-prezidentlik institutunun yaradılması, 2017-ci ilin fevralında dövlətimizin başçısı İlham Əliyevin Sərəncamı ilə Heydər Əliyev Fondunun prezidenti, UNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti təyin edilməsi ölkəmizin davamlı inkişafına xidmət edən mühüm addımlardan oldu. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın fəaliyyətinin əsas istiqamətlərindən biri məhz əhalinin sosial müdafiəsinin gücləndirilməsidir. Uzun illərdir ölkənin ictimai-siyasi, mədəni, humanitar, sosial həyatında mühüm və fəal rol oynayan Mehriban xanım Əliyeva Birinci vitse-prezident təyin olunduqdan sonra qeyd olunan sahələrdə fəaliyyətini davam etdirəcəyini, bundan sonrakı işlərini sosial məsələlərin, əhalinin aztəminatlı hissəsinin problemlərinin həlli üzərində qurmaq niyyətini açıqladı. Ötən qısa dövrdə Mehriban xanım Əliyevanın bu istiqamətdə gördüyü işlərin miqyasının nə qədər geniş olduğu göz qabağındadır. Dövlətçiliyimizin inkişafı, Azərbaycanın daha qüdrətli, zəngin dövlətə çevrilməsi, beynəlxalq münasibətlər sistemində yerinin və rolunun möhkəmlənməsi Mehriban xanım Əliyevanın fəaliyyətinin əsasını təşkil edir.

Azərbaycanda həyata keçirilən təkmil islahatlar hakimiyyətin hər üç - icra, məhkəmə-hüquq və parlament qollarını əhatə edir. Səmərəliliyin, şəffaflığın artırılmasına, bürokratik əngəllərin aradan qaldırılmasına geniş imkanlar yaradılır. Bir sözlə, zaman amili islahatların sürətini, səmərəliliyini təmin etmək, ölkənin inkişafı, xalqın rifahının yüksəldilməsi istiqamətində qarşıya qoyulmuş vəzifələrin vaxtında icrasına nail olmaq üçün başlıca faktorlardan biridir. Bu baxımdan həyata keçirilən hər bir addım yeni çağırışların cavablandırılması fonunda uğurların miqyasının daha da genişləndirilməsinə hədəflənib.

Son 16 ildə Azərbaycanın əldə etdiyi uğurlar inkişafın Azərbaycan modelinin təqdimatında əhəmiyyətli rol oynayır. Möhtərəm Prezidentimiz İlham Əliyevin bu fikirlərini xatırlayaq: "Bu gün dünyada nadir Azərbaycan inkişaf modeli var. Artıq biz bu barədə də danışa bilərik, çünki bu model, doğrudan da, bir nümunə kimi hər bir ölkə üçün maraqlı olmalıdır... Bunu dost görür sevinir, düşmən gəlib görəndə kefi pozulur. Biz bundan sonra da elə işləməliyik ki, xalqımız, dostlarımız sevinsin, düşmənin pis niyyəti gözündə qalsın. Əminəm ki, belə də olacaq, Azərbaycan bundan sonra da uğurla inkişaf edəcəkdir."

Dövlətimizin başçısı İlham Əliyevin təsdiq etdiyi "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında əksini tapan əsas hədəflər Azərbaycanı inkişaf etmiş ölkələr sırasında görmək, yüksək gəlirli ölkəyə çevirmək, bu günə qədər 3 dəfədən çox artan ümumi daxili məhsulun daha iki dəfə artırılmasına nail olmaqdır. Artıq böyük inamla qeyd edə bilərik ki, bu hədəflər reallıqda öz əksini tapıb.

## Hər gün, hər an bizi qələbəyə yaxınlaşdırır

Bu gün Azərbaycana hansı tərəfdən baxsaq böyük inkişafın, tərəqqinin şahidi olarıq. Yeganə problemimiz Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsidir. Problemin həlli üçün möhkəm hüquqi baza mövcuddur. Beynəlxalq təşkilatların qəbul etdikləri qərar və qətnamələrdə Azərbaycanın ədalətli mövqeyi dəstəklənir. Dövlətimizin başçısı İlham Əliyevin "Qarabağ Azərbaycandır və nida işarəsi" bəyanatı işğalçı dövlətə və onun havadarlarına ciddi mesajdır. Onu da qeyd edək ki, Yeni Azərbaycan Partiyasının bu adda ümumxalq hərəkatının yaradılması təşəbbüsü və bu mövzuda dəfələrlə keçirdiyi konfranslar paytaxt və bölgələrimizdə böyük rəğbətlə qarşılandı, hərəkata qoşulanların sayı günbəgün artdı. Bu, münaqişənin həllində əsas amillərdən olan xalqın iradəsinin, gücünün bir daha nümayişidir.

Diplomatik uğurlarımız, eyni zamanda, iqtisadi imkanlarımızın artması fonunda güclənən ordumuz bu problemimizin də öz ədalətli həllini tapacağına əminliyi daha da artırır. Azərbaycanın iqtisadi gücü günbəgün artır. İqtisadiyyatımızın güzgüsü kimi dəyərləndirilən dövlət büdcəmizdə ildən-ilə artım da deyilənlərin təsdiqidir. Dövlətimizin başçısı İlham Əliyev "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında" Qanunu imzalayıb. Qanuna əsasən, Azərbaycanın 2020-ci il dövlət büdcəsinin gəlirləri 24 milyard 134,5 milyon manat, xərcləri 26 milyard 894,7 milyon manat məbləğində təsdiq edilib. Qeyd edək ki, büdcədən daha çox vəsait ayrılan sahə müdafiə və təhsildir. Ölkəmizin müdafiə qüdrətinin artırılması, təhsilin inkişafı daim prioritetliyini qoruyur.

Rəsmi Bakı dünyanın ən nüfuzlu təşkilatlarının tribunasından dəyişməz mövqeyimizi bəyan edir - Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyil və ola da bilməz. Bu gün tam əminliklə deyə bilərik ki, Azərbaycanın çox güclü, qüdrətli, dünya standartlarına cavab verən ordusu var. Sülh danışıqları səmərə verməyəcəyi təqdirdə torpaqlarımızın hərb yolu ilə azad ediləcəyi şəksizdir. Cocuq Mərcanlıya qayıdış Böyük Qayıdışın başlanğıcıdır. Dövlətimizin başçısı İlham Əliyevin qeyd etdiyi kimi, Cocuq Mərcanlı qəsəbəsi bizim dirçəliş rəmzimizə çevrilib. Cocuq Mərcanlıya qayıdan həyat hər bir Azərbaycan vətəndaşını ürəkdən sevindirir, onu qürurlandırır. Üçrəngli bayrağımızın Şuşada, Xankəndidə dalğalanacağı gün uzaqda deyil.

## Xalq-iqtidar birliyi uğurlarımızın təminatçısıdır

Daim inkişafın, tərəqqinin, özünə diqqət və qayğının şahidi olan xalqın dövlətinə, Prezidentinə inamı şəksizdir. Xalqın öz rəhbərinə inamının böyük olduğu ölkədə dövlət başçısına milyonların sevgisi danılmazdır.

Mütəmadi olaraq yerli və xarici sorğu mərkəzlərinin keçirdikləri sorğuların nəticələri, ölkəmizlə bağlı aparılan araşdırmalar bir daha bu reallığa işıq salır ki, ölkəmizdə xalq-iqtidar birliyi sarsılmazdır. Ölkə əhalisinin həyata keçirilən siyasətlə bağlı rəyinin öyrənilməsi inkişafa təsir göstərən əsas amillərdən biridir. Dövlətimizin başçısı İlham Əliyevin Fərmanı əsasında Sosial Tədqiqatlar Mərkəzinin yaradılmasında da məqsəd məhz ictimai əhəmiyyətli məsələlərin araşdırılması, ictimai rəyin öyrənilməsi və bu sahədə təhlil, tədqiqat və proqnozlaşdırma işinin səmərəliliyini artırmaq və sair kimi məsələlərdir. Mövcud vəziyyəti olduğu kimi öyrənib, cəmiyyətə olduğu kimi də təqdim etmək müasir dünyamızın əsas çağırışları sırasında olmalıdır. Bu baxımdan ki, düzgün dəyərləndirmə əsasında uğurlar təqdir olunur, problemlərin həlli ilə bağlı yollar müəyyənləşdirilir, konkret addımlar atılır. Bu günlərdə Sosial Tədqiqatlar Mərkəzinin "İnam indeksi" jurnalının oktyabr buraxılışında dərc olunan "Prezidentin fəaliyyəti ictimai rəydə" hesabatı bu kimi məqamlara bir daha işıq saldı. 1316 respondentin iştirakı ilə keçirilən rəy sorğusunda vətəndaşların 88 faizi dövlətimizin başçısı İlham Əliyevin həyata keçirdiyi islahatları dəstəkləyir, 77, 5 faizi ölkə Prezidentinə inam və etimadın daha da artdığını bildirir.

Əvvəldə də qeyd etdiyimiz kimi, belə sorğular ölkəmizdə mütəmadi olaraq keçirilir. Onlar daha çox ölkəmiz seçki ərəfəsində olduğu zaman təşkil olunur. Belə sorğuların müəllifi kimi tanınan mərkəzlərdən biri də ABŞ-ın "Gellap İnternational" təşkilatıdır. Qurumun mütəmadi olaraq keçirdiyi sorğuda ölkə əhalisi Prezidentimizin həyata keçirdiyi siyasətə dəstəyini, inamını və etimadını ifadə edir. Bu reallıq beynəlxalq səviyyədə də qeyd edilir ki, Azərbaycanda həyata keçirilən siyasətin alternativi yoxdur. Xalq-iqtidar birliyi uzunmüddətli inkişaf strategiyasının müəyyənləşdirilməsinə geniş imkanlar açır. Dövlətimizin başçısı İlham Əliyev daim çıxışlarında xalqa arxalandığını bəyan edərək, irəli sürülən təşəbbüslərin ölkə əhalisi tərəfindən dəstəklənməsinin davamlı uğurlara yol açdığını diqqətə çatdırır: "Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss etmişəm və hiss edirəm. Bu dəstək mənə güc verir. Mən bu dəstəyə arxalanıram və xalqı bir daha əmin etmək istəyirəm ki, bundan sonra da xalqa və Vətənə ləyaqətlə xidmət edəcəyəm."

## "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm"

Yazını müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin 1 oktyabr 2003-cü il tarixli müraciəti ilə tamamlamağımız səbəbsiz deyil. Dövlətimizin başçısı İlham Əliyev son 16 ildə ona göstərilən bu etimadı və inamı əməli fəaliyyəti ilə doğrultdu. "Mən öz mənalı həyatımın düz 60 ilini xalqımın bu günü və sabahı ilə yaşamışam. Bunun son on ili müstəqil Azərbaycan dövlətinə xidmətdə keçib. Bu sahədə görülən işlər Sizə məlumdur, lakin mənim hələ tamamlanmamış çox perspektivli planlarım var" söyləyən Ümummilli Lider bildirmişdir: "Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm."

Son 16 ildə dövlətimizin başçısı İlham Əliyevin hər vədini konkret əməli işdə təsdiqləməsi onun 2008, 2013 və 2018-ci illər prezident seçkilərində qələbəsini təmin etdi. Möhtərəm Prezidentimizin hər ili konkret bir sahənin adı ilə bağlaması hərtərəfli inkişafı stimullaşdırır. Bu addımlar, eyni zamanda, hər bir sahənin inkişafının prioritetliyini açıqlayır. Cənab İlham Əliyevin ötən ili ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli", 2019-cu ili "Nəsimi İli" elan etməsi tariximizə, mədəniyyətimizə, milli-mənəvi dəyərlərimizə, dilimizə bağlılığımızı bir daha ortaya qoyur. Məhz bu yanaşmanın, həmçinin əldə olunan uğurların nəticəsidir ki, Azərbaycan bu il UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasına ev sahibliyi etdi.

Göründüyü kimi, həyata keçirilən siyasət çoxşaxəlidir, dövlətimizin davamlı inkişafına, dünya birliyində yerini və rolunu möhkəmləndirməsinə, ölkəmizə beynəlxalq baxışın yüksəlməsinə xidmət edir. Ötən il keçirilən prezident seçkilərində qələbəsi ilə növbəti 7 il üçün müəyyənləşdirilən hədəflərin gerçəkləşməsinə təminat verən dövlətimizin başçısı İlham Əliyev andiçmə mərasimində bildirmişdir: "Ancaq biz əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik. Biz gələcəyə baxmalıyıq və baxırıq. Növbəti illərdə görüləcək işlər haqqında bizim çox aydın təsəvvürümüz, planlarımız, proqramlarımız var. Biz qeyd etdiyim sahələr üzrə səylərimizi davam etdirəcəyik, Azərbaycanı daha da qüdrətli ölkəyə çevirəcəyik. Hər bir sahə üzrə bizim konkret proqramlarımız, planlarımız var. Həm beynəlxalq məsələlərlə, həm bölgələrimizin möhkəmləndirilməsi, siyasi-iqtisadi islahatların dərinləşməsi, sosial siyasət, ordu quruculuğu ilə bağlı bizim konkret proqramlarımız var. Güclü siyasi iradə, böyük maliyyə resurslarımız var. Biz bu maliyyə resurslarını öz əlimizlə yaratmışıq və biz indi öz hesabımıza yaşayırıq. Xalq-iqtidar birliyi var. Ona görə mən əminəm ki, bütün Azərbaycan xalqı və biz hamımız gələcəyə çox böyük nikbinliklə baxırıq. Hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar."

# Demokratik və azad seçkilər

## *Azərbaycanda seçki kampaniyası mövcud qanunvericilik və beynəlxalq təcrübəyə uyğun keçirilir*

***Azərbaycanda hər zaman azad, şəffaf və demokratik seçkilər keçirilib. Azərbaycan dövlətinin qarşıya qoyduğu əsas məqsədlərdən biri hüquqi və demokratik dövlətin yaradılması idi ki, bu da reallaşdı. 1993-cü ildən bəri azad və demokratik seçkilər keçirilir. Eyni zamanda, qeyd etmək lazımdır ki, Azərbaycanda demokratik, ədalətli və azad seçkilərin keçirilməsi üçün zəruri olan bütün şərait mövcuddur. Belə ki, ölkədə ictimai-siyasi sabitlik hökm sürür, ən əsası, ölkə başçısının özünün demokratik seçkilərin keçirilməsi üçün siyasi iradəsi mövcuddur.***






Azərbaycanda keçirilən növbəti 23 dekabr bələdiyyə seçkiləri də öz demokratikliyi və şəffaflığı ilə reallaşdı. Paytaxt və bölgələrdə, eləcə də, ən ucqar kənd və qəsəbələrdə seçicilər yüksək əhval-ruhiyyə ilə seçkilərə qatıldılar.

Dekabrın 23-də keçirilən bələdiyyə seçkilərində Səbail seçiciləri də fəallıq nümayiş etdiriblər. YAP Səbail rayon təşkilatının və rayon Seçki Qərargahının sədri Şəmsəddin Hacıyev partiyanın böyük seçki təcrübəsinin olduğunu qeyd edərək bildirdi ki, səhər saat 8.00-dan bütün məntəqələrdə seçkilər başlayıb: "Səhər saat 8.00-dan Səbail rayonunda bələdiyyə seçkilərində seçici fəallığı müşahidə olunur. Qeydiyyatda olan 45 min seçici rayon ərazisində fəaliyyət göstərən məntəqələrə gələrək, azad və şəffaf şəkildə səsvermədə iştirak edirlər. Rayon ərazisini əhatə edən 29 saylı Səbail və 23 saylı Nəsimi-Səbail seçki dairələrinin tərkibində, ümumilikdə, 40 məntəqə fəaliyyət göstərir. Seçki dairələrinin ərazisində məskunlaşan məcburi köçkünlərin daxil olduğu məntəqələr də var. Seçki məntəqələri bütün zəruri texniki avadanlıqlar, ləvazimatlar və məlumat kitabçaları ilə tam təchiz olunub".

### "Layiqli namizədə səs veririk ki, layiqli xidmət etsin"

Bu fikri məntəqələrdə səs verən seçicilər ifadə edib. Belə ki, 29 saylı Səbail Seçki Dairəsinin 2 saylı məntəqəsində Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, məntəqə sədri Süleyman Əliyev bizimlə söhbətində bildirdi ki, Seçki Məcəlləsində nəzərdə tutulmuş maddələr tamamilə seçki prosesi zamanı nəzərə alınmışdır: "İnsanlar arasında fəallıq və inam hissi müşahidə olunurdu. Bu isə, namizədlər arasında ruh yüksəkliyinin artmasına səbəb olurdu. Qətiyyətlə deyə bilərəm ki, Azərbaycanda aparılan bütün seçkilər dünya standartlarına tam cavab verir, insanlarımız demokratik və azad yolla öz seçimlərini etmişlər. Bunu seçki günü yaşanan əhval-ruhiyyə də bir daha təsdiq edir."





4 saylı məntəqədə də seçicilərin fəallığı yüksək şəkildə sərgilənib. Məntəqə sədri Lalə Əliyeva bildirdi ki, Azərbaycanda mövcud olan demokratik şərait seçkilərin şəffaf keçirilməsi ilə bir daha öz təsdiqini tapdı.

Seçicilərlə söhbət zamanı bildirdilər ki, layiqli namizədə səs veririk ki, layiqli xidmət etsin.

**Səmayə Əsədova:** "Məni burada çox gözəl ab-hava ilə qarşıladılar. Beləcə, istədiyim layiqli namizədə səsimi verdim. Ümid edirəm ki, səs verdiyim namizəd növbəti 5 ildə layiqli xidməti ilə seçiləcək".

**Məmməd Həsənov:** "Səsvermə prosesi çox gözəl keçir. Mən hər kəsdən bir ağsaqqal kimi xahiş edirəm ki, öz seçimlərini düzgün etsinlər. Çünki düzgün seçim, firavan inkişaf deməkdir".



**Nəsib Məmmədov:** "Bir ağsaqqal kimi deyə bilərəm ki, xalqın gözü tərəzidir. Azərbaycan demokratik ölkədir. Hər bir Azərbaycan vətəndaşı seçimində sərbəstdir. Layiqli namizədə səs verməklə, xoşbəxt gələcəyimizə töhfə vermiş olarıq. Mən öz seçimimi etdim. Hər bir seçicinin də düzgün seçim edəcəyinə əminəm".

**Eldar Məmmədov:** "Bugünkü inkişaf, tərəqqi göz qabağındadır. Xalqın sosial rifahının yaxşılaşması da göz önündədir. Belə olan halda, daha firavan olmaq istəyiriksə, seçimimizi düzgün etməliyik".

### 26 saylı Sabunçu birinci Seçki Dairəsinin məntəqələrində fəallıq müşahidə olunub

Bakının Sabunçu rayonunda da seçki fəallığı nümayiş olunub. YAP Sabunçu rayon təşkilatının və rayon Seçki Qərargahının sədri Mehriban Abasquliyeva bildirib ki, bütün seçkilərdə olduğu kimi, növbəti bələdiyyə seçkiləri də ölkəmizdə demokratik dəyərlərin və şəffaf seçki mühitinin olması təsdiqini tapdı: "Belə ki, Yeni Azərbaycan Partiyasının bu seçkilərdə də qələbə əzmi nümayiş etdirməsini təşkilatımızın, onun üzvklərinin zəfər yolunun davamı kimi qiymətləndirmək lazımdır.

26 saylı Sabunçu birinci dairə seçki komissiyasının sədri Hüseynqulu Ələsgərov 51 min 430 seçicisi olan dairə seçki komissiyasının ərazisində 37 daimi seçki məntəqəsinin fəaliyyət göstərdiyini bildirib. Qeyd edib ki, məntəqələrin 10-da veb-kameralar quraşdırılıb. Seçki məntəqələrində komissiya üzvlərinin və müşahidəçilərin normal fəaliyyəti, seçicilərin səslərini sərbəst şəkildə həyata keçirmələri üçün hər cür şərait yaradılıb.







Səsvermə prosesi 27 saylı Sabunçu ikinci və 28 saylı Sabunçu üçüncü seçki dairələri dairə seçki komissiyalarının məntəqələrində də şəffaf və demokratik şəraitdə davam edib.

Beləliklə, müşahidə apardığımız digər məntəqələrdə olan ab-havaya, əsasən də, gəldiyimiz nəticə budur ki, seçkilər şəffaf və obyektiv şəkildə keçirilir. Bu tək bizim yox, həmçinin, beynəlxalq təşkilatları təmsil edən müşahidəçilərin də fikirləridir.

Məntəqənin qarşısında olarkən, seçicilərin yüksək əhval-ruhiyyəsindən bu qənaətə gəldik ki, gələcəyə böyük inamla irəliləyən dövlətimizin qazandığı uğurlar hər bir ölkə vətəndaşında böyük ruh yüksəkliyi yaradır.

**RƏFİQƏ KAMALQIZI**

# İlham Əliyevin fəlsəfəsi

## *Bir portret haqqında düşüncələr*



***24 dekabr 1961-ci il - doğulduğu il və bürcün bu tarixdə dünyaya gələnlərdə təbiətin - hansı ki, ətrafımızda tamamən yerdən və göydən ulduzların düzülüşü, torpaq, su, hava və energetik harmoniyanın təbiətən bəxş etdiyi xarakterik xüsusiyyətlər insanların həyat yolunda-taleyində və şəxsi fəaliyyətində daim onu müşayiət edir. Çünki həmin tarix - il, ay, gün, saat, an onun bu dünyaya keçid kodudur. Həmin an təbiətin kosmik, energetik və bütün digər canlı təbii durumu insana nəsnələr verir və genetik keyfiyyətlərlə həmin günün təsirli əlamətləri insanın həyat portretinin ilk rənglərini yaradır. BU GÜN ŞƏXSİ GÜNDÜR.***

Bu il gücü və zəhmətsevərliyi təmsil edir, irəliləməyə söz verir. Həmin ildə doğulanlar böyük səbirə malik, az danışan, ətrafındakı insanları səmimiliyə çağıran, öz işinin fanatlarıdır. Qapalı adam olsalar da, hərdən gözəl natiqlik edirlər. Əldən zirək olduqlarına görə evi həmişə səliqəli qurulmuş olsa da tərsdirlər və uğursuzluğu xoşlamırlar. İşlərini görməyə mane olanları vurub yolundan atırlar.

Həmin il torpaq ünsürlü oğlaq bürcü altında doğulanlar sözünün üstündə duran, qarşıya çıxan çətinliklərin çəkinmədən öhdəsindən gəlməyi bacaran, həyata real baxan, komfortu sevən, əliaçıq, səxavətli olsalar da, pulun dəyərini bilən, onu harada necə xərcləməyi bacaran insanlardı. Onlarla ciddi mövzularda, fəlsəfi və ya maliyyə xəbərləri barədə söhbət etmək, onların gözəl yaddaşına və iti ağlına baxıb zövq almaq olar. İşgüzar oğlaqlarla birlikdə işləmək bir fərəhdir.

Vətənpərvərlik, patriotizm, yüksək ziyalılıq keyfiyyətləri ilə əhatə olunan məhəbbətdən doğulub, sevimli övlad kimi diqqət, qayğı, mərhəmət-sevgi, yüksək təlim-tərbiyə və təhsil mühitində böyüyüb formalaşmışdır. Valideynlərini daim insanların, müraciət edənlərin, ehtiyacı olanların köməyinə tələsdiyini görən övladın, bu hal sözsüz ki, xarakter və xüsusiyyətinə öz ciddi təsirini buraxmamış deyil.

Vicdanlı, ləyaqətli, vətənpərvər, qorxubilməz, cəsarətli, ağıllı fenomenal şəxsiyyət Heydər Əliyevin zəhmətkeş, sədaqətli, qayğıkeş, ziyalı Zərifə xanımın ailəsində, bu izdivacdan dünyaya gələn İlham Əliyev sanki zamanı qabaqlayaraq böyümüşdür.

Gənc prezident İlham Əliyevin 42 yaşında dünyanın ən mürəkkəb geosiyasi regionunda və 2003-cü ildə hələ sabitliyin, inkişafın qarantına çevrilmiş bir çox meqalayihələrin işə düşmədiyi, risk faizinin çox yüksək olduğu Azərbaycana rəhbərliyə seçilməsi və bütün məsuliyyəti öz üzərinə götürməsi nümunəsi təkcə talehin nəsibi deyil, şəxsiyyətin xarakter göstəricisidir. Heydər Əliyev və Zərifə xanımın ailəsində böyümək ən böyük həyat və siyasət akademiyasını keçmək deməkdir. Lakin onun portretinin zəngin cizgi və rəng çalarları keçdiyi həyat yolunda daha dolğun mükəmməl mərhələsini keçərək öz kamil formasını almışdır.

İlham Əliyev 1961-ci il dekabrın 24-də Bakı şəhərində anadan olmuşdur. 1967-1977-ci illərdə Bakı şəhərindəki 6 saylı orta məktəbdə təhsil almışdır. 1977-ci ildə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutuna daxil olmuşdur. Oranı bitirdikdən sonra institutun aspiranturasına qəbul edilmiş, 1985-ci ildə dissertasiya müdafiə edərək tarix elmləri namizədi elmi dərəcəsi almışdır. 1985-1990-cı illərdə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda müəllim işləmişdir.1991-1994-cü illərdə özəl biznes sahəsində çalışmışdır. Bir sıra istehsal-kommersiya müəssisələrinə rəhbərlik etmişdir.1994-cü ildən 2003-cü ilin avqust ayınadək Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, birinci vitse-prezidenti olmuşdur. Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsində fəal iştirak etmişdir. Suveren Azərbaycanın neft siyasətinin geosiyasi aspektlərinə dair bir sıra tədqiqat işlərinin müəllifidir. Siyasi elmlər doktorudur.

1995-ci və 2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinə deputat seçilmişdir. 2003-cü ildə Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə təyin edilməsi ilə əlaqədar olaraq deputat səlahiyyətlərinə xitam vermişdir. 1997-ci ildən Azərbaycan Milli Olimpiya Komitəsinin prezidentidir. İdmanın və Olimpiya hərəkatının inkişafında böyük xidmətlərinə görə Beynəlxalq Olimpiya Komitəsinin ali ordeni ilə təltif edilmişdir. 1999-cü ildə Yeni Azərbaycan Partiyası sədrinin müavini, 2001-ci ildə sədrin birinci müavini, 2005-ci ildə isə partiyanın sədri seçilmişdir. 2001-2003-cü illərdə Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Respublikası Milli Məclisinin nümayəndə heyətinin rəhbəri olmuşdur. 2003-cü ilin yanvarında Avropa Şurası Parlament Assambleyası sədrinin müavini, AŞPA-nın Büro üzvü seçilmişdir. 2004-cü ilin aprelində AŞPA-nın fəaliyyətində fəal iştirakına və Avropa ideallarına sədaqətinə görə AŞPA-nın fəxri üzvü diplomu və AŞPA medalı ilə təltif edilmişdir. 2003-cü il avqustun 4-də Milli Məclis tərəfindən təsdiq edildikdən sonra Azərbaycan Respublikasının Baş naziri təyin edilmişdir. 2003-cü il 15 oktyabrda Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. Prezident seçkilərində seçicilərin 76%-dən çoxu İlham Əliyevin lehinə səs vermişdir. 2003-cü il oktyabrın 31-də vəzifəsinin icrasına başlamışdır. 2008-ci ildə yenidən prezident seçilmişdir. 2013-cü ildə üçüncü müddətə prezident seçilmişdir. .2018-ci ildə səslərin 86.03% -ni toplayaraq dördüncü müddətə Azərbaycan Respublikasının prezidenti seçilmiş və hazırda prezident vəzifəsini icra edir. O, KEÇDİYİ HƏYAT YOLUNDA BÜTÜN DÖVRLƏRDƏ ZAMANIN ÖNÜNDƏ OLMUŞDUR.

Keçən əsrdə yaşamış Hind yoqa təlimçisi və filosofu Oshonun (Bhagwan Shree Rajneesh) belə bir fikri var ki, hər hansı nəticənin necəliyini dəyərləndirmək elmi yanaşmadır, səbəbini, yəni mövcud faktın niyəsini incələmək isə fəlsəfi yanaşmadır. Yəni fəlsəfədə sual edilir: "Bu, niyə mövcuddur?". Elm isə belə sual verir: "Bu, necə mövcuddur?".

### İLHAM ƏLİYEVİN SİYASİ PORTRET CİZGİLƏRİ SİYASİ PORTRETDƏN ŞTRİXLƏR

Yaxud regionun inkişaf və sabitliyində İlham Əliyev xarizmasının rolu İlham Əliyevin doğulub, böyüyüb, təlim-tərbiyə aldığı, şəxsiyyət kimi formalaşmasında müstəsna rol oynayan ailə mühiti, təhsili və eyni zamanda sağlam və geniş dünya görüşünün kamilləşməsində Ulu Öndərin genetik kodunun daşıyıcısı olmaqla bahəm, onun siyasi məktəbinin yetirməsi, yaxud da Heydər Əliyev siyasətinin ən yaxın izləyicisi və müşahidəçisi olması faktı siyasi portret cizgisində xüsusi iz buraxmış ştrixlərdəndir.

Hətta Heydər Əliyevin həyatının rəvan olmadığı dövrlərdə istər-istəməz böyük təzyiqi öz üzərində hiss edən oğul Əliyevin siyasi portret cizgilərində iz buraxan bu təzyiqlərə sinə gərmək qətiyyəti İlham Əliyevin xarakterik xüsusiyyətlərində öz əksini tapmışdır.

Mətinlik, əzmkarlıq, dözüm və iradə, Onun siyasi porterindəki xüsusi ştrix və yaxud ən böyük cizgi-səbrlə, təmkinlə Qalib Gəlmək əzmi və qəti iradə nümayişidir. O, başladığı istənilən layihədə öz qalibiyyətinə, uğurlu nəticəyə böyük inamla əmindir ki, bu da onun xarizmasını şərtləndirən ən vacib keyfiyyətlərdəndir.

İrsi xüsusiyyət və fitri istedadı, eyni zamanda təlim-tərbiyə, təhsili və keçdiyi heç də rəvan olmayan həyat yolu və böyük siyasi təcrübəsinin Onun siyasi portretində dərin iz buraxmış xarakterik xüsusiyyətlərinin formalaşmasına ciddi təsir göstərdiyi daha aydın görünür.

Azərbaycan tarixinin ən ciddi, həyati əhəmiyyətli, dönüş məqamı və dönüş mərhələsinin yaşandığı bir dövrdə bu qədim xalqa rəhbərlik, sərkərdəlik etmək missiyası nəsib olmuş İlham Əliyevin geniş analitik təfəkkürü-dərin zəkanın, formalaşdığı və yaşadığı zaman-dövran və mühitin, keçdiyi burulğanlarla zəngin olan siyasi-həyat təcrübəsinin məcmusudur. Onun keçmiş və müasir liderlərdən bir fərqliliyi də, bəlkə də haradasa müəyyən energetik-mistik qanunauyğunluq da var ki, sanki Uca yaradan oğul Əliyevi xarakterik olaraq müasir Azərbaycan coğrafiyası üçün görəvləndirmişdir.

O, ən böyük azərbaycanlı kimi ölkənin geosiyasi, mədəni-mənəvi aksliklərin və müxtəlif sivilizasiyaların kəsişməsində yerləşdiyi üçün geniş tollerant dünya görüşü ifadə etməyi bacaran nadir siyasətçilərdəndir.

O, xaraktercə islahatçıdır, yeniliklərin mənimsənilməsi və daha da modernləşdirilib tətbiq olunmasında daim təşəbbüskardır. Eyni zamanda, xüsusən milli-mənəvi, mədəni və əxlaqi, ənənəvi dəyərlərin qorunub saxlanılmasında mühafizəkardır və bu məsələlərdə konkret münasibət ifadə etməkdən çəkinmir.

Onda Şərqin uzaqgörən müdrikliyi, qərbin təmkinli, praqmatik soyuqqanlılığı, ancaq eyni zamanda qafqazlıların da mərdliyi və istiqanlılıq xüsusiyyətləri cəmləşmişdir. Azərbaycan liderinin 24.04.2014-cü ildə Praqada keçirilən dövlət və hökumət başçılarının iştirakı ilə "Şərq tərəfdaşlığı" proqramının 5 illiyinə həsr olunan sammitdə beynəlxalq tribunadan "Türkiyə burada yoxdur, biz burdayıq" deyə çıxış edərək Türkiyənin müdafiəsinə qalxması onun mərdliyi, ədaləti və qətiyyəti ifadə edən şəxsi keyfiyyətlərinin göstəricisi kimi xarakterizə olunur.

O, eyni zamanda əks qütblərdə, yaxud ziddiyətli mövqelərdə dayanan qüvvələrlə açıq faydalı dialoq qurmaq istedadına malikdir. Çünki, O, dərin analitik təfəkkürlə hadisələrin və ya situasiyanın rassional analizini verərək, praqmatik yanaşma ilə müxtəlif mövqelərin proqressiv uzlaşma nöqtələrini tapmaq zəkasına və məntiqi yanaşma ilə inandırmaq bəlağətinə malikdir.

**Ardı Səh. 16**

# İlham Əliyevin fəlsəfəsi

## *Bir portret haqqında düşüncələr*



Əvvəli Səh. 15

O, vaxtilə yaşadığı Kreml mühitini də, yüksək təhsil və geniş dünyagörüşü ilə qərb dünyasını da əla tanıyır və dünyagörüşü baxımından həm moskvalıdır, həm avropalıdır, həm də asiyalıdır.

### NEFT XOŞBƏXTLİKDİRMİ?

Ərazisinin 20 %-nin işğal, əhalisinin 10%-nin məcburi köçkün halında yaşamaq məcburiyyətində qalma səbəbi müstəqilliyimizə təhdidlər fonunda Azərbaycan dövlətinin yerləşdiyi vacib strateji-geosiyasi mövqedə və neft ölkəsi olaraq tam müstəqil siyasət yürütməsi bügünkü dünyanın möcüzələrindəndir. Azərbaycanın vəziyyətində olan və Azərbaycan böyüklüyündə ikinci bir ölkə yoxdur ki, müstəqil siyasət həyata keçirə bilə, həm də müsəlman ölkəsi olaraq.

"Əsrin müqaviləsi" neft kontraktlarının imzalanması böyük çətinliklərdən keçmiş, dövlət çevrilişlərinə cəhdlər, hətta sui-qəsd cəhdləri və nəhayət adı çəkilən layihənin fəaliyyətə başlaması və s. barədə mətbuatda, ictimaiyyətdə geniş məlumatlar olduğu üçün məsələyə daha çox basqa tərəfdən baxmağa çalışacağıq. Onu da yeri gəmişkən qeyd etməyi vacib hesab edirik ki, XXI əsrin ən böyük enerji layihəsi olan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin 2006-cı il iyul ayının 13-də təntənəli açılış mərasimindən sonra Azərbaycan dövlətinin həyata keçirdiyi həm daxili, həm regional, sosial-iqtisadi, humanitar-mədəni layihələr baxımından, çevik, ardıcıl, sabit, sürətli və perspektiv nəticələrə hesablanmış konseptual siyasəti təhlil predmetidir.

Xəzərin Azərbaycan sektorunda neft və qaz ehtiyyatlarının istismarı ildən-ilə genişlənir və bunun nəticəsində Azərbaycan özünün enerji təhlükəsizliyini tam şəkildə təmin etmişdir. Dünyanın enerji təminatında ölkəmizin xüsusi çəkisi və strateji əhəmiyyəti daha da yüksəlir. Eyni zamanda, "Şahdəniz" yatağında qazın istismarının genişlənməsi ilə əlaqədar Azərbaycan özünün daxili tələbatını tam ödəməklə bərabər, bu mavi yanacaq növünün beynəlxalq bazarlara ixrac etmək imakınını əldə etmişdir. 2007-ci il iyul ayının 3-də Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz" qaz-kondensat yatağından hasil edilən təbii qaz Bakı-Tbilisi-Ərzurum qaz boru kəməri ilə Türkəyinin qaz kəmərləri sisteminə daxil oldu. Qaz nəqliyyat infrastrukturunun, xüsusilə də Bakı-Tbilisi-Ərzurum qaz boru kəmərinin fəaliyyəti sayəsində Azərbaycan qərbin mühüm qaz ixracatçısına və qlobal enerji təhlükəsizliyinin təminatçılarından birinə çevrilmişdir. Neft strategiyasının mühüm tərkib hissəsini xarici şirkətlərlə birlikdə hasil olunan neftin və qazın iri həcmli nəqlini və xarici bazarlara ixracını təmin edəcək çoxvariantlı boru nəqliyyat infrastrukturunun yaradılması təşkil edilmişdir. Belə ki, neft strategiyasının həyata keçirilməsinin ilk illərində ilk növbədə Bakı-Novorossiysk və Bakı-Supsa boru kəmərləri yenidən quruldu. Yuxarıda qeyd olunan və mövcud olan layihələrin fəaliyyət göstərməsi və bu kəmərlər ilə neft və qazın nəqlinin ildən-ilə genişlənməsi neft strategiyasının mühüm qələbəsi kimi qəbul edilir. Xəzər dənizi ilə Aralıq dənizini birləşdirən bu yeni enerji dəhlizinin fəaliyyəti sayəsində Azərbaycan neftinin beynəlxalq bazarlara genişmiqyaslı nəqli və ölkədə çoxvariantlı ixrac strategiyasının həyata keçirilməsi üçün əlverişli imkan yarandı, eyni zamanda ölkənin tranzit potensialı bir neçə dəfə artdı. Dünya ölkələri xüsusilə Avropa İttifaqına üzv ölkələrlə birbaşa nəqliyyat əlaqələri genişlənmiş, Bakı-Tbilisi-Ceyhan (BTC) neft ixrac kəməri və Bakı-Tbilisi-Ərzurum qaz ixrac kəməri dünyada enerji təhlükəsizliyinin təmin olunmasına layiqli töhvələr vermişdir. 2012-ci ildə "Şahdəniz-2" layihəsi üzrə Trans-Anadolu qaz boru kəmərinin (TANAP) tikintisi ilə bağlı razılıq əldə edildi. Layihə çərçivəsində hasil olunacaq qazın uzunmüddətli sazişlər əsasında Avropa İttifaqı ölkələrinə ixrac edilməsi üçün mühüm addımlar atıldı, Trans-Anadolu (TANAP) və Trans-Adriatik (TAP) qaz boru kəmərlərinin inşaasına dair sazişlər imzalandı. 2018-ci ildə istismara verilən TANAP-ın ilkin ötürücülük qabiliyyəti ildə 16 milyard kubmetr olaraq kəmərin bu qabiliyyətinin 2023-cü ildə 23 milyard kubmetrə və 2026-cı ildə isə 31 milyard kubmetrə çatdırılması nəzərdə tutulur. 2013-cü ilin iyul ayının 28-də "Şahdəniz" konsersiumu "Şahdəniz-2" layihəsi çərçivəsində hasil olunacaq qazın Yunanıstan, İtaliya və Cənub Şərqi Avropadakı istehlakçılara çatdırılması üçün Trans-Adriatik qaz boru kəmərinin seçildiyini elan etdi. Uzunluğu 870 km olan və ilkin olaraq, 5.2 milyard ABŞ dolları məbləğində qiymətləndirilən TAP layihəsi Cənubi Qafqaz qaz kəmərinin (BTƏ) və Trans-Anadolu qaz kəmərinin davamıdır. Bu boru kəməri "Şahdəniz-2" yatağından çıxarılan qazın Yunanıstan və Albaniya vasitəsilə, Adriatik dənizi ilə İtaliyanın cənubuna, oradan da Qərbi Avropaya nəqlini nəzərdə tutur. 2014-cü sentyabr ayının 20-də isə Bakıda "Əsrin müqaviləsi"nin 20 illiyinə və "Cənub" qaz dəhlizinin təməlinin qoyulmasına həsr olunmuş təntənəli mərasim keçirildi. Mərasimdən sonra təbii qaz boru kəmərləri zənciri kimi qiymətləndirilən "Cənub" Selim rayonunda Azərbaycan, Türkiyə və Gürcüstan prezidentləri TANAP-ın təməlini qoydular. TANAP Yunanıstan sərhədinədək uzanacaq. "Əsrin müqaviləsi" ilə əsası qoyulmuş milli neft strategiyasının uğurlarının nəticəsi olaraq, Azərbaycanın regionun lider dövləti, eləcə də regional və qlobal iqtisadi layihələrin aparıcı iştirakçılarından biri kimi tanınmasına şərait yaranmışdır.

Regionun ümumi inkişafında hətta perspektiv planda orta Asiya regionuna daxil olan ölkələrin və avropanın enerji ixracı, enerji təminatı və enerji təhlükəsizliyi layihələrində birbaşa və bilavasitə təşəbbüskar və aparıcı rol oynayan Azərbaycan dövlətinin gücü artdıqca beynəlxalq nüfuzunun da yüksəldiyini müşahidə edirik ki, o da öz növbəsində müstəqilliyimizin dönməzliyini, dövlət siyasətinin yalnız milli maraqlar üzərində qurulmasını inamla möhkəmləndirir.

Keçən dövrün təhlili göstərir ki, Azərbaycan dövləti tərəfindən yaranmış əlverişli şəraitdə çox səmərəli ardıcıl kompleks tədbirlər həyata keçirib.

### YOLLAR MƏDƏNİYYƏTLƏRİ BİRLƏŞDİRİR

Prezident İlham Əliyev tərəfindən imzalanan və vaxtında istismara verilən həm beynəlxalq avtomagistralların, həm daxili avtomobil yollarının yüksək standarta uyğun şəkildə əsaslı təmiri və bir çox hallarda yeni avtomobil yollarının tikilib istismara qəbul edilməsi trayektoriyası və xronologiyası məsələnin planlı şəkildə hansı ardıcıllıqla həyata keçirildiyinin əyani göstəricisidir. Məsələn: Azərbaycan Prezidentinin 11 fevral 2004-cü il tarixli Fərmanı ilə təsdiqlənən "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" çərçivəsində Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi, Bakı-Şamaxı-Yevlax, Xocasən-Lökbatan-Yevlax-Gəncə, Gəncə-Qazax-Gürcüstan dövlət sərhədinədək avtomobil yolları yenidən qurulmuşdur. Bundan başqa, Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə 2006-2007-ci, həmçinin 2008-2013-cü illər üçün tədbirlər planlarına müvafiq olaraq, paytaxtda 26 yol qovşağı, körpü və 88 piyada keçidi tikilmiş, paytaxtətrafı kənd və qəsəbələrin inkişafını nəzərdə tutan yolların yenidən qurulması işləri aparılmışdır.

Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının yol kompleksində idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında" 28 dekabr 2015-ci il tarixli Sərəncamı yol təsərrüfatında yeni dövrün başlanması kimi xarakterizə olunmalıdır. Bu sərəncamın imzalandığı vaxtdan keçən qısa dövr ərzində 4.1 milyon nəfər əhalinin yaşadığı və 1318 yaşayış məntəqəsini birləşdirən uzunluğu 3438.2 km olan avtomobil yollarının tikintisi, yenidən qurulması və təmiri başa çatdırılmışdır. Ümumi istifadədə olan avtomobil yollarında və Bakı şəhərində 29 yeni körpü və 19 piyada keçidi tikilmişdir. Paytaxtda görülən işlərdən danışarkən, Bakı Olimpiya Stadionundan Heydər Əliyev prospektinə keçidin və müxtəlif səviyyəli yol qovşağının inşaasını da xüsusi vurğulamaq lazımdır.

Qeyd edilənlərlə bərabər, 2016-cı ildə Bakl-Şamaxı-Yevlax avtomobil yolunun Muğanlı-Yevlax mənzilinin 115 km hissəsi açılmış, Ələt-Astara-İran İslam Respublikası dövlət sərhədi avtomobil yolunun Yenikənd-Salyan rayonun ərazisindən keçən 23.4 km hissəsi istifadəyə verilmişdir. Çoxdan gözlənilən Kür çayı üzərində uzunluğu 201 m, eni 14.5 m olan yeni körpünün açılışı olmuşdur. Eyni zamanda, 87.8 km olan Bakı-Ələt-Qazax-Gürcüstan dövlət sərhədi avtomobil yolunun Kürdəmir-Ucar-Yevlax hissəsi istismaraburaxılmışdır.

Ötən il, eyni zamanda, "40 kənd yolu" layihəsinin icrası çərçivəsində mühüm işlər görülmüşdür. Regionların sosial-iqtisadi inkişafına mühüm təsir göstərən bu layihənin gerçəkləşdirilməsinin kənd yollarının tikintisinə və yenidən qurulmasına yönəldilməsi xüsusi əhəmiyyət kəsb etmişdir. Layihə çərçivəsində respublikanın 34 rayonunda 1 milyon 400 min nəfər əhalinin yaşadığı 423 yaşayış məntəqəsini birləşdirən 52 kəndlərarası və Bakı şəhərinin qəsəbələrarası avtomobil yolu layihəsi, həmçinin 14 respublika əhəmiyyətli layihənin icrası uğurla reallaşdırılmışdır. Yol infrastrukturunun inkişafına xüsusi diqqət ayıran Prezident İlham Əliyev demək olar ki, bütün yolların çəkilişində və istifadəyə verilməsində şəxsən iştirak etmişdir.

Əsası 2004-cü ildə qoyulan bu layihələr əslində şimal-cənub və şərq-qərb tranzit nəqliyyat qovşağının perspektiv strateji inkişaf proqramının mühüm hissəsi kimi artıq böyük regional proyektin tərkib hissəsinə çevrilmişdir.

Eyni zamanda, Prezident İlham Əliyevin təşəbbüsü ilə Avropa və Asiyanı birləşdirən şərq-qərb və şimal-cənub nəqliyyat dəhlizlərinun yaradılması istiqamətində böyük işlər görülmüşdür. Təməli 2007-ci ildə qoyulmuş, uzunluğu 826 km olan Bakl-Tbilisi-Qars dəmir yolunun 2017-ci il oktyabr ayının 30-da Bakıda rəsmi açılışı olmuşdur. Bununla yanaşı 20 aprel 2016-cı ildə şimal-cənub beynəlxalq nəqliyyat dəhlizinin genişlənməsi istiqamətində ikitərəfli müqavilə imzalanmışdır. Müqaviləyə əsasən, Azərbaycan tərəfi İran sərhəddində bir dəmir yol körpüsünün və uzunluğu 8,3 km olan (İran-Astara) birxətli dəmir yolu qovşağının tikintisini həyata keçirmişdir. Bununla da Azərbaycan siyasi-iqtisadi və strateji baxımdan böyük əhəmiyyətə malik həmin beynəlxalq nəqliyyat dəhlizlərində fəal iştirak etməklə Avrasiyada mühüm tranzit və logistika mərkəzlərindən birinə çevrilmişdir.

Cənab Prezidentin təşəbbüsü ilə Xəzər dənizində ən böyük beynəlxalq dəniz limanı olan Ələt dəniz ticarət limanının təməli 2007-ci ildə atılmış və 2017-ci ildə fəaliyyətə başlamışdır. Bununla paralel olaraq 2011-ci ilin mart ayında Heydər Əliyev Adına Beynəlxalq Aeroportun yenidən qurulması ilə bağlı Prezident İlham Əliyev sərəncam imzalamış, tikinti işləri sürətlə həyata keçirilərək 2014-cü ilin mart ayın 17-si yeni aeroportun inşaası başa çatmış və Bakının Heydər Əliyev Beynəlxalq hava limanı dünyanın "5 ulduz"lu 9 əsas hava limanı sırasına daxil olmuşdur.

Həmçinin Azərbaycanda 7 aeroport tamamilə yenidən qurularaq istifadəyə verilmişdir ki, onlardan 6-sı (Bakı, Gəncə, Naxçıvan, Lənkəran, Qəbələ, Zaqatala) beynəlxalaq hava limanı statusu almışdır.

### DÜNYA AZƏRBAYCANI YENİ RAKURSDAN TANIYIR

Azərbaycan Respublikasının Avropa və Asiya qitələri arasında əlverişli geoiqtisadi, coğrafi, eləcə də informasiya magistrallarının kəsişdiyi məkanda yerləşməsi informasiya mübadiləsinin xarici ölkələrdən asılılığını, iqtisadi və informasiya təhlükəsizliyinin əsas kompenentlərindən olan telekomunikasiya peyklərinin hazırlanması və orbitə çıxarılması Azərbaycanı regionda informasiyanın ötürülməsi sahəsində lider ölkəyə çevrilməsi baxımından böyük əhəmiyyət kəsb edir.

Azərbaycanda yüksək texnologiyaların tətbiq olunmasına və ölkədə kosmik sənayenin yaradılmasına təkan verilməsi məqsədilə, "Azərbaycan Respublikasında Kosmik sahənin yaradılması və Telekommunikasiya Peykərinin orbitə çıxarılması haqqında" Prezident İlham Əliyevin 2008-ci il 04 noyabr tarixli sərəncamında Kosmik Sənayenin yaradılması və inkişafına dair Dövlət Proqramının hazırlanması nəzərdə tutulur.

Ardı Səh. 17

# İlham Əliyevin fəlsəfəsi

## *Bir portret haqqında düşüncələr*

Əvvəli Səh. 16

Dövlətin iqtisadi və hərbi gücünün inkişafı zərurəti kosmik tədqiqatlar sahəsində fundamental elmi biliklərin genişləndirilməsini tələb edir. Kosmik fəzanın fəth edilməsi iqtisadiyyatın və milli təhlükəsizliyin səviyyəsini müəyyənləşdirən amillərdəndir. Aerokosmik fəzada yerləşdirilmiş cihazlar və komplekslər öyrənilən obyektlər haqqında genişmiqyaslı və keyfiyyətcə yeni olan məlumatları operativ şəkildə əldə etməyi, aerokosmik laboratoriyalar isə komponentlərin, dünya okeanının, planetlərin və digər xüsusi obyektlərin öyrənilməsinə geniş imkanlar yaradır.

Prezident İlham Əliyev tərəfindən 15 fevral 2011-ci ildə xüsusi sərəncamla 2011-ci ili Turizm ili elan etdi və Azərbaycanın həm daxili avtomobil yollarının, beynəlxalq aeroportların eyni zamanda otelçilik və xidmət sahələrini əhatə edən yeni turizm infrastrukturunun əsası qoyuldu. Turizm infrastrukturunun yaradılması və eyni zamanda ölkəmizin tanıdılması xarici turistlərin cəlb olunması məqsədilə müxtəlif istiqamətlərdə işlər həyata keçirilmişdir ki, bu baxımdan Evroviziya 2012 mahnı müsabiqəsinin Bakıda keçirilməsi çox əlamətdar hadisə kimi qiymətləndirilir.

Dövlət başçısının xüsusi diqqət ayırdığı prioritet sahələrdən biri də cəmiyyətin sağlam inkişafını şərtləndirən insanlarda əzmkarlığı və iradəni formalaşdıran, fiziki sağlamlığı və sağlam rəqabəti stimullaşdırıb tərənnüm edən bədən tərbiyəsi və idman sahəsidir ki, Azərbaycan dövlətinin bu sahədə sistemli olaraq həyata keçirdiyi layihlər paketi nəticəsində ölkədə idman və bədən tərbiyəsi sürətli inkişaf prosesi keçmiş, böyük uğurlar əldə edilmişdir. Bakıda və bölgələrdə 43 Olimpiya İdman Kompleksi, xeyli sayda idman qurğuları, stadionlar və digər idman meydançaları tikilib istifadəyə verilmiş, mövcud idman obyektləri yenidən qurulmuşdur. Azərbaycan idmançıları ildən ilə öz nəticələrini yaxşılaşdırır, yüksək nailiyyətlər əldə edirlər. İdmançılarımız 2004-cü il Afina Olimpiadasında 5 medal (1 qizil, 4 bürünc), 2008-ci il Pekin Olimpiadasinda 6 medal (1 qizil, 1 gümüş və 4 bürünc), 2012-ci il London Olimpiadasinda 10 medal (2 qizil,2 gümüş,6 bürünc), 2016-cı il Rio-de-Janeyro Olimpiya oyunlarında isə 18 medal (1 qızıl, 7 gümüş, 10 bürünc) qazanmışlar. Sonuncu Olimpiya oyunlarında qazanılmış medalların sayına görə Azərbaycan dünyada 14-cü, Avropada 7-ci, MDB ölkələri arasında 2-ci müsəlman aləmində isə 1-ci olmuşdur.

2015-ci ildə Azərbaycan tarixində ilk dəfə keçirilən Avropa oyunlarına ev sahibliyi etmişdir. 50 ölkəni təmsil edən 6000 idmançının iştirak etdiyi oyunlarda ümumi hesabda 2-ci yer tutmuşdur, 21-i qızıl olmaqla 56 medal qazanmışdır. 2017-ci ilin mayında Bakıda keçirilmiş IV İslam Həmrəylik oyunlarında isə Azərbaycan komanda hesabında 1-ci yerə çıxmışdır. 2016-cı ildən etibarən Bakıda hər il ümumi auditoriyası 500 milyon nəfərdən çox olan "Formula 1" yarışları təşkil edilir.

## AQRAR İSLAHATLAR

Cənab Prezidentin aqrar sektorda da keçirdiyi islahatlar, kənd təsərrüfatı məhsulları istehsalçılarına edilən güzəşt və yardımlar ölkə iqtisadiyyatında bu sahənin ardıcıl inkişafına zəmin yaradılması məqsədilə 2003-2008-ci illərdə meliorasiya tədbirlərinin həyata keçirilməsi üçün bir sıra imzaladığı sərəncamlarını qeyd etmək zəruridir. Ölkədə iri su anbarları, 4 min kilometrlik suvarma kanalları, 2,4 min kilometr kollektor-drenaj şəbəkələri tikilmiş və bərpa olunmuş, 360 min hektar torpağın su təminatı və digər meliorativ tədbirlər həyata keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti "Kənd təsərrüfatına dövlət dəstəyinin və aqrar sahədə lizinq fəaliyyətinin təkmilləşdirilməsi haqqında" 19.12.2019-cu il tarixdə fərman imzalamışdır ki, bu fərmanla da ölkədə kənd təsərrüfatı məhsulları istehsalçılarının texnika ilə təminatının yaxşılaşdırılması istiqamətində mühüm işlər görülmüş, kənd təsərrüfatı istehsal vasitələri bazarında rəqabətyönlü fəaliyyətin təmin edilməsi, fermerlərə güzəştli şərtlərlə aqrotexniki xidmətlər istiqamətində mühüm işlər görülmüş, fermerlərə güzəştli şərtlərlə aqrotexniki xidmətlər göstərilməsi, həmçinin heyvandarlığın cins tərkibinin yaxşılaşdırılması üçün tədbirlər həyata keçirilməsi nəzərdə tutulmuşdur.

## REGİONDA AZƏRBAYCAN FAKTORU

Əlbəttə, bütün bu layihələrin həyata keçirilməsi və uğurlu nəticəsi Prezident İlham Əliyevin cəsarətli, çevik, uzaqgörən praqmatik siyasət yürütmək bacarığı və uğurlu qələbə əzmi, iradə və qətiyyəti ehtiva edən şəxsi keyfiyyətlərinin təzahürü inikasıdır ki, bu da təkcə Azərbaycan xalqının bugünü və gələcəyinin deyil, regionun ümumi inkişafını şərtləndirən perspektiv plan üzərində qurulmuş siyasətinin nəticəsidir. Azərbaycan dövlətinin və şəxsən İlham Əliyevin, liderliyi ilə, yaşadığımız əsrin əvvəlində regionda həyata keçirilən regional və beynəlxalq layihələr və meqalayihələr hazırda və perspektiv planda böyük bir regionun təhlükəsiz, inteqrativ iqtisadi inkişafını sürətləndirməklə bərabər Azərbaycanın beynəlxalq siyasi çəkisini artırır. Sözsüz ki, dövlətin və ölkənin iqtisadi gücü, siyasi çəkisi və nüfuzu yüksəldikcə hərbi qüdrəti də durmadan inkişaf edərək, həm şəxsi heyətin fiziki, mənəvi-psixoloji, həm peşəkarlıq səviyyəsi, həm də ən müasir texniki və hərbi təhcizatı daim inkişaf edərək ən yüksək həddə saxlanılır. Bir faktı qeyd etməklə bu sahənin necə dinamik, çevik və hazırlıqlı olduğuna diqqət çəkmək olar ki, 2018-ci il ərzində müxtəlif vaxtlarda iki dəfə hərbi parad keçirilmişdir.

Neft xoşbəxtlikdirmi sualına yenidən döndükdə, düzgün yürüdülməyən neft siyasətinin Holland sindromuna və yaxud müasir dünyada Venesuela nümunəsinə tarix şahidlik edir. Bu gün istər Afrikada, Asiyada demək olar ki, bütün neft ölkələri müxtəlif təzyiqlər altında inləyirlər. Azərbaycanda isə neft kapitalının qeyri-neft sektorunun inkişafına transmissiyası prosesi çox uğurla həyata keçirilməklə yanaşı, eyni zamanda paralel olaraq neft kapitalının insan kapitalına çevrilməsi prosesi də diqqətlə həyata keçirilir.

## AZƏRBAYCAN DÖVLƏTİNİN ƏN QIYMƏTLİ SƏRVƏTİ ONUN VƏTƏNDAŞIDIR

Həyata keçirilən bir çox sosial layihələr və bu sahəyə davamlı dövlət investisiya yatırımları vətəndaşların sosial şəraitinin yüksəldilməsi, yaşam tərzinin yaxşılaşdırılması ilə yanaşı, cəmiyyətin mədəni-intellektual səviyyəsinin daha da inkişafına hesablanmış konseptual dövlət siyasətidir.

Bu baxımdan Prezident İlham Əliyevin Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasının təsdiqlənməsi barədə 2013-cü il 24 oktyabr tarixli Sərəncanı böyük əhəmiyyətə malikdir. Sərəncamda dövlətimizin inkişaf konsepsiyasına uyğun olaraq, strategiyamızda davamlı, dayanıqlı və rəqabət qabiliyyətli inkişafı təmin edən, insan kapitalının inkişafına önəm verən, insan resurslarının yetişdirilməsini və idarəedilməsini gerçəkləşdirən müasir təhsil sisteminin yaradılması ön plana çəkilir. Eyni zamanda, bu konseptual sənəddə ölkəmizdə beynəlxalq standartlara cavab verən təhsil sisteminin inkişaf istiqamətləri, başlıca hədəfləri dəqiq müəyyənləşdirib, təhsil işçiləri qarşısında yeni, məsul vəzifələr qoyulub. Prezident İlham Əliyev bu məsələyə böyük önəm verərək qeyd edir: "Əlbəttə, qarşımızda duran bütün vəzifələri gerçəkləşdirməyə nail olmaq üçün bizə ilk növbədə, peşəkarlar lazımdır. Bütün sahələrdə peşəkarlar lazımdır. Hansısa mühüm bir istiqamətə peşəkar kadr gələn kimi, biz o saat müsbət dinamika görürük. Müasir dünyada ölkənin uğurunu biliklər, elm, texnologiyalar və təhsil müəyyən edir...".

Lideri xalqa sevdirən ən vacib və üstün keyfiyyətlərindən biri şəxsiyyətin insanlar, cəmiyyət və xalqın qarşısında sözü ilə əməlinin vəhdətin nümayiş etdirməsidir. Bu baxımdan xalqın seçdiyi lider bütün digər xarizmatik keyfiyyətləri ilə bərabər xalq qarşısında verdiyi söz və götürdüyü öhdəliklərə sədaqəti ilə özünün ən yüksək insani keyfiyyət olan sadiqlik və sədaqət, həqiqət və ədalət xarakterik xüsusiyyətlərini nümayiş etdirir.

Yeri gəlmişkən, azərbaycanlı gənclərin xaricdə təhsil alması ilə əlaqədar gənclərimizlə görüşdə Belarus Prezidenti Aleksandr Lukaşenko bildirib: "Əgər biz gənclərə və təhsilə böyük diqqət ayırmasaydıq, bu, mümkün olmazdı. Mən həmişə deyirəm ki, İlham Heydər oğlu bizim aramızda ən ziyalı və savadlı Prezidentdir və O, bu məsələyə böyük diqqət yetirir. Görünür, bu səbəbdən o, dünyada normal təhsil olan yerlərə Azərbaycan gənclərini göndərməyə çalışır. Gənclər də əlbəttə, yeni texnologiyaları buraya, öz vətənlərinə gətirəcəklər, onlar yüksək bilikli adamlar olacaqlar. Bu gün bizdə 150 azərbaycanlı tələbə təhsil alır. Onlar bizim üçün heç bir problem yaratmırlar. Ağıllı, sakit gənclərdir, normal təhsil almağa çalışırlar. Bax, bu mütəxəssislər hər il Azərbaycanın iqtisadiyyatına cəlb edilir və sanballı nəticə verirlər. Bunlar olmasa, təhsil olmasa - bilirəm ki, texniki peşə təhsili üzrə də yeni layihələr vardır - normal əməkdaşlıq mümkün deyildir".

## O, XALQLA HƏMİŞƏ AÇIQ, SƏMİMİ TƏMAS QURMAĞI BACARIR VƏ BU BİR ÇOX LİDERİN ƏN BÖYÜK ARZUSUDUR DESƏK YANILMARIQ

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası İlham Əliyevin ölkənin gələcək inkişafı məqsədilə göstərdiyi əsas strateji təşəbbüslərdən biri kimi qəbul olunur. Bu konsepsiyanın hazırlanması barədə müvafiq Sərəncam 29 noyabr 2011-ci ildə qəbul olundu və 29 dekabr 2012-ci ildə isə qəbul olunmuş Fərmanla konsepsiya təstiq olundu. Konsepsiya 2020-ci ilə qədər iqtisadiyyatın müxtəlif sahələrinin inkişafı və ictimai rifahın artırılması üçün tədbirlər və fəaliyyətlər nəzərdə tutur. BMT-nin Dayanıqlı İnkşaf Məqsədlərinin tətbiqi haqqında Azərbaycanın könüllü məruzəsinin qiymətləndirilməsində İlham Əliyev tərəfindən təsdiqlənmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası uzunmüddətli milli istəkləri, sərmayəçilər üçün imkanları və bu məqsədlər barəsində əsas məsələləri əks etdirən strategiya kimi təsvir olunmuşdur. Eyni yanaşma 2015-ci il Dünya İqtisadi Forumu üçün hazırlanmış və Xarici Siyasət jurnalında nəşr olunmuş Məruzədə də qeyd olunmuşdur. İqtisadi sahədə ixtisaslaşmış "The Business Year" jurnalı İlham Əliyev tərəfindən təşəbbüs edilən konsepsiyanı Azərbaycanın milli iqtisadi maraqlarını qorumaq məqsədilə hazırlanmış ağıllı strategiya kimi qiymətləndirdi.

1993-cü ildə Azərbaycanın xilasına tələsən Ulu Öndər Müstəqil Azərbaycan dövlətini qurdu və öz siyasi varisinə əmanət etdi. 42 yaşlı Prezident İlham Əliyevin seçimi yox idi. Ulu öndər onu Azərbaycan xalqına bağışlamışdı, həyatı boyu bu xalqa xidmət etməkdən başqa seçimi də yox idi və gərgin əziyyət, zəhmət bahasına- müstəqilliyin möhkəmlənməsi, dövlətin qüdrətləndirməsi yolunda Azərbaycan dövləti 16 ildə yarım əsr irəlilədi, indi isə geriyə yol yoxdur...

Ulu öndərin yolunu davam etdirən İlham Əliyev şəxsiyyəti Azərbaycan tarixində Ulu Öndərdən fərqli olaraq gənc yaşda həm Azərbaycanın keçən bütün tarixində dünyada tanınan qüdrətli dövlət kimi tarixə düşməsinə, həm də Ulu Öndərin irsinin, ideyalarının və siyasi yolunun uğurla davam etdirilməsi ilə Heydər Əliyev fenomenal şəxsiyyətinin adının tarixə qızıl hərflərlə yazılmasının məsuliyyətini üzərinə götürdü.

İlham Əliyev rasional düşüncəli praqmatik baxışlı, optimist və realist siyasətçidir. Prinsipial, səbrli və qətiyyətlidir. Bəlli hədəfə ateş açmağın zamanını dəqiq bilən peşəkardır. Onun həyat yolu və tarixi missiyası daim Azərbaycan xalqı ilə sıx bağlı olub və hələ Azərbaycan tarixinə qızıl hərflərlə uğurlar, nailiyyətlər və zəfərlər yazdırmaq imkanını Uca Tanrı artıq müdrik dövlət xadimi İlham Əliyevə nəsib edib.

## YOLUNUZ AÇIQ OLSUN CƏNAB ALİ BAŞ KOMANDAN!!!

Böyük ingilis siyasətçisi və dövlət xadimi Uinston Çörçill demişdir: "Dövlət xadiminin siyasi xadimdən fərqi odur ki, siyasətçi gələcək seçkiləri, dövlət xadimi isə gələcək nəsilləri düşünərək fəaliyyət göstərir".

"Dünyaya gələn insanlar nə üçün gəldiyini bilmirlər, çünki onlar özləri bu dünyaya könüllü olaraq gəlməyiblər, lakin öz tarixlərini yazmaqda, yol ayrıclarındakı seçimlərində müstəqildirlər, yoxsa imtahan olmazdı ki... Hər kəs öz portretini yaradıb altına öz imzasın atır". "Resurs" Analitik İnformasiya Mərkəzi İctimai Birliyi adından Cənab Prezidentimizin DOĞUM GÜNÜ MÜBARƏK OLSUN deyirik, Uca və Qadir Allahdan ona millətimiz və dövlətimiz adına uzun, sağlıqlı, xeyirli-bərəkətli ömür arzulayırıq.

***"Resurs" Analitik İnformasiya Mərkəzi İctimai Birliyi***

# Demokratik meyarlara cavab verən seçki sistemi

***Dünən müstəqil Azərbaycan tarixində sayca 5-ci bələdiyyə seçkiləri keçirildi. İlk dəfə 1999-cu il dekbarın 12-də keçirilən seçkilər Azərbaycanda yerli idarəetmə orqanlarının formalaşması və inkişafı üçün təməl rolunu oynamışdı. Tarixi təcrübə göstərir ki, hər bir dövlətin mütərəqqi inkişafı müxtəlif səbəblərlə yanaşı, həm də demokratik seçkilərdən asılıdır.***

Seçkilər idarəetmənin mərkəzi institutu, insanların cəmiyyətin siyasi-ictimai həyatında iştirakının ən kütləvi formasıdır. Xalq dövlətin idarə edilməsində iştirak hüquqlarını əsas etibarilə seçkilər vasitəsilə reallaşdırır və bu zaman hakimiyyət də idarəedilənlərin razılığı ilə legitimliyini təmin edir. Bu razılığı hökumətin səlahiyyətinə çevirən ən başlıca mexanizm isə, ilk növbədə, azad, ədalətli və obyektiv seçkilərin təşkilidir.




## Demokratik seçkilər - hüquqi dövlət quruculuğunun əsas göstəricisidir

Konstitusiya Aktının 1991-ci ildə qəbuluna baxmayaraq, Azərbaycanda demokratik seçkilərin keçirilməsi 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra mümkün oldu. Məhz Ulu Öndərin sayəsində demokratik seçki mühitinin formalaşdırılması Azərbaycanda hüquqi dövlət quruculuğunun əsas istiqamətlərindən birinə çevrildi. Ümummilli Lider Heydər Əliyevin 1993-cü ilin oktyabrında Prezident seçilməsi isə, xalqın öz rəhbərinə sonsuz məhəbbətinin ifadəsi olmaqla bərabər, ölkədə demokratiyanın inkişaf etdirilməsinin, vətəndaş cəmiyyəti quruculuğunun, o cümlədən, seçki sisteminin ildən-ilə təkmilləşdirilməsinin əsasını qoydu. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında hazırlanaraq ümumxalq səsverməsi yolu ilə 1995-ci ildə qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkəmizdə demokratik standartlara cavab verən azad, ədalətli, obyektiv seçkilərin keçirilməsi üçün əsas prioritetləri müəyyənləşdirdi. Konstitusiyanın 4-cü maddəsinə əsasən, xalqın seçdiyi səlahiyyətli nümayəndələrdən başqa, heç kəsin xalqı təmsil etmək, xalqın adından danışmaq və xalqın adından müraciət etmək hüququ yoxdur. Əsas Qanunun 56-cı maddəsinə əsasən, hər bir Azərbaycan vətəndaşının dövlət orqanlarına seçmək və seçilmək, habelə, referendumda iştirak etmək hüququ var.

1997-ci ildən isə ölkədə müasir standartlara cavab verən seçki qanunvericiliyinin formalaşdırılması məqsədilə Azərbaycan hökuməti və ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu arasında qurulmuş fəal işbirliyinin müsbət nəticələri, bu nöqteyi-nəzərdən, diqqəti xüsusilə çəkir. Azərbaycan 2001-ci ilin yanvarında Avropa Şurasına tamhüquqlu üzv qəbul edildikdən sonra bu sahədə əməkdaşlıq hüdudları daha da genişlənərək, ölkədə seçki qanunvericiliyinin təkmilləşdirilməsi işində Avropa Şurasının Venesiya Komissiyası da yüksək fəallıq göstərdi.

## Seçki sisteminin yaradılmasına gətirib çıxaran Seçki Məcəlləsi

Azərbaycanda seçki qanunvericiliyinin unifikasiyası məqsədilə 2003-cü ilin mayında Azərbaycan Respublikasının Seçki Məcəlləsinin qəbulu bu əməkdaşlığın uğurlu bəhrəsidir. Sənədin hazırlanması ilə bağlı, ilk növbədə, Avropa Şurasının Venesiya Komissiyası, ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu və Beynəlxalq Seçki Sistemləri üzrə Fondla (İFES) sıx əməkdaşlıq münasibətləri quruldu. 2002-ci ilin ortalarından etibarən bu təşkilatlarla aparılan məsləhətləşmələrdən, alınan müsbət rəylərdən sonra Seçki Məcəlləsi Milli Məclisin müzakirəsinə təqdim edildi.

2003-cü ilin mayında isə Milli Məclisdə Seçki Məcəlləsi qəbul edilərək, Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanı ilə qüvvəyə mindi.

Avropa standartlarına uyğun tərtib olunan sənəd ölkədə prezident, parlament və bələdiyyə seçkilərinin, həmçinin, referendumun keçirilmə qaydalarını müəyyənləşdirdi. Seçki Məcəlləsi, eyni zamanda, Mərkəzi Seçki Komissiyasının, eləcə də, dairə və məntəqə seçki komissiyalarının təsisi və fəaliyyəti prinsiplərini də özündə əks etdirdi. Əvvəlki qanunlarla müqayisədə Seçki Məcəlləsi şəffaf və demokratik seçkilərin keçirilməsi üçün daha möhkəm hüquqi bazisin yaradılması, namizədlərin qeydiyyatı, seçkilərə hazırlıq və seçki komissiyalarının formalaşdırılması, fəaliyyətinin təşkili prinsip və mexanizmlərinin təkmilləşdirilməsinə imkan yaratdı.

## 2003-cü ildə keçirilən prezident seçkiləri Seçki Məcəlləsinin mütərəqqi və təkmil sənəd olduğunu tam təsdiqidir

2003-cü il oktyabrın 15-də azad, demokratik və şəffaf şəraitdə keçirilmiş prezident seçkiləri Seçki Məcəlləsinin mütərəqqi və təkmil sənəd olduğunu tam təsdiqlədi. Azərbaycan Respublikası prezidentliyinə bütün namizədlərə öz seçki kampaniyalarını qanunamüvafiq şəkildə aparmaq üçün lazımi mühit və bərabər imkanlar yaradıldı. Bununla yanaşı, fəal seçki kampaniyasının aparılması, seçkilərə texniki hazırlığın yüksək səviyyədə təşkili, Mərkəzi Seçki Komissiyası və dairə seçki komissiyalarının işi müsbət məqamlar kimi ATƏT, Avropa Şurası və ATƏT parlament assambleyalarından ibarət Beynəlxalq Seçki Müşahidəsi Missiyasının seçkilərə dair rəyində əksini tapmadı. 15 oktyabr 2003-cü ildə Azərbaycanda keçirilmiş prezident seçkiləri xalqın demokratik seçiminin dönməzliyini və ölkədə demokratik islahatların davamlılığına sadiqliyini bir daha sübut etməklə yanaşı, bir daha demokratik cəmiyyət quruculuğunda mühüm irəliləyiş olduğunu sübüt etdi.

## Seçki sistemi təkmilləşməyə doğru

1993-cü ildən indiyədək keçirilən bütün seçkilərə, referendumlara, həmçinin, ayrı-ayrı vaxtlarda parlamentə və bələdiyyələrə təyin olunmuş əlavə və təkrar seçkilərə dair beynəlxalq təşkilatların verdikləri müqayisəli rəylər, onu təsdiq edir ki, Azərbaycanda seçkilərdən-seçkilərə seçki praktikası və mədəniyyəti daha da yüksəlmişdir. Təbii ki, bütün bunların kökündə Azərbaycan hakimiyyətinin ölkədə demokraktik dəyərlərin möhkəmlənməsi ilə bağlı qətiyyətli və ardıcıl mövqeyi dayanır. Beynəlxalq miqyasda respublikamızın demokratik imicinin daha da yüksəlməsinə nail olan Prezident İlham Əliyev də seçki sisteminin daha da təkmilləşməsini və hər bir seçkinin ədalətli və şəffaf keçirilməsini diqqət mərkəzində saxlayır. Məhz Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etməsindən sonra seçki sisteminin təkmilləşdirilməsi istiqamətində görülən işlər bunun əyani təsdiqidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2005-ci il mayın 11-də parlament seçkilərindən bir qədər əvvəl imzaladığı "Azərbaycan Respublikasında seçki praktikasının təkmilləşdirilməsinə dair", oktyabrın 25-də "Milli Məclisə seçkilərin hazırlanması və keçirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər haqqında" sərəncamlarını imzaladı.

Bütün bunların nəticəsi idi ki, 2005-ci ildə Azərbaycan Respublikasının Milli Məclisinə keçirilmiş seçkilər demokratikləşmə prosesini sürətləndirən bir çox pozitiv yeniliklərlə yadda qalmış, həmçinin, beynəlxalq müşahidəçilər və təşkilatlar seçkilərin şəffaflığına, ədalətliliyinə, demokratik prinsiplərə uyğun keçirilməsinə dair müsbət rəy verdilər.

Seçki Məcəlləsinə əlavə və dəyişikliklər həm də 2008-ci il tarixli prezident seçkilərinin tamamilə azad, ədalətli və obyektiv keçirilməsinə, vətəndaşların seçki hüququnun etibarlı təminatına xidmət etdi. Bu seçkidə Azərbaycan xalqı Cənab İlham Əliyevin simasında ən layiqli namizədi dəstəkləməklə, Ulu Öndər Heydər Əliyevin ideyalarının davam etdirilməsinə səs verdi, taleyini etibarlı əllərə əmanət etdi. Prezident İlham Əliyev 2003-cü ildə verdiyi vədlərə sadiq qalaraq, Azərbaycanın bütün sahələrdə inkişafını təmin etdi. Ona görə ölkə vətəndaşları hələ 2008-ci ilin prezident seçkilərindən çox-çox əvvəl, Cənab İlham Əliyevin adı üzərində dayanaraq öz seçimlərini etdilər.

## Son prezident seçkisi ölkəmizdə demokratik inkişafın göstəricisi olduğunu nümayiş etdirdi

Bu seçki Azərbaycanın demokratik dəyərlərə sadiqliyini, bir daha bütün dünyaya nümayiş etdirdi, ölkəmizdə demokratik inkişafın göstəricisi kimi yadda qaldı. Azərbaycan hakimiyyəti seçkilərin demokratik, dünya standartlarına uyğun keçirilməsi üçün siyasi iradə və əzm nümayiş etdirdi. Beynəlxalq təşkilatların və dövlətlərin təmsilçiləri bunu yüksək qiymətləndirdilər. Artıq seçki gününün axşamı və sonrakı gün müşahidəçi qismində ölkəmizə gələn bütün beynəlxalq təşkilatların missiyaları, ayrı-ayrı ölkələrin deputatları seçkinin son dərəcə şəffaf keçirildiyini və ölkəmizin demokratiya yolu ilə inkişaf etməsinin şahidi olduqlarını, birmənalı şəkildə bəyan etdilər. Beynəlxalq müşahidəçilərin bəyanat və rəylərində Azərbaycanın beynəlxalq təşkilatların qətnamələrini, habelə, bu təşkilatlar qarşısında götürdüyü öhdəlikləri yerinə yetirməsi yüksək dəyərləndirildi, dinc və sabit ölkə olduğunu sübut etdiyi diqqətə çatdırıldı.

## "Bütün işlər beynəlxalq standartlara uyğun şəkildə qurulubdur"

MSK-nın yeni binasının açılışında Prezident İlham Əliyev deyib: "Azərbaycanda seçkilərin keçirilməsində artıq böyük təcrübə var və biz ən qabaqcıl təcrübəni öyrənirik, Azərbaycanda tətbiq edirik. Bütün işlər beynəlxalq standartlara uyğun şəkildə qurulubdur. Azərbaycanda seçkilərin keçirilməsi prosesi ildən-ilə daha da təkmilləşir, şəffaflıq tam şəkildə təmin edilir və insanlar azad, sərbəst şəkildə öz iradələrini ifadə edirlər".

Bu gün Azərbaycanın inkişaf edən seçki sistemində demokratik ab-havanın, şəffaflığın təmin edilməsi üçün müasir informasiya texnologiyaları da tətbiq olunur. Belə ki, regionda ilk dəfə, məhz Azərbaycanda seçkinin gedişatının internet vasitəsilə birbaşa izlənilməsi sistemi yaradılmışdır.

Özünün inkişafı üçün demokratiya yolunu seçmiş hər bir dövlət istər-istəməz üzərinə azad, şəffaf və demokratik seçkilər keçirmək öhdəliyi götürmüş olur. Bu cür seçkilərin keçirilməsi üçün isə həmin dövlət zaman-zaman güclü hüquqi baza yaratmalıdır. Onu da vurğulamaq lazımdır ki, bu gün dairə-seçki komissiyaları üçün yüksək səviyyədə şərait yaradılıb, seçkilərin tam demokratik və şəffaf keçirilməsi üçün seçki məntəqələrinin əksəriyyətində veb-kameralar quraşdırılıb.

Bu gün, Azərbaycan ictimaiyyəti yaxşı bilir ki, ölkəmizdə keçirilən seçkilər daha mükəmməl qanunvericilik bazası və daha böyük seçki təcrübəsi əsasında həyata keçirilir.

## 23 dekabrda keçirilən bələdiyyə seçkiləri Azərbaycan demokratik dəyərlərə sadiqliyini nümayiş etdirdi

Xalqın iradəsinin, bilavasitə və ən yüksək ifadəsi dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanlarına azad, demokratik seçkilərin keçirilməsidir. Seçkilər, demək olar ki, bütün dünyada vətəndaşların cəmiyyətin həyatında və dövlət işlərində iştirakının ən kütləvi formasıdır.

Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahovun dediyinə görə, bu il bələdiyyə seçkilərində 1606 bələdiyyə üzrə 15156 bələdiyyə üzvü seçilməlidir. Ümumilikdə, seçkilərdə 41462 namizəd iştirak edir. Seçkilərdə iştirak edən partiyaların sayı 13-dür. Namizədlərin 3-də 1-i 13 siyasi partiyanın nümayəndələri, 3-də 2-si isə namizədliklərini özləri irəli sürən vətəndaşlardır.

Azərbaycanda mövcud olan 125 dairədən 7-si bu proseslərdə iştirak etmir, çünki bu dairələr Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunan ərazilərdə yerləşir. Ümumilikdə, bu 7 dairədən başqa, digər 7 dairədə də bizim məcburi köçkün vətəndaşlarımız var və burada seçicilərin sayı 339326 nəfərdir. Səsvermə 5049 məntəqədə həyata keçiriləcək. Bələdiyyə seçkilərini 17 beynəlxalq, 52636 yerli müşahidəçi müşahidə edəcək.

Göründüyü kimi, Azərbaycan daha bir siyasi hadisəni - 23 dekabr bələdiyyə seçkilərinin keçirilməsini uğurla başa vurdu və bununla, başqalarına nümunə göstərilən Azərbaycanın demokratik inkişafı beynəlxalq standartlara uyğun seçkilərin keçirilməsini təmin etdi.

Bir sözlə, ötən illərin təcrübəsi və dünən keçirilən bələdiyyə seçkiləri zamanı ölkə əhalisində müşahidə olunan yüksək əhval-ruhiyyə, bir daha təsdiqləyir ki, Azərbaycan şəffaf, azad və ədalətli seçki keçirməklə demokratik prinsiplərə sadiqliyini bir daha təsdiqlədi.

***RƏFİQƏ HÜSEYNOVA***

# Gömrük xidməti Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə aparılan islahatların davamlılığını təmin etməklə iqtisadi təhlükəsizliyin keşiyində şərəflə duracaq

*Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyevin yap.org.az-a müsahibəsi*

***- Səfər müəllim, bu gün Azərbaycan möhtəşəm inkişaf dövrü yaşayır. Bu inkişafın əsasında Ümummilli Liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi siyasət dayanır. Ümumiyyətlə, Heydər Əliyev siyasətinin Azərbaycan dövləti və xalqı üçün müstəsna əhəmiyyəti barədə sizin fikirlərinizi bilmək istərdik...***



- Zaman məfhumu fəlsəfi cazibədarlığı ilə seçilən anlayışdır. Onu nə geriyə döndərmək, nə dayandırmaq, nə də dəyişmək mümkündür. Zamanı duymaq, anlamaq, qiymətləndirmək və hətta itirmək olar. Yalnız müdrik və dahi şəxsiyyətlər zamanı özününküləşdirməyə, tarix yaratmağa, yaşadıqları dövrü öz irsi ilə gələcək nəsillərə ötürmək qabiliyyətinə malik olurlar.

Hər bir xalqın, hər bir dövlətin tarixi ona rəhbərlik etmiş böyük siyasi liderlərin, unudulmaz, parlaq şəxsiyyətlərin çoxşaxəli fəaliyyətində təcəssümünü tapır. XX əsrdə Azərbaycan xalqının yetirdiyi dahi şəxsiyyət, dünyanın ən görkəmli dövlət xadimlərindən biri, Ulu Öndər Heydər Əliyev milli dövlətçilik düşüncəsini məhz ötən əsrin sonlarına doğru müstəqil Azərbaycan dövləti kimi əzəmətli bir reallığa qovuşdurdu, qurub yaratdığı bu dövlətin sarsılmazlığını, demokratik yüksəlişini, Azərbaycanımızın müstəqilliyinin əbədiliyini, daimiliyini, dönməzliyini təmin etdi.

Azərbaycan dövlətçiliyinin müasir tarixinə öz adını əbədi həkk etmiş bu fenomenal siyasi xadimin ölkəmizə rəhbərlik etdiyi illər milli tərəqqi, milli oyanış, nəhayət, müstəqil dövlət quruculuğu dövrü kimi qəbul edilir. Heydər Əliyevin siyasi və dövlət fəaliyyətinin ən böyük nəticəsi quruculuğuna bilavasitə rəhbərlik etdiyi və xalqımıza bəxş etdiyi mükəmməl milli dövlət, müasir müstəqil Azərbaycan Respublikasıdır.

Xalqının və dövlətinin müstəqilliyi, inkişafı naminə böyük və əvəzedilməz işlər görmüş Heydər Əliyev hər zaman fəxr edəcəyimiz, qürur hissi ilə xatırlayacağımız dahi şəxsiyyətdir. Heydər Əliyev böyük siyasətdə qarşıya qoyduğu hədəflərə doğru irəliləyərkən təkcə daxili inamına, iti fəhminə, yüksək intellektinə və parlaq zəkasına deyil, həm də ictimai etimada əsaslanmış və ən böyük dəstəyi xalqından almışdır. Şəxsiyyət və lider kimi böyüklüyü ona hələ sağlığında ikən ümummilli liderlik zirvəsini fəth etmək imkanı vermişdir. Məhz bu qeyri-adi xüsusiyyəti sayəsində ulu öndər həm də idarəçilikdə böyük uğurlara imza atmış, cəmiyyətin həlledici toplumunu arxasınca apara bilmişdir.

Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi bütün dövrlər xalqımızın milli mənlik şüurunun oyanması, azadlığa və müstəqilliyə qovuşmaq arzularının çiçəklənməsi, ictimai həyatın, iqtisadiyyatın bütün sahələrində, elm və mədəniyyətin inkişafında böyük nailiyyətlərin əldə edilməsilə əlamətdar olmuşdur. Ölkəmizin müstəqilliyinin və dünya iqtisadiyyatına dərin inteqrasiya prosesinin hazırkı möhkəm təməli məhz ümummilli liderin respublikaya rəhbərlik etdiyi 1969-1982-ci illərdə yaradılmış potensiala əsaslanır.

Ölkəmizin istiqlaliyyəti ikinci dəfə bütün dünyaya bəyan edildikdən sonra 1993-cü ilin iyununadək respublikamızda cərəyan edən mürəkkəb və ziddiyyətli proseslər, eyni zamanda, ölkənin müstəqilliyi üçün real təhdidlərin meydana çıxması, vətəndaş qarşıdurması meyillərinin güclənməsi, hüquqi nihilizmin, xaos və anarxiya mühitinin dərinləşməsi göstərdi ki, ölkəni yaranmış acınacaqlı vəziyyətdən yalnız Heydər Əliyev kimi müdrik və uzaqgörən şəxsiyyət xilas edə bilər.

Ümummilli Lider 1993-cü ildə xalqın təkidli çağırışına cavab verərək hakimiyyət sükanına keçdi, dahiyanə bir zəka və iradə ilə xilaskarlıq missiyasına başladı. Ulu öndər ilk növbədə vətəndaş müharibəsi təhlükəsini aradan qaldırdı. Azərbaycanda ictimai-siyasi sabitliyin yaradılması üçün ciddi və təxirəsalınmaz addımlar atdı. Bu istiqamətdə həyata keçirilən siyasətin ana xəttini isə qanunçuluq və möhkəm dövlət intizamının yaradılması təşkil edirdi.

Müstəqillik hər bir xalqın, dövlətin davamlı inkişafını milli ideya səviyyəsinə yüksəldərək mövcud iqtisadi, elmi-intellektual və mədəni potensialdan səmərəli istifadəyə geniş imkanlar yaradır. Müstəqillik nemətinə qovuşan hər bir xalq ilkin mərhələdə onu qoruyub saxlamaq, möhkəmləndirmək, dövlətin gələcək inkişafına etibarlı bünövrə hazırlamaq kimi məsuliyyətli və çətin mərhələni də keçməli olur. Müstəqil Azərbaycan 1993-cü ilin iyununda üzləşdiyi bu taleyüklü mərhələni məhz qətiyyətli və müdrik lider Heydər Əliyevin rəhbərliyi altında geridə qoydu, elmi təməl üzərində davamlı inkişaf yolunu müəyyənləşdirdi.

Ulu Öndər bir ictimai-iqtisadi formasiyadan digərinə keçid dövründə respublikanın qarşısında duran strateji vəzifə və hədəfləri düzgün müəyyənləşdirməklə dünyanın qabaqcıl dövlətlərinin təcrübəsində sınaqdan uğurla çıxmış, müsbət nəticələri sübut olunmuş inkişaf kursunun Azərbaycan gerçəkliyinə adekvat modelini yaratdı. Ölkədə aparılan müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatların və inkişafın mahiyyət etibarilə yeni bir modeli - Azərbaycan modeli formalaşdı. Bu modelin fərqləndirici xüsusiyyətini isə inkişaf üzrə müəyyən olunmuş istiqamətlərin sahəvi proqramlarla əlaqələndirilməsi, iqtisadi inkişafın obyektiv qanunauyğunluqlarını nəzərə alan, gələcəyə hesablanan cəsarətli qərarların qəbul olunması, sosialyönümlülüyün gözlənilməsi, milli mentalitetin nəzərə alınması və mütərəqqi dünya təcrübəsinə arxalanması təşkil edir.

Heydər Əliyev qısa zamanda özəl mülkiyyətçiliyə, sahibkarlığa, sərbəst rəqabətə meydan açan, sosialyönümlü mahiyyət daşıyan, habelə xarici iqtisadi əlaqələrin gücləndirilməsi və münbit biznes mühitinin formalaşdırılması yolu ilə ölkəyə investisiya axınını stimullaşdıran liberal inkişaf modelinin praktik surətdə gerçəkləşdirilməsinə nail oldu. "Azərbaycan dövlətinin strateji yolu yalnız demokratiya, sərbəst iqtisadiyyat prinsiplərinin bərqərar olması, bazar iqtisadiyyatı və sahibkarlığın inkişafıdır" - deyən Heydər Əliyev demokratik düşüncə və həyat tərzinin bütün dünyada diktə etdiyi bu meyarlara hər zaman sadiqlik göstərdi, milli inkişaf naminə bu yolun alternativsizliyi fikrinin ictimai rəyə aşılanmasına nail oldu.

Heydər Əliyevin ən böyük xidmətlərindən biri də Azərbaycanın öz təbii sərvətlərinə sahib çıxması, dünyanın əsas neft-qaz ixracatçısına çevrilməsidir. Heydər Əliyevin uzaqgörənliyi və qətiyyəti sayəsində 1994-cü il sentyabrın 20-də Bakıda müxtəlif ölkələrin neft şirkətləri ilə imzalanan "Əsrin müqaviləsi" Azərbaycanın yeni neft strategiyasının əsasını qoydu. Bununla da Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyasının və ölkənin enerji təhlükəsizliyinin möhkəm təməli qoyuldu.

Ümumilikdə, neft-qaz sektoru iqtisadiyyatın digər sahələrinin inkişafında da lokomotiv rolunu oynadı. Düşünülmüş iqtisadi siyasət nəticəsində makroiqtisadi sabitliyə nail olundu və davamlı iqtisadi artımın əsası qoyuldu. Beləliklə, Şərqlə Qərb arasında strateji körpü rolunu oynayan Azərbaycan əlverişli və əhəmiyyətli dövlətlərdən biri kimi bölgədəki lider statusunu təmin etdi.

***- Hazırda Heydər Əliyev siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlətimizin başçısının rəhbərliyi ilə həyata keçirilən siyasəti necə səciyyələndirərdiniz?***

- Ulu Öndər gələcək nəsillərə ölkəmizin davamlı inkişafının qarantı olan zəngin irs və siyasi məktəb miras qoymaqla canından çox sevdiyi Azərbaycan üçün ən böyük xidmətlərindən birini gerçəkləşdirdi. Heydər Əliyev Azərbaycan vətəndaşlarına ünvanlandığı müraciətində vurğulayırdı: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". 2003-cü ildə Azərbaycan xalqı Ulu Öndərin ölkəmizin müstəqilliyinin möhkəmlənməsinə, hərtərəfli inkişaf strategiyasına, aparılan məqsədyönlü siyasətinə sədaqətini prezident seçkilərində İlham Əliyevə 76 faiz səs verməklə sübut etdi.

Dövlət başçısı cənab İlham Əliyev 31 oktyabr 2003-cü il andiçmə mərasimində nitq söyləyərək vurğulamışdır: "Azərbaycan Respublikasının Prezidenti seçilməyimdə mənə göstərilmiş bu böyük etimada görə Azərbaycan seçicilərinə, Azərbaycan vətəndaşlarına, bütün Azərbaycan xalqına öz dərin təşəkkürümü bildirirəm. Mən bu böyük etimadı doğruldacağam, bu vəzifənin öhdəsindən layiqincə gələcəyəm. Heydər Əliyevin siyasətini davam etdirəcəyəm. Oktyabrın 15-də Azərbaycan xalqı seçki məntəqələrinə gələrək Heydər Əliyev siyasətinə səs veribdir. Sülhə, əmin-amanlığa, tərəqqiyə, inkişafa, quruculuğa, sabitliyə səs veribdir. Bu siyasətə Azərbaycanda alternativ yoxdur".

Beləcə zaman göstərdi ki, cənab İlham Əliyev ifadə etdiyi hər bir sözün arxasında dayanan və verdiyi vədlərə əməl edən liderdir. 16 ildir ki, Prezident İlham Əliyev müstəqil Azərbaycan dövlətçiliyini böyük uğurla inkişaf etdirir. Bütün sahələrdə sosial-iqtisadi proqramlar və layihələr yüksək səviyyədə icra edilir.

Dünyada baş verən qlobal maliyyə-iqtisadi böhran dövründə Azərbaycan iqtisadiyyatında ümumi daxili məhsul 3 faizdən çox artıb. Ölkədə sahibkarlığın inkişafı məqsədilə biznes mühitinin yaxşılaşdırılması, bu sahədə qanunvericilik bazasının təkmilləşdirilməsi, yerli və xarici investisiyaların, müasir texnologiyaların, idarəetmə təcrübəsinin cəlb edilməsi, rəqabətqabiliyyətli məhsulların istehsal edilməsi Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi iqtisadi inkişaf strategiyasının prioritet istiqamətləridir.

Dövlət başçısının 2003-cü il noyabrın 24-də imzaladığı "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" Fərmanda sahibkarlığın dinamik inkişafı sahəsində nəzərdə tutulmuş tədbirlərin müəyyənləşdirilməsi və ölkəyə xarici investisiyaların cəlb edilməsi məqsədilə beynəlxalq maliyyə institutları, xarici ölkələrin iş adamları və dövlət orqanları ilə danışıqlar aparılması tapşırığı qarşıya qoyulurdu. Daha sonra dövlət başçısı tərəfindən təsdiqlənən (2004-2008, 2009-2013, 2014-2018-ci illər) Azərbaycan Respublikası regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının əsas istiqamətlərindən biri də ölkədə daha əlverişli biznes və investisya mühitinin formalaşması, yeni istehsal və xidmət sahələrini yaratmaqla iş yerlərinin açılması, regionların istehsal potensialının genişləndirilməsini özündə ehtiva edirdi və nəticə etibarilə, ötən dövr ərzində bütün maliyyə mənbələri hesabına, bütövlükdə ölkə iqtisadiyyatına 250 milyard dollardan artıq sərmayə yatırıldı, 2 milyona yaxın yeni iş yeri açıldı.

***- Bu gün iqtisadiyyatın şaxələndirilməsi, əlverişli biznes mühitinin yaradılması, sahibkarlığın daha da inkişaf etdirilməsi xüsusi diqqət mərkəzindədir...***

- Bu gün iqtisadiyyatın şaxələndirilməsi tədbirləri, sahibkarlığın inkişafı, investisiya mühitinin daha da yaxşılaşdırılması nəticəsində qeyri-neft sektorunun dinamik inkişafı təmin edilib, onun real artım tempi neft sənayesinin artım tempini üstələyib.Son illərdə Azərbaycanda biznes mühitinin liberallaşdırılmasına və rəqabətqabiliyyətli məhsul istehsalının dəstəklənməsinə xidmət edən fərman və sərəncamlar qəbul edilib. Azərbaycan Prezidenti İlham Əliyevin "Qeyri-neft sektorunda rəqabətqabiliyyətli daxili istehsalın dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamı qeyri-neft sektorunda idxalı əvəzləyən məhsulların istehsal həcminin və çeşidlərinin sayını artırmaqla "Made in Azerbaijan" brendi ilə yerli məhsulların ixracının təşviqini stimullaşdırıb.

**Ardı Səh. 20**

# Gömrük xidməti Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə aparılan islahatların davamlılığını təmin etməklə iqtisadi təhlükəsizliyin keşiyində şərəflə duracaq

*Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyevin yap.org.az-a müsahibəsi*

Əvvəli Səh. 19

Ölkədə rəqabətqabiliyyətli qeyri-neft məhsulları istehsalının stimullaşdırılmasına, onun xammal bazasının yaxşılaşdırılmasına, idxalı əvəz edən məhsulların istehsalı məqsədilə yeni istehsal sahələrinin yaradılmasına və ixrac imkanlarının genişləndirilməsinə dövlət dəstəyinin artırılması, habelə Azərbaycan Prezidentinin 2016-cı il 6 dekabr tarixli, 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrindən irəli gələn tədbirlər aidiyyəti mərkəzi icra orqanları tərəfindən icra olunur. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair “Strateji Yol Xəritəsi” Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması üçün geniş imkanlar açıb.

Ötən dövr ərzində iqtisadiyyatın bütün sahələrində inkişaf tendensiyasının qorunub saxlanılması iqtisadi siyasətin əsas prioriteti olub. Bu baxımdan emal sənaye sahələri ilə yanaşı, xidmət sektorunun inkişafı da əsas hədəflərdir. Əlverişli coğrafi mövqeyə malik Azərbaycan son illər turistlərin daha çox üz tutduğu ölkələr sırasında yer almağa iddialıdır. Hər il ölkəmizə gələn turistlərin sayının artması da buna əyani sübutdur. Azərbaycan Respublikasının Prezidenti tərəfindən uğurla həyata keçirilən tədbirlər nəticəsində xidmət sferasında, o cümlədən turizm sahəsində sahibkarlıq fəaliyyəti üçün əlverişli mühit formalaşıb.

Bütün bunlarla yanaşı, Prezident İlham Əliyevin ötən dövr ərzində neft və qaz sahəsində Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum kimi nəhəng layihələrin reallaşmasına nail olması Azərbaycanın tarixi nailliyyətidir. Dövlət başçısı həmin məqamla əlaqədar qeyd edib: “Neft kəmərlərinin, xüsusi ilə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi də tarixi hadisə idi, təkcə ona görə yox ki, ilk dəfə olaraq Xəzər dənizinin nefti Aralıq dənizinin bazarlarına çıxarıldı. Eyni zamanada, ona görə ki, bu kəmər yeni bir yol, yeni bir dəhliz açdı”.

Son 16 ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkədə sosial-iqtisadi sahədə həyata keçirilən uğurlu işlərin nəticəsi xalqın rifahının yaxşılaşdırılmsına xidmət edir. İstər neft-qaz sahəsində, istərsə də qeyri-neft sektorunda strateji əhəmiyyət kəsb edən layihələrin uğurla həyata keçirilməsi ilə əldə olunan gəlirlər əhalinin sosial rifahının yüksəldilməsinə, sosial təminatının daha da inkişaf etdirilməsinə istiqamətlənir ki, bu da ölkəmizin sosial dövlət olduğunu dünyada bir daha təsdiqləyir.Hər növbəti il üzrə dövlət büdcəsinin gəlirlər və xərclər hissəsinin böyük artımla müşahidə olunması və büdcə daxilolmalarında qeyri-neft sektorunun payının 44 faizə çatması onu deməyə əsas verir ki, ölkədə islahatlar uğurla həyata keçirilir.

***- Məlumdur ki, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda genişmiqyaslı, sistemli islahatlar həyata keçirilir. Bu baxımdan, gömrük sistemində aparılan islahatlar nə kimi yenilikləri özündə ifadə edir?***

- Bu gün dövlət başçısının rəhbərliyi ilə aparılan islahatların əhatə dairəsi daha da genişləndirilib. Biznes mühitinin yaxşılaşdırılması, gömrük xidmətində idarəetmənin keyfiyyətinin daha da yüksəldilməsi, azad rəqabət mühitinin yaradılması Azərbaycan dövlətinin əsas prioritetlərindəndir.Ölkədə aparılan uğurlu iqtisadi islahatlar fonunda gömrük xidmətində həyata keçirilən islahatlar da xarici ticarət iştirakçılarının aktivliyini artırıb, biznes mühitinin əlverişliliyinin daha da yaxşılaşdırılması, rəqabətliliyinin qorunub saxlanması, şəffaflıq təmin edilib, eyni zamanda, dövlət büdcəsinə gömrük ödənişləri üzrə daxilolmaların məbləğ etibarilə artırılmasına nail olunub.

Son iki ildə “Dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş illik büdcə proqnozu ilə müqayisədə dövlət büdcəsinə 2 milyard manat artıq ödənişlər təmin olunub. 2019-cu ildə Dövlət Gömrük Komitəsi üçün qanunla təsdiqlənmiş 3 milyard 702 milyon manat büdcə öhdəliyinə qarşı 11 ay ərzində 4 milyard 6 milyon manat gömrük vergi və rüsumları toplanaraq dövlət büdcəsinə köçürülüb, proqnoza 611 milyon 610 min manat və ya 118,02 faiz, ötən ilin faktiki göstəricilərinə nisbətdə 753 milyon 300 min manat və ya 23,2 faiz büdcəyə artıq ödəmələr həyata keçirilib. Mövcud göstəricilər bu ilin sonunda daha da artacaqdır.

2019-cu ilin 11 ayı ərzində idxalın həcmi 12 milyard 384 milyon 671 min ABŞ dolları, ixracın həcmi 18 milyard 303 milyon 415 min ABŞ dolları, xarici ticarət üzrə dövriyyə 30 milyard 688 milyon 86 min ABŞ dolları təşkil etməklə 5 milyard 18 milyon 744 min ABŞ dolları həcmində müsbət saldo yaranıb. İdxal mallarına qanunvericilik aktlarına əsasən tətbiq edilən azadolmaları nəzərə alsaq, vergitutma bazası 50-55 faiz olmaqla, ötən illə müqayisədə dəyişməz qalıb.

Aparılan islahatların məntiqi nəticəsi olaraq, beynəlxalq təcrübəyə istinadən gömrük orqanlarının etibarını qazanan şəxslərə münasibətdə sadələşdirilmiş gömrük rəsmiləşdirilməsini və digər imtiyazları özündə ehtiva edən müxtəlif proqramlardan istifadə edilir. Mövcud proqramların mahiyyətini dövlət-özəl sektor tərəfdaşlığı, gömrük orqanlarının biznes subyektləri ilə qarşılıqlı əlaqələri təşkil edir. Bu cür sadələşdirmə proqramlarının ölkəmizdə tətbiq edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 21 dekabr 2018-ci il tarixli, 427 nömrəli Fərmanı ilə “Xarici ticarət iştirakçılarının “Yaşıl dəhliz” buraxılış sistemindən daimi istifadə hüququnu əldə etməsi, həmin hüququn dayandırılması, ləğvi və bərpası Qaydası” təsdiq edilib. “Yaşıl dəhliz” buraxılış sistemindən istifadə zamanı şəxslərə gömrük nəzarətinin sadələşdirilmiş formaları tətbiq edilməklə müəyyən üstünlüklər verilir. “Yaşıl dəhliz” buraxılış sistemindən daimi hüququn əldə olunması ilə əlaqədar 2019-cu il 1 fevral tarixindən daxil olan müraciətlər əsasında 500-dən artıq xarici ticarət iştirakçısına həm idxalda, həm də ixracda mövcud sistemdən istifadəyə icazələr verilib.

“Yaşıl dəhliz” və “bir pəncərə” kimi sistemlərin tətbiqi ticarətin asanlaşdırılmasına, tranzit yüklərinin daşınmasının sürətləndirilməsinə, eyni zamanda,”kölgə iqtisadiyyatı”na qarşı mübarizədə öz müsbət təsirini göstərib. Belə ki, dövlət başçısının “kölgə iqtisadiyyatı”na qarşı mübarizənin gücləndirilməsi barədə müvafiq icra orqanlarına verdiyi tapşırıqların yerinə yetirilməsinə dair çağırışlara artıq biznes subyektlərinin də qoşulması aparılan xarici ticarət əməliyyatları üzrə uçot və hesabatlılığın düzgün bəyan edilməsini şərtləndirib, dövlət büdcəsinə qanunla müəyyən edilmiş vergilərin və gömrük rüsumlarının vaxtında və artıqlaması ilə ödənilməsi təmin olunub.Görülən tədbirlər nəticəsində Dövlət Gömrük Komitəsində son iki ildə idxal-ixrac əməliyyatları üzrə şəffaflığın təmin edilməsi ilə beynəlxalq iqisadi münasibətlər kontekstində illik ticarət dövriyyəsi böyük həcmdə artıb ki, bu da “güzgülü statistik” uçotun aparılmasını asanlaşdırır.

Son iki il ərzində gömrük sahəsində hüquqpozmalara qarşı mübarizənin gücləndirilməsi və gömrük xidmətində əməliyyat-axtarış fəaliyyətinin genişmiqyaslı formada həyata keçirilməsi “kölgə iqtisadiyyatı”na vurulan əsas zərbələrdən biri kimi xarakterizə olunur. Belə ki, 2018 və 2019-cu illər ərzində “qara bazar”da satış dəyəri 300 milyon dollarla ölçülən, ümumi çəkisi 3 tondan artıq narkotik vasitələr qanunsuz dövriyyədən çıxarılıb, eyni zamanda, istehlak bazarında haqsız rəqabətə səbəb ola biləcək kontrafakt malların dövriyyəsinin qarşısı alınıb, qanun pozuntularına qarşı istintaq hərəkətləri həyata keçirilib.Bəşəri bir bəlaya çevrilmiş “kölgə iqtisadiyyatı”na qarşı mübarizənin gücləndirilməsi məqsədilə gömrük işinin daha da sadələşdirilməsi üçün əlavə tədbirlərin həyata keçirilməsinin prioritet istiqamətləri müəyyən edilib.

Dövlət başçısının daim diqqət və qayğısı ilə əhatə olunan gömrük xidməti növbəti illərdə də ölkədə aparılan islahatların davamlılığını təmin etməklə iqtisadi təhlükəsizliyin keşiyində şərəflə duracaq.

***- Səfər müəllim, bu gün Azərbaycanın uğurları gündən-günə artmaqdadır. Sizcə, bu amil ölkəmizin daha da inkişafı və güclənməsi üçün nə kimi perspektivlər vəd edir?***

- Ulu Öndər Heydər Əliyev ideyalarını mövcud şəraitdə reallığa çevirən, fundamental insan hüquqları prinsiplərinə sadiqliyini nümayiş etdirən cənab İlham Əliyev ədalətli vətəndaş cəmiyyətinin təşəkkül tapmasına təminat verir. Dövlətimizin başçısının vurğuladığı kimi: “Bizim uğurlarımız insanların, Azərbaycan xalqının dəstəyi və birbaşa iştirakı olmadan mümkün deyil. Bizim uğurlarımızın əsas mənbəyi Azərbaycan xalqının fəaliyyətidir, Azərbaycan xalqının iradəsidir”.

Prezident İlham Əliyevin xalqımızın bu günü və gələcəyi üçün reallaşdırdığı uzun bir dövrə hədəflənmiş hərtərəfli dinamik inkişaf xalqımızın firavan yaşamasına hesablanıb. Bu gün Azərbaycan qlobal siyasətdə öz müstəqil siyasətini yeridən, bütün istiqamətlərdə öz milli maraqlarını təmin edən müasir bir dövlət olaraq dünya dövlətləri arasında təsdiqini tapmışdır.

Cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin iqtisadi, siyasi, sosial və digər sahələri yüksələn xətlə daimi inkişafa doğru irəliləyəcəkdir. Ulu Öndər Heydər Əliyev siyasi kursunun davamçısı, Azərbaycan xalqının etimadını qazanan müdrik rəhbər Prezident İlham Əliyev qlobol dünyanın çağırışlarına uyğun müstəqil siyasət həyata keçirərək daha yeni uğurlara imza atacaq.

Dekabrın 24-də Prezident İlham Əliyevin doğum günüdür. Bu münasibətlə möhtərəm cənab Prezidentimizi ürəkdən təbrik edir, Azərbaycan Respublikasının uzun illərə hədəflənmiş dinamik inkişafının təmin edilməsi yolunda Ona daim uğurlar arzulayırıq.

## Saxtakarlıq və mənimsəmə halları Ermənistan üçün xarakterik olub



Regional stadionların inşası zamanı Ruben Ayrapetyanın fırıldaqları, maxinasiyaları barədə məlumatlar yayılıb. SİA Ermənistana məxsus armenianreport.ru saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu barədə Ermənistan İstintaq Komitəsinin mətbuat xidmətindən məlumat verilib.

Mətbuat xidmətindən verilən məlumata görə, işçilərlə birlikdə görülən genişmiqyaslı istintaq və prosessual hərəkətlər zamanı faktiki olaraq FFA-nın keçmiş sədri Ruben Ayrapetyana məxsus olan Zeytun Mebel Fabriki QSC tərəfindən stadionların tikintisi zamanı qanun pozuntularına yol verilib. Qanun pozuntularına dair cinayət işi üzrə ibtidai istintaq çərçivəsində Ermənistan Futbol Federasiyası ilə razılaşma əsasında Sisian, Sevan, Vanadzor, Armair, Vaqarşapat, Qumi, Nerkin Karmir Axpuredə stadionların inşası zamanı külli miqdarda məbləğlər mənimsənilib. Göründüyü kimi, saxtakarlıq və mənimsəmə halları Ermənistan üçün xarakterik olub. Əks halda, saxtakarlıq və qanunsuz əməllər, mənimsəmələr barədə hər gün yeni-yeni faktlar üzə çıxmazdı.

***İnam Hacıyev***

## Azərbaycanla Moldovanın ticarət dövriyyəsi 5 milyon dolları ötüb



Yanvar-noyabr aylarında Azərbaycan ilə Moldova arasında ticarət dövriyyəsi 5 milyon dolları keçib. Bu barədə AZƏRTAC-a Moldovanın Milli Statistika Bürosundan məlumat verilib. Bildirilib ki, hesabat dövründə ölkəmizin Moldovadan idxal etdiyi məhsulun dəyəri 4,5 milyon dollara yaxın olub. Azərbaycandan Moldovaya isə 630 min dollarlıq məhsul ixrac edilib. Xatırladaq ki, ötən il Azərbaycanla Moldovanın ticarət dövriyyəsi 7 milyon dollara yaxın olub.

# Bələdiyyə seçkiləri ümumxalq rəyi ifadə etdi

*Suraxanı rayonunda seçkilər müşahidəçilərin nəzarəti altında keçirildi*

***Dünən respublikanın ictimai-sosial həyatında əhəmiyyətli rol oynayan özünüidarəetmə orqanı olan bələdiyyə seçkilərinə səsvermə keçirildi. Seçki gününə qədər ölkə ərazisində aparılan təbliğat-təşviqat kampaniyası öz nəticəsini vermişdir. Azərbaycanın bütün rayonlarında olduğu kimi, Suraxanı rayonu ərazisində də seçki prosesi şəffaf və demokratik keçirildi. Suraxanı rayon təşkilatında 3 dairə - 30 saylı 1-ci Suraxanı Seçki Dairəsi, 31 saylı 2-ci Suraxanı Seçki Dairəsi və 32 saylı 3-cü Suraxanı Seçki Dairəsi fəaliyyət göstərir. Suraxanı rayonu ərazisindəki seçki dairələrinin məntəqələrində olub, seçkilərin gedişatı ilə maraqlandıq.***



Seçki məntəqələrində səhər saatlarından başlayaraq, seçicilər fəallıq nümayiş etdiriblər. Seçicilər yerli idarəetmə orqanları olan bələdiyyələrin insanların problemlərinin həllində mühüm rol oynadıqlarını bildiklərindən, ardıcıl olaraq, məntəqələrə gələrək, səsvermədə iştirak edirlər. Məntəqələrdə hər bir seçicinin özünün seçim hüququndan istifadə etməsi baxımından, lazımi şərait yaradılıb. Seçki prosesi müxtəlif siyasi partiyaların, eləcə də, müstəqil müşahidəçilərin nəzarəti ilə aparılır. Heç bir qanun pozuntusuna yol verilməyib.

30 saylı 1-ci Suraxanı Seçki Dairəsində 36950 nəfər seçici qeydiyyatdadır. Səhər məntəqələr açılandan seçicilər, tam müstəqil olaraq, öz seçdikləri namizədə səs verirdilər. Saat 12.00-da artıq dairə üzrə 5418 seçici səs vermişdi. Seçki hüququ olan şəxs heç kəsin müdaxiləsi olmadan seçimini gizli surətdə edirdi. Hətta yaşlı insanlar belə məntəqələrə gəlib öz seçimlərini edirdilər.

31 saylı 2-ci Suraxanı Seçki Dairəsinin məntəqələrində seçki çox demokratik şəraitdə keçirilirdi. Hər kəs gizli surətdə seçimini etmək iqtidarında idi. Hər şey ədalət prinsipi üzərində qurulmuşdu. Bu dairədə 39260 nəfər seçici qeydiyyatdadır. Saat 13.00-a kimi, 10 minə qədər seçici səs vermişdi. Bildiyimiz kimi, bələdiyyələrin əsas vəzifəsi vətəndaşlara xidmət etməkdir. Sosial problemlərin həllində onların üzərinə böyük məsuliyyət düşür. Bu gün, deyərdim ki, məntəqələrdə xüsusi fəallıq müşahidə olunurdu. Gənclər, xüsusilə, bu seçkilərdə maraqlı idilər. İlk dəfə seçkilərdə iştirak edən gənclərdə böyük əhvali-ruhiyyə hiss olunurdu. Demokratiyanın atributu seçki hüququdur. Seçicilər verilən bu hüquqdan istifadə edərək, müstəqil və sərbəst şəkildə səslərini namizədlərinə verirlər.

32 saylı 3-cü Suraxanı Seçki Dairəsini məntəqələrində də seçici fəallığı diqqətdən yayınmırdı. 39919 nəfər dairənin seçicisi qeydə alınıb. Bu dairənin məntəqələrində olduğumuz zaman burada da səsvermənin normal keçməsi üçün hər şey nəzərə alınmışdı. Yerli müşahidəçilər səsvermənin gedişini izləyirdilər. Hər şey qaydasında davam edirdi. Seçicilər bu günə qədər aparılan təbliğat-təşviqat kampaniyasından yararlanıblar. Öz namizədləri ilə tanışdırlar və məntəqədə, sərbəst olaraq, səslərini verirdilər. Seçkilər müstəqil Azərbaycanın demokratik prinsipləri əsasında keçirildi. Seçki sakit, heç bir qanun pozuntusu qeydə alınmadan aparıldı.

***Zümrüd BAYRAMOVA***

# Bakıda muzdla işləyənlərin orta aylıq əməkhaqqı artıb



On ayda paytaxtda muzdla işləyənlərin orta aylıq nominal əməkhaqqı ötən ilin müvafiq dövrünə nisbətən 7,9 faiz artaraq 845,1 manat təşkil edib. AZƏRTAC Bakı Şəhər Statistika İdarəsinin yaydığı məlumata istinadla xəbər verir ki, dövlətimizin başçısının müvafiq sərəncamları ilə reallaşdırılan kompleks sosial islahatlar nəticəsində sentyabrın 1-dən ölkədə minimum aylıq əməkhaqqı məbləğinin 250 manata qaldırılması, dövlət qulluqçularının, dövlət büdcəsindən maliyyələşən bir sıra idarə, müəssisə və təşkilatlarda, dövlət neft şirkətində çalışan işçilərin əməkhaqlarının əhəmiyyətli dərəcədə artırılması, bununla əlaqədar özəl sektorda çalışanların da əməkhaqlarının yüksəldilməsi və bu sahədə şəffaflaşma proseslərinin sürətləndirilməsi nəticəsində cari ilin oktyabr ayında şəhər üzrə orta aylıq nominal əməkhaqqı 923,8 manata çatıb. Bu, ötən ilin eyni ayı ilə müqayisədə 21,2 faiz çoxdur, cari ilin sentyabr ayı ilə müqayisədə isə 97 faiz təşkil edib.

# On bir ayda paytaxtın ticarət dövriyyəsi 18,6 milyard manat təşkil edib



Yanvar-noyabr aylarında paytaxtın ticarət dövriyyəsi ötən ilin eyni ayları ilə müqayisədə 3,6 faiz artaraq 18,6 milyard manat olub. AZƏRTAC Bakı Şəhər Statistika İdarəsinin yaydığı məlumata istinadla xəbər verir ki, ticarət şəbəkəsində satılmış ərzaq məhsulları, içkilər və tütün məmulatlarının dəyəri əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 3,4 faiz artaraq 8,5 milyard manat, qeyri-ərzaq məhsullarının həcmi isə 4 faiz çoxalaraq 10,2 milyard manat təşkil edib. İstehlak məhsullarının 28,9 faizi hüquqi şəxs statuslu müəssisələrdə, 48,2 faizi fərdi sahibkarlara məxsus ticarət obyektlərində, 22,9 faizi isə paytaxtın məhsul bazarlarında satılıb.

# Azərbaycanda növbəti demokratik seçki prosesi baş tutdu

***Ölkəmizdə demokratik prinsiplərin tam təzahür tapması seçki prosesində də açıq şəkildə müşahidə olunmaqdadır. Bu baxımdan da, bu günə qədər cəmiyyət həyatında və ölkəmizin demokratik imicinin formalaşmasında əsas amil olan seçki prosesi vətəndaş mövqeyinə və iradəsinə əsasən keçirilib. Dövlətimizin günü-gündən artan qüdrəti iqtisadi-siyasi sahədə əldə olunan uğurlar seçki prosesində də mütərəqqi ideyaların və bəşəri dəyərlərin təminatını mümkün etmişdir.***



Dünən dekabrın 23-də ölkəmizdə keçirilən bələdiyyə seçkiləri azad və şəffaf bir şəkidə baş tutdu. Bütün ölkə üzrə olduğu kimi, Nəsimi rayonunda da dairə və məntəqə seçkiləri dekabrın 23-də səhər saat 8-dən seçki qanuna uyğun olaraq, seçicilərin üzünə açılmış və vətəndaşların sərbəst heç bir maneə ilə üzləşmədən səs verməsi üçün münbit şərait yaradılmışdır.



Seçicilər axın-axın səsvermə məntəqələrinə gələrək, böyük fəallıq nümayiş etdirdilər. 23 saylı Nəsimi-Səbail Seçki Dairəsinin 15 saylı seçki məntəqəsində seçici fəallığı müşahidə olunurdu. Məntəqə sədri Fərid Mehdiyev ümumilikdə, məntəqədə 1283 seçicinin olduğunu bildirdi. Onun sözlərinə görə, səhər saat 8-dən səsvermə prosesinə start verilib və heç bir qanun pozuntusu və qeyri-ciddi hərəkət baş verməyib. Seçki prosesi başlanandan hər şeyin tam şəffaf və açıq şəkildə keçdiyini ifadə etdi.



23 saylı Nəsimi-Səbail Seçki Dairəsinin 14 saylı seçki məntəqəsinin sədri Dilşad Əsgərova məntəqədə 1314 nəfər seçicinin olduğunu bildirdi. Qeyd etdi ki, seçicilər öz mövqelərini sərbəst formada heç bir təzyiq və göstəriş olmadan ifadə edirlər. Müstəqil müşahidəçi Aynur Əsədova məntəqədə olduğu müddətdə prosesin gedişinə mane olacaq heç bir situasiyanın və amilin olmadığını vurğuladı. Seçki prosesinin qanuni tələblərinə uyğun keçirildiyini bildirdi.

Seçicilərin axın-axın səsverməyə gəldiyi məntəqələrdən biri də 23 saylı Nəsimi-Səbail Seçki Dairəsinin 18 saylı seçki məntəqəsi idi. Məntəqənin sədri Şəhla Əliyeva 1420 seçicinin qeydiyyatda olduğunu bildirdi. Məntəqədə yüksək seçici fəallığı müşahidə olunmaqla yanaşı, proses tam şəffaf və açıq şəkildə keçirilirdi. Məntəqə sədri bizimlə söhbətində seçkilərin normal qaydada keçdiyini heç bir seçiciyə təzyiq və göstərişlərin edilmədiyini vurğuladı. Müstəqil müşahidəçi Rübabə Əliyeva da seçkilərin demokratik prinsiplərə uyğun davam etdiyini diqqətimizə çatdırdı.

22 saylı Nəsimi Seçki Dairəsinin 26 saylı seçki məntəqəsində demokratik ab-havada keçirilən seçki prosesi vətəndaşların böyük fəallığı ilə sezilirdi. Məntəqə sədri Ağamayıl Baxşıyev 1431 seçicinin məntəqədə qeydiyyatda olduğunu diqqətə çatdırdı. Seçkinin gedişinin normal olduğunu söylədi. Qeyd etdi ki, vətəndaşlar sərbəst və azad tərzdə öz mövqelərini ifadə edirlər. Seçki prosesini müşahidəçi qismində izləyən Aydınlar Partiyasının üzvü Aynurə Talıbzadə prosesin tam şəffaf keçdiyini vurğuladı. Məntəqənin digər müşahidəçiləri də seçki prosesinin gedişi ilə bağlı heç bir iradların olmadığını söylədilər.

22 saylı Nəsimi Seçki Dairəsinin 27 saylı seçki məntəqəsinin sədri Sevil Hümbətova da vətəndaşların axın-axın seçki məntəqəsinə gələrək, öz mövqelərini ifadə etmələrində heç bir problemin olmadığını bildirdi. Dairə üzrə 1471 nəfər seçicinin qeydiyyatda olduğunu bildirərək, səsvermə prosesinin şəffaf şəraitdə keçdiyini söylədi. Səsvermənin gedişini yerli müşahidəçilərin izlədiyini bildirən məntəqə sədri heç bir pozuntu ilə bağlı müraciətlərin olmadığını söylədi. Seçicilərdən 1935-ci il təvəllüdlü Telman Əliyev də səsvermədə fəal iştirak edirdi.

Ana Vətən Partiyanısın müşahidəçisi Namiq Qafarov bildirdi ki, seçki prosesinin başlanmasından keçən müddətdə heç bir narazılıq və ya şikayət qeydə alınmayıb. Bütün seçicilərə rahat səsvermə şəraiti yaradılıb. Səsvermədə iştirak edən seçicilər də prosesdən razılıqlarını bildirdilər.

22 saylı Nəsimi Seçki Dairəsinin 25 saylı seçki məntəqəsinin sədri Zeynalova Nazimə 1379 nəfər seçicinin qeydiyyatda olduğunu diqqətə çatdırdı. Müstəqil müşahidəçi Güləbətin Məhərrəmova, eləcə də, Azərbaycan Sosial Demokrat Partiyasının müşahidəçisi Yeganə Ələkbərova seçki məntəqələrində səsvermənin qanunvericiliyə uyğun olaraq mütəşəkkil qaydada davam etdiyini vurğuladılar.

22 saylı Nəsimi Seçki Dairəsinin 24 saylı seçki məntəqəsi, 23 saylı Nəsimi-Səbail Dairəsinin 11 saylı seçki məntəqəsində və digər məntəqələrdə də seçkilər tam şəffaf şəkildə keçirilirdi. Seçicilərdə bir bayram əhvali-ruhiyyəsi də var idi. Bir qisim seçici də ailə üzvləri ilə məntəqələrə gələrək, öz namizədlərinə səs verdilər.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Yadigar Sadıqlının Müsavatdan istefasının mümkünlüyü artır

## *Başqanlığa keçmiş namizədin adının siyahıda olmaması partiyadaxili vəziyyəti daha da gərginləşdirib*

***Müsavatın sonuncu qurultayında başqanlığa namizəd olmuş və Arif Hacılının müdaxiləsi nəticəsində, qəsdən uduzdurulmuş Yadigar Sadıqlının hazırkı başqanla və onun ətrafı ilə ziddiyyətləri tükənmir. Əksinə, yaranmış intriqa daha da dərinləşir və budəfəki səbəb onun adının parlament seçkilərində iştirak edəcək namizədlərin sırasında yer almamasıdır. "Facebook" sosial şəbəkəsi vasitəsi ilə, artıq bir neçə gündür ki, A.Hacılını, ümumiyyətlə isə, Müsavatın divan və məclis sədrliyini ağır şəkildə ittiham edən Y.Sadıqlı, bu dəfə yazıb ki, o, Müsavat partiyasının indiki rəhbərliyinin, onun namizədliyini dəstəkləməməsinə görə, namizədliyini müstəqil şəkildə irəli sürüb.***



### "Bilirəm, məhkəməmdə üzümə duranlar kimi məxluqları yenə üstümə göndərəcəklər"

"Onlar (partiya rəhbərliyi - R.N.) mənimlə əlaqə saxlamadılar, mən də müraciət etmədim" deyə yazan Sadıqlı boş yerə vaxt itirməmək üçün, hələ dekabrın 12-də müəyyən olunmuş Dairə Seçki Komissiyasına ərizə ilə müraciət edərək, öz təşəbbüsü ilə müstəqil şəkildə deputatlığa namizədliyini irəli sürdüyünü bildirib. Maraqlısı da budur ki, Y.Sadıqlı əvvəlcədən bu məsələdə özünü sığortalamağı da unutmayıb. Bu baxımdan, o deyib: "Amma bunu heç kəsə bildirməmişdim ki, günah mənim üzərimdə qalmasın. "Biz irəli sürəcəkdik, amma özü sürdü" deməsinlər". Artıq imza vərəqələrini də götürəcəyini yazan müsavatçı funksioner, onu da əlavə edib ki, ümumiyyətlə, onun namizədliyini istəməyənlər vaxtilə elə onun üzünə məhkəmələrdə duranlardırlar: "Bilirəm, qeydə almaya bilərlər. Bilirəm, min-bir əngəl törədəcəklər. Bilirəm, məhkəməmdə üzümə duranlar kimi məxluqları yenə üstümə göndərəcəklər. Bilirəm, yenə xeyli zəhmət və əsəb xərcləyəcəm. Bir çoxları kimi, say xətrinə formal namizədlik olmayacaq, həqiqətən, mübarizə aparacağam. Tanrı utandırmasın".

### Səxavət Soltanlı: "Yadigar Sadıqlı partiyanın namizədi olmamaq üçün riyakarlıq edib, gizli şəkildə namizədliyini verib"

A.Hacılı klanının üzvü, başqan müavini Səxavət Soltanlı da Y.Sadıqlının cavabını verməyə gecikməyib, hətta qarşı tərəfi riyakar belə adlandırıb. Başqan müavini, öz növbəsində, belə bir iddia irəli sürüb ki, məclis toplantısında bütün rayon təşkilatlarına və üzvlərinə açıq formada müraciət edib: "Kim hansı dairədən namizəd olmaq istəyirsə, partiyaya bildirsin. Kim ki, müraciət edib müzakirə edilib" deyə cavab statusu yazan Soltanlı əlavə edib ki, Yadigar Sadıqlı partiyanın namizədi olmamaq üçün riyakarlıq edib, gizli şəkildə namizədliyini verib. Onun digər iddiasına görə, Y.Sadıqlı müsavatçıların seçki işinə rəhbərlik edən Gülağa Aslanlıya da heç bir müraciət etməyib: "Baxmayaraq ki, siyahı açıqlandıqdan 2 gün əvvəl, partiyanın mərkəzi qərargahında olub. Partiya üzvü partiyaya müraciət etmədən, latent şəkildə DSK-ya gedib namizədlik verib, bu hərəkətinə görə, ən azı, partiya üzvlərindən üzr istəmək əvəzinə, yenə də partiyanı borclu çıxarmağa çalışır. Namizəd olacağını sosial şəbəkədə belə elan etsəydi, partiya onu rəsmən dəstəkləyəcəkdi. O müraciətindən sonra partiya onu dəstəkləməsəydi, bundan növbəti şou düzəldərdi. O zaman haqlı da olardı".

### Müsavatın sabiq məclis üzvü Könül Şamilqızı: "İşverən olduğu elə-günə, hamıya bəlli olan birini gətirib Müsavata üzv elədilər"

Daha bir maraqlı məqam bir sıra müsavatçıların və eks-müsavatçıların Y.Sadıqlının mövqeyinə dəstək göstərmələri, üstəlik, partiya rəhbərliyində oturanları ən ağır şəkildə ittihamlar irəli sürmələridir. Məsələn, Müsavat iəclisinin sabiq üzvü Könül Şamilqızı da, sözügedən məsələyə reaksiya sərgiləyib, xüsusilə, A.Hacılının müavini S.Soltanlını işverən adlandırıb, belə bir adamın partiyaya üzv edilməsini yolverilməz olduğunu deyib: "İşverən olduğu elə-günə, hamıya bəlli olan birini gətirib Müsavata üzv elədilər. Camaat da, haqlı olaraq, bu biabırçılığın səbəbini soruşur. Cavab verən yoxdur. Biri deyir ki, 2005-də olan işverənliyi 2019-da niyə yada salırsız ki? Biri hələ də suala cavab verməkyerinə həyasızcasına Yadigar Sadıqlını ittiham eləyir. Əmsalı görünməmiş riyakarlıqla qarşı-qarşıyayıq, sadəcə, biz müsavatçılar deyil, bütün Azərbaycan cəmiyyəti..."

### Tural Abbaslı: "Biz bu məsələləri qaldıranda xəyanətdə, iqtidarın "dəyirmanına su tökmək"də ittiham eləmişdilər"

Vaxtilə Müsavat daxilindəki haqsızlıqları, avtoritar idarəçiliyi və saxtakarlıqları əsas gətirərək, partiyadan istefa vermiş, hazırda isə, "Ağ Partiya" adlı siyasi təşkilata sədrlik edən Tural Abbaslı da, öz növbəsində, bildirib ki, bu gün Müsavatda baş verənlər, illər öncə, qoyulmuş saxtakarlıqların məntiqi nəticəsidir. O, müstəqil mətbuatlardan birinə verdiyi açıqlamasında deyib ki, onlar da eyni aqibətlə üzləşiblər: "Partiya 2015-ci il parlament seçkilərində əleyhimizə namizədlər verdi. Məni, Əhədi və Rüfəti dəstəkləmədilər. Biz bu məsələləri qaldıranda xəyanətdə və iqtidarın "dəyirmanına su tökmək"də ittiham eləmişdilər. Arif Hacılının əleyhinə olanları şəfibəyçilər adlandırmışdılar. İndi özlərini şəfibəyçi elan edirlər".

Abbaslı Müsavat partiyasının bugünkü halının təəssüf doğurduğunu bildirib və deyib ki, parlamentdə namizədliyə partiyanın nüfuzlu şəxsləri önə çəkilməlidir. "Onlar partiyada divan və ya məclis üzvü seçilməyə bilərlər və bu, normal qarşılanar. Amma cəmiyyətdəki nüfuzları nəzərə alınmalıdır və seçkidə onlar irəli aparılmalıdır" deyə müxalifətçi partiya sədri bildirib.

Ümumiyyətlə isə, fakt budur ki, nəinki Y.Sadıqlı, eləcə də, digər bir sıra müsavatçılar istər A.Hacılının və ona yaxın klanın, istərsə də sabiq başqan, "MSDM" sədri İsa Qəmbərin təzyiqlərinə məruz qalırlar. Bu baxımdan, Y.Sadıqlının parlament seçkilərindən sonra Müsavat partiyasından istefası reallığı artıq indidən görünməyə başlayıb. Lakin onunla yanaşı, digər etirazçı müsavatçıların da kütləvi istefaları seçkilərdən sonra baş tutacaq. Bu isə, bütövlükdə, köhnəlmiş, heç bir daxili islahatlar keçirməmiş Müsavat partiyasının siyasi arenadan silinməsi prosesini daha da sürətləndirəcək.

***Rövşən NURƏDDİNOĞLU***

# Müxalifət seçkilərdən qorxur

***Yeni Azərbaycan Partiyasının parlamentin buraxılması ilə bağlı təşəbbüsü və bu təşəbbüsün Milli Məclis tərəfindən dəstəklənməsinin ardınca Konstitusiya Məhkəməsi də, məsələyə müsbət qərar verib. Dağıdıcı xislətli müxalifət təmsilçiləri isə ənənələrinə uyğun olaraq, anormal fikirlər səsləndirib, şər və böhtan xarakterli açıqlamalarla çıxışlar edirlər. Söhbət etdiyimiz müsahiblərimiz dağıdıcı müxalif partiya funksionerlərinin müstəqil mövqedə olmadıqlarını, onları xarici maraqlı dairələrin təlimatlandırdıqlarını bildirdilər.***



### "Azadlıq Hərəkatçıları" Birliyinin sədri Təhmasib Novruzov: "Müxalifət qaragüruhçu mübarizə yoluna üstünlük verir"

- Dağıdıcı müxalifət sivil siyasi mübarizə yoluna deyil, qeyri-sivil, qaragüruhçu mübarizə yoluna üstünlük verir. Cəmiyyətlərdə siyasi müxalifət daha çox seçkilərə və bu seçkilərdə qələbəyə can atmağa üstünlük verirsə, bizim qaragüruhçu müxalifətimiz bundan açıq-aşkar qorxur. Bu da təbiidir. Çünki xalq arasında nüfuzu, elektoratı olmayan hər bir siyasi qüvvə seçkilərdə məğlub olacağını əvvəlcədən bilir və ona görə də, seçkilərə getməkdən ehtiyatlanır. Belə siyasi müxalifət (əslində, onları siyasi biznesmen adlandırmaq daha doğrudur), fəaliyyətlərini yalnız müxaliflik fonu yaratmaq, bununla, Azərbaycanın inkişafını istəməyən həm xarici, həm də daxili qüvvələrin maliyyəsindən yararlanmaq yolu seçirlər. Ona görə dəÖ onlar xalqın içinə getmək, xalqın dəstəyini qazanmaq əvəzinə, ya Şimala, ya Cənuba, əsasən də, Qərbə üz tuturlar. Ona görə də, cəmiyyət içərisində heç bir siyasi dividend qazana bilmirlər və nəticədə, istənilən seçkilərdə məğlubiyyətlərini bildiklərindən müxtəlif bəhanələrlə özlərini sığortalamağa çalışırlar. Baxın, yaxın günlərdə ölkədə bələdiyyə seçkiləri keçiriləcək. Bir neçə müxalif partiya seçkilərdə namizədləri ilə iştirak etsələr də, ümumilikdə, bu düşərgədə belə mühüm kampaniyaya bir soyuq münasibət izləyirik. Halbuki müxalifət qələbəyə doğru addımlarını, məhz aşağı qurumlara keçirilən seçkilərdə yerlər qazanmaqla başlamalıdır. Amma bunlar elə mövqe tutublar ki, sanki heç bu ölkədə belə bir mühüm seçki keçirilmir. Yenə səbəb odur ki, hətta bələdiyyələrdə belə xalqın onlara etimad göstərməyəcəyini yaxşı bilirlər. Ölkənin hakim partiyası olan Yeni Azərbaycan Partiyası, məhz özü növbədənkənar seçkilərin keçirilməsini istədiyi halda, siyasi opponentlərin indiki yanaşması, sadəcə, gülüş doğurur. Hələ seçkilərin keçirilməsi vaxtı müəyyən edilmədiyi halda, indidən bəzi partiyaların iştirak etməyəcəyi haqqında bəyanatlar səsləndirməsi də, yuxarıda sadaladığım faktorlarla bağlıdır. Hələ boykotun nə olduğunu anlamayan bəzi siyasilər utanmadan seçkiləri boykot etmək haqqında da fikirlər səsləndirirlər. Bu siyasət dəllalları hələ də anlamırlar ki, seçkiləri o siyasi qüvvə boykot edə bilər ki, onun cəmiyyətdəki nüfuzu hakimiyyətdə olan siyasi qüvvənin nüfuzundan artıq olsun. Bizdə isə indiki halda bunu demək, sadəcə, haqqı və reallığı danmaq olardı. Bunlara küçələrdə çığır-bağır salıb ağalarından pul qoparmaq lazımdı, onu da edirlər.

### "Paralel" qəzetinin baş redaktoru Tapdıq Abbas: "Müxaliflər indidən seçki məğlubiyyətlərini görürlər"

- Yeni Azərbaycan Partiyasının Prezidentə müraciət etməsi və Prezidentin Milli Məclisin buraxılması ilə bağlı Konstitusiya Məhkəməsinə müraciət etməsi, Konstitusiya Məhkəməsinin məsələyə müsbət rəy verməsi cəmiyyətin maraqlarına tam uyğundur. Lakin bunun müxalifət düşərgəsini təmsil edən şəxslərin narazılıqla qarşılamaları və etiraz bildirmələri onların xalqdan ayrı düşdüklərinin göstəricisidir. Müxalifətin hər şeydən özünü narazı kimi göstərməsi, etiraz etməsi onların acizliyinin nəticəsidir. Əgər müxalifət güclü olsaydı və seçkilərə hazır olsaydı, onda bu məsələlərə narazılıq etməzdirlər. Bu gün ən ciddi müxalifət partiyasının belə heç seçki məntəqələrinə namizəd verməyə nümayəndəsi yoxdur. Çünki müxalifət partiyaları xalq tərəfindən dəstəklənmir. Demək olar ki, müxaliflər indidən seçki məğlubiyyətlərini görürlər. Yəni ölkədə keçirilən bu seçkilərdə heç bir nəticə əldə edə bilməyəcəklərinə görə, indidən başlayırlar narazılıq etməyə. Ancaq müxalifətin bu narazılıqlarına əhəmiyyət verməyə ehtiyac yoxdur. Seçkilər tam normal, azad və demokratik şəraitdə keçiriləcəkdir.

### AGAAMC-nin sədri, fəlsəfə doktoru İlqar Orucov: "Müxalifətlərin parlamentə düşmək şansları yoxdur"

- Yeni Azərbaycan Partiyasının parlamentin buraxılması ilə bağlı məlum təşəbbüsü müxalifətə növbəti parlament seçkilərinə qatılmaq üçün yenidən imkan verdi və ona görə də, müxalifətin məsələyə adekvat münasibəti, əslində, prosesi dəstəkləmək olmalı idi. Müxalifət isə, tam əksinə olaraq, narazılığını ortaya qoydu. İndiyədək mövcud parlamentin fəaliyyətini bəyənməyən, yeri gəldi-gəlmədi parlamenti sərt şəkildə tənqid edən müxalifətin məlum mövqeyi xeyli suallar doğurur. Parlamentin buraxılmasının hüquqi tərəfini ölkənin ən yüksək məhkəmə instansiyası olaraq, Konstitusiya Məhkəməsi araşdıraraq, müvafiq qərar qəbul etdi. Deməli, parlamentin buraxılması prosesi tamamilə qanunvericiliyə uyğun baş verdi və burada narahatedici hansısa məqamdan danışmaq mənasız və absurddur. Hamımız bilirik ki, parlamentdə təmsil olunmaq insanların seçimi ilə baş tutur və bu gün özünə müxalifət deyən istənilən qüvvənin imkanları, sosial elektoratı varsa və bu qüvvələr öz potensiallarına əmindirlərsə, növbəti siyasi mübarizəyə qoşulmalı və seçkidə iştirak edərək parlamentdə mövqelərini təmin etməlidirlər, hakimiyyətin qanunverici qolunda təmsilçiliklərini reallaşdırmaq imkanlarını gerçəkləşdirməlidirlər. Amma müxalifətin münasibəti, bir daha onu göstərir ki, mövcud müxalifətin öz imkanlarını bildiyindən yalandan panika yaratmağa cəhd edir. Müxalifətlərin parlamentə düşmək şansları yoxdur və indidən məğlubiyyətlərini dərk edərək, seçkilərlə bağlı mənfi rəy formalaşdırmaq istəyirlər.

***GÜLYANƏ***

# Hüququ təbliğ və müdafiə edən ictimai birliklər

***"Hüquq Dünyası" Hüquqi Təbliğat İctimai Birliyi hal-hazırda Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin dəstəyi ilə "Sağlamlıq imkanları məhdud uşaqlar üçün Kürdəmir rayonu üzrə icma əsaslı sosial reabilitasiya mərkəzinin fəaliyyətinin təşkili" sahəsində sosial xidmət sifarişini icra edir. Sosial sifarişin icrası müddətində 0-18 yaş arası Sağlamlıq imkanları məhdud uşaqlara sosial-psixoloji reabilitasiya, ailəyə dəstək və ailənin maarifləndirilməsi xidmətləri göstərilir.***

Kürdəmir şəhərində 3 Dekabr Beynəlxalq Əlilər Günü münasibəti ilə tədbir keçirmişdir. Tədbirə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun Kürdəmir rayon şöbəsinin əməkdaşları, Şəhər Poliklinikasının həkimi, mərəkəzə cəlb olunmuş uşaqlar, valideynlər, Qarabağ və Çernobil əlliləri dəvət olunmuşdur.

Tədbiri giriş sözü ilə açan birliyin sədri Rafiq Alışov Birləşmiş Millətlər Təşkilatının təşəbbüsü ilə dünya miqyasında keçirilən 3 Dekabr - Beynəlxalq Əlillər Günündən danışmışdır. Tədbiri Kürdəmir rayon Uşaq Yaradıcılq Mərkəzinin və mərkəzə cəlb olunmuş sağlamlıq imkanları məhdud uşaqların hazırladıqları kompozisiya ilə davam etdirilmişdir. "Hüquq və İnkişaf" İctimai Birliyi ABŞ-ın Azərbaycandakı səfirliyinin maliyyə dəstəyi ilə həyata keçirdiyi "Qeyri-hökumət təşkilatlarına aid qanunvericiliyə edilən dəyişikliklərlə bağlı qeyri-hökumət təşkilatlarının bacarıqlarının inkişaf etdirilməsi" layihəsi çərçivəsində Mingəçevir Gənclər Evində növbəti təlim keçirib. Təlimin məqsədi qeyri-hökumət təşkilatları haqqında qanunvericiliyə sonuncu dəyişikliklərlə bağlı yeli qeyri-hökumət təşkilatları təmsilçilərinin, ictimai-fəal gənclərin, o cümlədən, media təmsilçilərinin məlumatlandırılmasından ibarət olub. Tədbirdə "Qeyri-hökmət təşkilatların haqqında edilmiş əlavələr və dəyişikliklər" və "Qeyri-hökumət təşkiltalarının hüquqi öhdəlikləri və sanksiyalar" mövzularında birliyin təmsilçiləri Hafiz Həsənov və Azər Qasımov çıxış ediblər. Hər iki məruzədən sonra tədbir iştirakçılarının sualları cavablandırılıb və müzakirələr aparılıb. Tədbirin keçirilməsinə Mingəçevir şəhər icra hakimiyyəti və Mingəçevir Gənclər və İdman İdarəsi, habelə, Mingəçevir Gənclər Evi, Mingəçevir Regional Debat Mərkəzi tərəfindən dəstək verilib.

"Hüquq və İnkişaf" İctimai Birliyi Avropa İttifaqının maliyyə yardımı ilə BMT-nin İnkişaf Proqramı tərəfindən həyata keçirilən "Əhalinin həssas qruplarının sosial-iqtisadi hüquqlarının təmin olunmasında vətəndaş cəmiyyətinin rolunun gücləndirilməsi" layihəsi çərçivəsində icra etdiyi "Azərbaycanda sosial hüquqlar və onun müdafiəsinin təkmilləşdirilməsi" layihəsi üzrə Bakı şəhərində "Sosial hüquqlar və onun hüquqi müdafiəsi" mövzusunda dəyirmi masa keçirib.

Dəyirmi masanın açılışında çıxış edən layihə rəhbəri Gülşən Rzayeva BMT-nin İnkişaf Proqramı (UNDP) tərəfindən həyata keçirilən "Əhalinin həssas qruplarının sosial-iqtisadi hüquqlarının təmin olunmasında vətəndaş cəmiyyətinin rolunun gücləndirilməsi" layihəsinin məqsədləri və bu çərçivəsində icra edilən daha 11 layihə haqqında ümumi məlumat verib.

Sonra "Hüquq və İnkişaf" İctimai Birliyinin sədri Hafiz Həsənov "Sosial hüquqlar və onun hüquqi müdafiə mexanizmləri" mövzusunda çıxış edib və bu layihə çərçivəsində hazırlanan "Sosial hüquqlara dair qanunvericiliyin analizi və tövsiyələr" sənədini təqdim edib. H.Həsənov çıxışında hazırlanan sənədin əhatə etdiyi pensiya təminatı, ünvanlı dövlət sosial yardımı, sosial müavinələr, əlillərin sosial müdafiəsi, sosial xidmətlər, qaçqınlar və məcburi köçkünlər və icbari tibbi sığorta məsələləri üzrə prioritet hesab edilən tövsiyələrlə tədbir iştirakçılarını geniş məlumatlandırıb.

Dəyirmi masada məruzədən və təqdimatdan sonra müzakrələr aparılıb. Müzakirələrdə çıxış edən qeyri-hökumət təmsilçiləri və hüquqşünaslar - Bəşir Süleymanlı, Ruhəngiz Hüseynova, Abil Bayramov, Cəsarət Hüseynzadə, Əliməmməd Nuriyev, Ziya Quliyev, Davud Rəhimov, Mirəli Hüseynov, Zaur Əkbər və Nabat Qəniyeva, habelə, Dövlət Sosial Müdafiə Fondunun təmsilçisi Azəri Məmmədov məruzə və təqdim edilən sənədlə bağlı münasibətlərini bildirib və təklifləri irəli sürüblər.

Dəyirmi masada qərara alınıb ki, verilən təkliflər nəzərə alınmaqla, "Sosial hüquqlara dair qanunvericiliyin analizi və tövsiyələr" sənədi bir daha təkmilləşdirilsin və müvafiq dövlət orqanlarına təqdim edilsin.

Sabirabad rayonunda Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin Birinci Konfransı keçirilib.

Konfransda Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, millət vəkili, Milli Məclisin Gənclər və İdman Komitəsinin sədri Fuad Muradov, RİİB könüllüləri, müxtəlif regionların, eləcə də, beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər.

Əvvəlcə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın konfrans iştirakçılarına təbrik məktubu oxunub. Məktubda bildirilir ki, bu gün Azərbaycan müstəqil siyasət yürüdən, beynəlxalq aləmdə ciddi mövqe qazanan qüdrətli dövlətdir. Ölkəmizin bütün şəhər və rayonlarında abadlıq-quruculuq işləri aparılır, yeni təhsil və tibb müəssisələri inşa edilir, infrastruktur layihələri həyata keçirilir. Heydər Əliyev Fondu da yarandığı ilk gündən ictimai həyatın, demək olar ki, bütün sahələrində fəal iştirak edərək, əhalinin müxtəlif problemlərinin həllinə çalışır. "Bizim həyata keçirdiyimiz hər bir layihə, ilk növbədə, vətəndaşların maraqlarını qorumağa və köməyə ehtiyacı olan insanlara yardım etməyə yönəlib. "Regional İnkişaf" İctimai Birliyini təsis edərkən, əsas məqsədimiz dövlət qurumları, qeyri-hökumət təşkilatları, sahibkarlar və yerli əhali arasında konstruktiv əməkdaşlıq modeli yaradaq insanları narahat edən problemlərin aradan qaldırılmasına nail olmaq idi. Düşünürəm ki, biz bunu bacardıq. Regionlarda ictimai nəzarətin gücləndirilməsi, vətəndaş cəmiyyəti quruculuğu, ölkəmizin ictimai-siyasi və sosial-mədəni həyatını əhatə edən mühüm layihələrin reallaşdırılması istiqamətində uğurlu nəticələr əldə edilmişdir. "Regional İnkişaf" İctimai Birliyinin təşəbbüslərinə qoşularaq, layihələrin icrasında xüsusi fəallıq göstərən könüllülərin fəaliyyətini qeyd etmək istəyirəm. Siz, Azərbaycan gəncləri olaraq, dövlətin sizə göstərdiyi yüksək diqqət və qayğıya layiqincə cavab verərək, ölkəmizdə vətəndaş cəmiyyəti quruculuğunun fəal iştirakçısına çevrilmisiniz. Amma qarşıda sizi yeni hədəflər və yeni vəzifələr gözləyir. Hər birinizə bu şərəfli və xeyirxah, eyni zamanda, məsuliyyətli işinizdə müvəffəqiyyətlər arzulayıram. Əminəm ki, konfransda aparılacaq geniş və səmərəli müzakirələr gələcək fəaliyyətinizdə məqsədyönlü tədbirlərin həyata keçirilməsinə öz töhfəsini verəcəkdir" deyə məktubda qeyd olunur.

Konfransda çıxış edən Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov bildirib ki, Heydər Əliyev Fondu yarandığı ilk gündən humanizm və insansevərlik ideallarına arxalanaraq, xalqımıza xidməti özünün başlıca məqsədi kimi müəyyən edib. Onun sözlərinə görə, Heydər Əliyev Fondu hər zaman fəaliyyətində cəmiyyətimizin daha çox qayğıya ehtiyacı olan təbəqələrinə - valideyn himayəsindən məhrum olmuş uşaqlara, şəhid ailələri, qaçqın və məcburi köçkünlərə, qocalara və müxtəlif xəstəliklərdən əziyyət çəkən uşaqlara yönələn layihə və proqramların icrasını ön plana çəkir. "Regional İnkişaf" İctimai Birliyinin təsis edilməsində əsas məqsəd isə bölgələrdə yaşayan vətəndaşların üzləşdikləri problemlərin, yerli əhalini kompleks şəkildə narahat edən məsələlərin aradan qaldırılmasına yönəlib.

Anar Ələkbərov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə regionların inkişafı strategiyasının uğurla həyata keçirilməsinin, nəinki bölgələrin, ümumiyyətlə, bütün Azərbaycanın inkişafına təsir etdiyini, regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarında nəzərdə tutulan tədbirlərin uğurlu icrasının ölkəmizin sosial-iqtisadi inkişafında yeni mərhələnin başlanğıcını qoyduğunu vurğulayıb. Bununla yanaşı, insanların müxtəlif növ problemlərlə üzləşərək, onların həlli üçün ayrı-ayrı qurumlara müraciət etdiyini deyən Anar Ələkbərov "Regional İnkişaf" İctimai Birliyinin, məhz həmin problemləri aidiyyəti təşkilatlara çatdıran vasitəçi qurum kimi fəaliyyətə başladığını bildirib.

Birliyin fəaliyyət dövrü ərzində vətəndaşlardan daxil olan müraciətlərə həssaslıqla yanaşaraq, əməkdaşlığa daim hazır olan strukturlara təşəkkürünü bildirən Anar Ələkbərov vətəndaşların müraciətlərinə lazımi diqqət göstərməyən qurumlarla da rastlaşdıqlarını təəssüflə qeyd edib.

Təşkilatın fəaliyyətində RİİB könüllülərinin rolunu xüsusi qeyd edən Anar Ələkbərov onların ictimai birliyin bütün tədbirlərində fəal iştirak etdiyini, hazırda 350-dən çox könüllü korpusunun olduğunu deyib. Könüllülərin idman tədbirlərində, marafonlarda, xeyriyyə aksiyalarında, ekoloji layihələrdə və xüsusilə də, ağacəkmə kampaniyalarında yaxından iştirakı təqdirəlayiqdir.

***VAHİD ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

Heydər Əliyev Fondu hər zaman fəaliyyətində cəmiyyətimizin daha çox qayğıya ehtiyacı olan təbəqələrinə - valideyn himayəsindən məhrum olmuş uşaqlara, şəhid ailələri, qaçqın və məcburi köçkünlərə, qocalara və müxtəlif xəstəliklərdən əziyyət çəkən uşaqlara yönələn layihə və proqramların icrasını ön plana çəkir. "Regional İnkişaf" İctimai Birliyinin təsis edilməsində əsas məqsəd isə bölgələrdə yaşayan vətəndaşların üzləşdikləri problemlərin, yerli əhalini kompleks şəkildə narahat edən məsələlərin aradan qaldırılmasına yönəlib.




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

səs

Son səhifə 24 dekabr

# İştahanı azaldan məhsullar



Əgər artıq çəkidən təbii yolla xilas olmaq istəyirsinizsə, o halda siz iştahanı azaldan məhsullar qəbul etməlisiniz. Bu ərzaq məhsulları və içkilərin qəbulundan sonra iştaha azalır, toxluq hissi isə uzun müddət davam edir. Bu barədə "MedikForum" yazır.

Qısaca desək, bu məhsullar aclıq hissinin qarşısını almaq və doyumlu, kalorili qidaya meyli azaltmaq hesabına bizim iştahamıza nəzarət edir. Həmin məhsulların ikinci xüsusiyyəti insanda uzun müddət ərzində toxluq hissini yaratmasıdır. İştahanı təbii yolla azaldan qidalar əksər hallarda müxtəlif ərzaq və bitki mənşəli məhsullarda olur. Müəyyən meyvə, tərəvəz və bitkilər bəzi qida əlavələrinin gördüyü işə bənzər təsirə malikdir. Yalnız onlar məhz heç bir kənar təsir olmadan bunu yerinə yetirə bilir. Həmin məhsulları diqqətinizə çatdırırıq.

Yaşıl çay. Sakitləşdirici təsiri ilə yanaşı, yaşıl çay iştahanın qarşısının alınmasında və artıq çəkidən yaxa qurtarmaqda çox faydalıdır. Onun tərkibi kofein və katexin antioksidantları ilə zəngindir. Kofein piylərin əriməsini stimullaşdırır və iştahanı azaldır, katexinlər isə metabolizmi sürətləndirir və orqanizmdə piyin miqdarını aşağı salır.

Avokado. Bu, iştaha azaldan möhtəşəm təbii məhsuldur. Avokado toxluq hissi yaradan liflərlə zəngindir. Bu meyvənin tərkibində bizim beynimizə doyma barədə siqnal göndərən sağlam yağlar mövcuddur.

Alma. Bu, liflərlə zəngin olan daha bir meyvədir. Alma toxluq hissini gücləndirir, qanda şəkərin miqdarını nizamlayır, bizim qeyri-sağlam qəlyanaltılara olan meylimiz nəticəsində yaranan enerji fərqini aradan qaldırır. Bundan başqa, almanı çeynəmək üçün bizə daha çox vaxt lazımdır. Deməli beynin doyma haqqında siqnalı almağa vaxtı çatır.

Su. Sıfır kaloriyə malik olan su aclığın qarşısını almağın öhdəsindən əla gəlir. Tədqiqatlar göstərir ki, əsas qida qəbulu arasında cəmi iki stəkan su içməklə ümumi əldə olunan kalorinin 90-dək azalmasına nail olmaq mümkündür.

Tünd şokolad. Tərkibində azı 70 faiz kakao paxlası olan az porsiyada tünd şokolad iştahanın qarşısını almaqla sözün əsl mənasında möcüzə törədir. Şokoladın acıtəhər dadı orqanizmə aclıq dərəcəsini azaltmaqda yardım edir. Şokoladın tərkibindəki stearin turşusu həzm prosesini ləngidir və toxluq hissinin müddətini uzadır.

Darçın. Bu ədviyyat qanda şəkərin miqdarını tənzimləyir. Bunu dəfələrlə elmi məqalələr sübut edib. Deməli, darçın iştahaya nəzarət edilməsi, qlükoza miqdarının disbalansı zamanı yaranan aclığın qarşısını almaq üçün uyğun ədviyyatdır.

# UEFA rəmzi komanda üçün 15 namizədi açıqladı



UEFA 2019-cu ilin rəmzi komandasına namizəd müdafiəçilərin adlarını açıqlayıb. Qurumun "Tvitter" səhifəsində yer alan məlumatda deyilir ki, siyahıda 15 futbolçunun adı yer alıb. Namizədləri təqdim edirik: Vircil van Deyk, Trent Aleksander-Arnold, Endryu Robertson (hamısı "Liverpul"), Jordi Alba, Jerar Pik (hər ikisi "Barselona"), Deyli Blind, Nikolas Talyafiko (hər ikisi "Ayaks"), Serxio Ramos ("Real"), Kalidu Kulibali ("Napoli"), Yan Vertonqen ("Tottenhem"), Emerik Laport ("Mançester Siti"), Matteys de Liqt ("Yuventus"), Xose Ximenes ("Atletiko"), Yozua Kimmix ("Bavariya"), Sesar Aspilikueta ("Çelsi")

# "Barselona" dünya idmanında ən çox məvacib verən klubdur




"Sportingintelligence" saytı dünya idmanında ən çox məvacib verən klubların reytinqini dərc edib. Belə ki, statistika aparılarkən futbolçuların orta əmək-haqqından istifadə edilib. Siyahıya İspaniyanın "Barselona" klubu liderlik edir. Kataloniya təmsilçisi futbolçularına ildə orta hesabla 11 milyon avro ödəyir. "Real Madrid" 10 milyon avro ilə ikinci, "Yuventus" isə 9 milyon avro ilə üçüncü pillədə qərarlaşıb. Qeyd edək ki, "Barselona" cari mövsümdə İspaniya çempionatına 39 xalla liderlik edir. Kataloniya klubu fevralın 25-də UEFA Çempionlar Liqasının səkkizdəbir final mərhələsində İtaliyanın "Napoli" komandası ilə üz-üzə gələcək.

# Azərbaycan idmançısı kəmər güləşi üzrə dünya çempionu olub



Qazaxıstanın paytaxtı Nur-Sultanda kəmər güləşi üzrə dünya çempionatı keçirilib. Mundialda 100 kiloqramdan yuxarı çəki dərəcəsində mübarizə aparan Camal Feyziyev birinci görüşündə Çin idmançısını məğlub edib. Qırğızıstan təmsilçisini təmiz qələbə ilə üstələyən idmançımız yarımfinalda özbəkistanlı rəqibinə qalib gəlib. C.Feyziyev finalda İran təmsilçisini udaraq dünya çempionu adını qazanıb. Yarışda ədaləti hakim Rəsul Həsənov qoruyub. Qeyd edək ki, çempionata 30 ölkədən 200 idmançı qatılıb.

Futbol üzrə Türkiyə Superliqasının XVI turunda keçirilən İstanbul derbisində "Fənərbağça" doğma meydanda "Beşiktaş"ı qəbul edib. "Şükrü Saracoğlu" stadionunda keçirilən oyuna meydan sahibləri fəal başlayıblar. Görüşün 23-cü dəqiqəsində meydan sahiblərinin hücumçusu Maks Kruse onbir metrlik cərimə zərbəsindən fərqlənib. "Fənərbağça" cəmi 9 dəqiqə sonra hesab arasındakı fərqi artırıb. Ozan Tufan çərçivəni dəqiq nişan alıb. Lakin 45-ci dəqiqədə qonaq komandanın yarımmüdafiəçisi Atiba Hutçinson hesaba tarazlıq gətirib. Oyunda sonuncu qolu isə 58-ci dəqiqədə "Fənərbağça"nın hücumçusu Vedat Muruqi vurub. Beləliklə "Fənərbağça" İstanbul derbisini 3:1 hesabı ilə qazanıb.

# "Latsio" 5-ci dəfə İtaliya Super Kubokunu qazanıb




Dekabrın 22-də Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyadda "Yuventus" və "Latsio" komandaları arasında futbol üzrə İtaliya Superkuboku uğrunda görüş keçirilib. AZƏRTAC xəbər verir ki, "King Saud University" stadionunda təşkil olunmuş qarşılaşma ötən mövsümün çempionu "Yuventus" və ölkə kubokunun qalibi "Latsio" arasında oynanılıb.

Görüş "Latsio" klubunun 3:1 hesablı qələbəsi ilə başa çatıb. Oyunun 17-ci dəqiqəsində Luis Alberto fərqlənib. Birinci hissənin başa çatmasına bir dəqiqə qalmış "Yuventus" hesaba tarazlıq gətirib. Paolo Dibala adını tabloya yazdırıb. Qarşılaşmanın ikinci hissəsinin 73-cü dəqiqəsində "Latsio" yenidən hesabda önə keçib. Senad Luliç cinah ötürməsini dəqiq zərbə ilə tamamlayıb. Bu da oyunda son qol olmayıb. Görüşün 90-cı dəqiqəsində "Latsio" üçüncü dəfə "Yuventus"un qapısına yol tapıb. Daniel Kataldi cərimə zərbəsindən baxımlı qola imza atıb. Bu cərimə zərbəsinə görə baş hakim turinlilərin futbolçusu Rodriqo Bentankura ikinci sarı vərəqə göstərərək meydandan uzaqlaşdırılıb. Qalan dəqiqələrdə hesab dəyişilməyib və "Latsio" tarixində 5-ci dəfə İtaliya Superkubokun qalibi adı qazanıb.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**